RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 16 (10036) 28 yanvar 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Qeyri-neft sənayesinin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindəndir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Azermirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun açılışında iştirak edib.

Dövlət başçısı həmin gün Sumqayıt Sənaye Parkında "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak edib, "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyub.

2

## Qarşılıqlı etimada söykənən strateji tərəfdaşlıq

### Azərbaycan-İsrail əlaqələri uğurla inkişaf edir

Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olan İsrail 1993-cü ildə ölkəmizdə səfirliyini açıb və ötən müddətdə dövlətlərimiz arasında diplomatik əlaqələr uğurla inkişaf edib. Azərbaycan və İsrail arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümündə - 2023-cü ilin martında Azərbaycanın Təl-Əvivdə səfirliyini açması tarixi hadisə oldu və bu, dövlətlərimiz arasındakı yüksək siyasi dialoqdan xəbər verdi. Həmin il mayın 30-da İsrail Prezidenti İshaq Hersoqun ölkəmizə səfəri İsrail-Azərbaycan əlaqələrinin inkişafına və yaxın əməkdaşlıq üçün çox əlverişli imkanlar yaratmasına daha bir vəsilə oldu.

"İsraillə Azərbaycan arasında tərəfdaşlıq Sizin qeyd etdiyiniz və bizim müzakirə etdiyimiz bir çox sahənin də təməl nöqtəsidir. Düşünürəm ki, bu, bir çox səviyyədə xalqlarımıza mesaj göndərir", - deyə həmin səfər zamanı Prezident İlham Əliyevin və İshaq Hersoqun geniş tərkibdə görüşü zamanı İsrail



Prezidenti xüsusi qeyd etdi. İshaq Hersoq onu da bildirdi ki, bu, elə bir mesaj göndərir ki, yəhudilər və müsəlmanlar birlikdə sülhə doğru addımlasalar, birgə açıq dialoq aparsalar, birlikdə dünyanın xeyrinə çalışsalar, birlikdə möhtəşəm işlər görə bilərlər: "İkincisi, bu, strateji münasibətdir, çünki biz sülh, rifah və inkişaf istiqamətlərində bütün regiona öz təsirimizi göstəririk".

7

## Sülh Şurasına dəvət Azərbaycan rəhbərinə göstərilən böyük ehtiramın ifadəsidir

Prezident İlham Əliyev fəaliyyətinin bütün dövrlərində sülhün, əmin-amanlığın tərəfdarı olub. Ən mötəbər tribunalardan bu barədə dəfələrlə çağırışlar edib: "Ölkəmiz müharibə şəraitində olduğu, torpaqlarımız işğal altında qaldığı dövrlərdə, eləcə də qələbə çaldığımız zaman və bu gün də Prezident İlham Əliyev sülh uğrunda qətiyyətli mübariz olduğunu ortaya qoyub. Əlbəttə, bu, bir çox ölkə, dünya lideri tərəfindən yüksək qiymətləndirilir. Eyni zamanda Azərbaycan Yaxın Şərqdə sülhə töhfə verən, bu təşəbbüslərlə çıxış edən dövlətlərdən biridir və buna görə ABŞ-nin sülh planını dəstəkləyir. Bu baxımdan Prezident İlham Əliyevin sülh təşəbbüslərini, bu istiqamətdə ardıcıl səylərini




yüksək qiymətləndirən ABŞ Prezidenti Donald Trampın Sülh Şurasının yaradılmasında təsisçi üzv dövlət qismində Azərbaycanı dəvət etməsi təsadüfi deyil".

6

## NATO ilə əməkdaşlıq milli maraqlara və qlobal təhlükəsizliyə əsaslanır

Bakı alyansa üzv olmasa da, NATO-nun ən etibarlı tərəfdaşlarından biri hesab olunur. Son dönəmdə tərəflər arasında əlaqələr bir neçə istiqamətdə dərinləşib. Azərbaycan Ordusu NATO standartlarına keçid prosesini sürətləndirib. Xüsusilə NATO-nun ikinci böyük ordusuna sahib olan qardaş Türkiyə ilə imzalanan Şuşa Bəyannaməsi prosesə birbaşa təkan verib. "Türk modeli", əslində, NATO standartlarının Azərbaycan reallığına uyğunlaşdırılmasıdır. Bu model Azərbaycanın həm milli maraqlarını qorumağa, həm də NATO-nun hərbi standartlarına ən qısa yolla inteqrasiya etməsinə şərait yaradır. Bu, yalnız silahlanmanı deyil, həm də döyüş aparma fəlsəfəsinin, qərarvermə mexanizmlərinin və logistik idarəetmənin



yenilənməsini nəzərdə tutur. Bəhs edilən metod Bakıya alyansın rəsmi üzvü olmadan belə onun ən müasir texnologiyalarından və təlim metodlarından yararlanmaq imkanı verir. Azərbaycan sülhməramlıları Kosovoda və Əfqanıstanda yüksək peşəkarlıq göstəriblər. Sülhməramlılarımız Əfqanıstanın paytaxtı Kabildə aeroportu ən son tərk edən hərbi qüvvələr olub. NATO rəhbərliyi Azərbaycanın bu töhfələrini mütəmadi olaraq yüksək qiymətləndirir.

Minalarla mübarizə Azərbaycan-NATO tərəfdaşlığının praktiki və humanitar cəhətdən əhəmiyyətli istiqamətlərindən biridir. İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində NATO mütəxəssisləri ilə təlimlər keçirilir. ANAMA (Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi) və NATO-nun Logistika və Təminat Agentliyi (NSPA) arasında mütəmadi məsləhətləşmələr aparılır.

6

## Aİ missiyasının buqələmun taktikası

### Missiya indiki formatını dəyişərək regionda qalmaq niyyətindədir

**Cənubi Qafqazda sülhün konturlarının cızılması regiondakı beynəlxalq oyunçuların gələcək roluna dair sualları aktuallaşdırıb. Mövcud sülh şəraiti aparıcı dövlətləri, xüsusən Qərb institutlarını sülhdən sonrakı dövr üçün yeni və daha kreativ bəhanələr tapmağa vadar edir.**



Avropa İttifaqının Ermənistandakı Müşahidə Missiyasının (EUMA) rəhbəri Markus Ritterin son açıqlamaları bu kontekstdə diqqət çəkir. M.Ritter bildirir ki, sülh sazişi qüvvəyə mindikdən sonra missiyanın fəaliyyətinə ehtiyac qalmayacaq. Bununla belə, o qeyd edir ki, missiyanın 2023-cü ildən bəri həyata keçirdiyi fəaliyyətlər gələcəkdə də müəyyən formada davam etdiriləcək. Ritterin sözlərinə görə, sərhəddə patrul xidməti və hesabatların təqdim olunması ilə paralel olaraq, sərhədyanı icmaların, o cümlədən münaqişədən zərərçəkmiş yaşayış məntəqələrinin ziyarəti də həyata keçiriləcək. Missiyanın rəhbəri onu da vurğulayıb ki, 2025-ci ilin avqustunda Vaşinqton razılaşmalarının imzalanmasından sonra sərhəddə heç bir insident qeydə alınmayıb.

Ritter bir tərəfdən, regionda marağı olan digər güclərin (Rusiya, İran) missiyaya qarşı narahatlığını azaltmağa çalışır, digər tərəfdən isə Aİ-nin regionda "ayaq izini" saxlamaq niyyətini büruzə verir. Onun Ermənistandakı Aİ missiyası ilə bağlı bəyanatı getmək istəyən deyil, daha çox qalmaq üçün bəhanə axtaran diplomatın çıxışını xatırladır. Sülh müqaviləsindən sonra missiyaya ehtiyacın bitəcəyini elan edən rəsmi Brüssel, eyni zamanda sərhədyanı icmalarla iş adı altında yeni bir fəaliyyət mexanizminin anonsunu verir. Ritter missiyanın fəaliyyətinin "müəyyən formada" davam edəcəyinə işarə vurur. Bu, missiyanın adının və hüquqi statusunun dəyişdirilməsi planıdır.

12

## "Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa səsləyirik"

**Sosial şəbəkə platformalarında fəaliyyət göstərən bir sıra hesablar vasitəsilə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin adından "deepfake" texnologiyası tətbiq olunmaqla hazırlanmış, reallığı əks etdirməyən və saxta məzmunlu video yayılıb.**

Medianın İnkişafı Agentliyindən AZƏRTAC-a bildiriblər ki, süni intellektin köməyi ilə hazırlanmış, ictimai rəyi çaşdırmağa yönələn bu dezinformasiya nümunəsi Azərbaycan ilə Türkiyə arasındakı münasi-




bətləri zədələməyə, iki qardaş ölkə arasında mövcud olan strateji müttəfiqliyə xələl gətirməyə və qarşılıqlı etimadı sarsıtmağa xidmət edir.

Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, "deepfake" texnologiyaları ilə məzmunyaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik.

Eyni zamanda sosial şəbəkə platformalarının sahiblərini və müvafiq qurumları zərərli və saxta məzmunun operativ şəkildə aradan qaldırılması, bu tip halların qarşısının alınması üçün effektiv mexanizmlərin tətbiqi istiqamətində tədbirlər görməyə dəvət edirik.

# Qeyri-neft sənayesinin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindəndir

## Prezident İlham Əliyev Sumqayıt Sənaye Parkında güzgü vərəqələrin istehsalı zavodunun açılışında iştirak edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Azermirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına əvvəlcə ölkəmizdə yaradılan sənaye zonaları və Sumqayıt Sənaye Parkının fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, hazırda ölkəmizdə mövcud sənaye zonalarında 104 müəssisə istehsal fəaliyyətinə başlayıb. İndiyədək sənaye zonalarına 7 milyard manatdan çox investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə 1,74 milyard manata yaxın investisiyanın yatırılması nəzərdə tutulur. Sənaye zonalarında indiyədək ümumilikdə 19,4 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 6,1 milyard manatlıq hissəsi ixrac olunub. Hazırda istehsal olunan məhsullar dünyanın 70 ölkəsinə ixrac edilir. Respublikanın müxtəlif regionlarında sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, orada sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün əlverişli mühitin formalaşdırılması iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi məqsədilə ölkədə reallaşdırılan uğurlu sənayeləşmə siyasətinin nəticəsidir. Sənaye zonaları biznes subyektlərinin innovativliyinin və istehsal səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan məhsul istehsalının təşviqində, ixrac potensialının genişləndirilməsində, eyni zamanda əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Hazırda ölkədə Sumqayıt, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" daxil olmaqla 8 sənaye parkı fəaliyyət göstərir. Naxçıvan Sənaye Parkının, eləcə də Gəncə şəhəri və Şəmkir rayonu ərazisində yeni Qərb Sənaye Parkının yaradılması istiqamətində işlər görülür. Bütün bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərur sənaye məhəllələri də istehsal və sahibkarlıq fəaliyyətinin inkişafına töhfə verir.

Qeyd edək ki, ümumi sahəsi 640 hektar olan Sumqayıt Sənaye Parkında hazırda 40 rezident fəaliyyət göstərir, layihələrin ümumi dəyəri 6,7 milyard manat, faktiki investisiya həcmi isə 5,5 milyard manat təşkil edir. Layihələr çərçivəsində 8800-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Faktiki olaraq 6135 nəfər işlə təmin edilib. Rezidentlərin ümumi satış həcmi 15,4 milyard manata çatıb ki, bunun da 5,7 milyard manatı ixracın payına düşür.

"Azermirror" MMC-nin təsisçisi Rüstəm Abbasov Prezident İlham Əliyevə müəssisə barədə məlumat verdi. Bildirildi ki, bu MMC-yə 2023-cü ildə Sumqayıt Sənaye Parkının rezidenti statusu verilib. "Azermirror" tərəfindən sənaye parkının 1 hektar ərazisində güzgü vərəqələrin istehsalı zavodu tikilib. Burada 30 nəfər daimi işlə təmin olunub. Zavodda ildə 900 min kvadratmetr güzgü vərəqəsi istehsal ediləcək. Müəssisədə hazırlanan məhsulların daxili bazarın tələbatını ödəməklə yanaşı, ixracı da nəzərdə tutulur. Çin texnologiyası əsasında qurulan layihənin investisiya dəyəri 6,13 milyon manatdır. Müəssisənin yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,5 milyon manat güzəştli kredit ayrılıb. Sənaye parkının rezidentlərinə verilən bütün güzəştlərdən yararlanan "Azermirror" MMC 600 min manat dəyərində vergi və gömrük azadolmasından faydalanıb.

Onu da qeyd edək ki, Azərbaycanda qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ölkəmizdə mövcud təbii və iqtisadi resurslardan səmərəli istifadə, innovativ yanaşmaların və qabaqcıl texnologiyaların sənaye istehsalına cəlb olunması, yeni sənaye sahələrinin formalaşdırılması, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsi istiqamətində sistemli tədbirlər davam etdirilir.

## Sumqayıt Sənaye Parkında karton və qutu taralarının istehsalı müəssisəsinin açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak edib.**





AZƏRTAC xəbər verir ki, "Bakı Karton və Qutu Fabriki" MMC-nin rəhbəri Kamran Salmanlı dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, 2023-cü ildə Sumqayıt Sənaye Parkının rezidenti statusu verilən "Bakı Karton və Qutu Fabriki" MMC tərəfindən parkın 3 hektara yaxın ərazisində karton və qutu taralarının istehsalı müəssisəsi qurulub. Türkiyə və Çin texnologiyalarından istifadə edilən müəssisədə il ərzində 55 milyon kvadratmetr karton və qutu tarası istehsal olunacaq. Burada birinci mərhələdə karton və qutu istehsalının, ikinci mərhələdə isə karton istehsalı üçün tələb olunan yerli xammalın təkrar emalının həyata keçirilməsi planlaşdırılır. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. Müəssisənin investisiya dəyəri 20 milyon manatdır. Onun yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 2 milyon manat dəyərində güzəştli kredit ayrılıb. Burada 64 daimi iş yeri yaradılıb. Sənaye parkının rezidentlərinə verilən bütün güzəştlərdən yararlanan müəssisə təqribən 1,3 milyon manat dəyərində vergi və gömrük azadolmasından faydalanıb.




Qeyd edək ki, sənaye zonalarında sahibkarlığın inkişafını təşviq etmək məqsədilə rezidentlər üçün geniş güzəşt və stimullaşdırıcı mexanizmlər tətbiq olunur. Belə ki, rezidentlər dövlət vəsaiti hesabına yaradılmış hazır infrastrukturla - qaz, elektrik enerjisi, su, çirkab sularının axıdılması sistemləri, daxili avtomobil və dəmir yolları, həmçinin fiber-optik internet xətləri ilə təmin edilir. Eyni zamanda rezidentlər 10 il müddətinə əmlak, torpaq və mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə əlavə dəyər vergisindən, həmçinin gömrük rüsumlarından azad olunurlar.

## Prezident İlham Əliyev Sumqayıt Sənaye Parkında polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyub.**




AZƏRTAC xəbər verir ki, "Nun" MMC-nin təsisçisi Kamran Rzayev yaradılacaq müəssisə barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, ötən il Sumqayıt Sənaye Parkının rezidenti statusu verilən bu MMC tərəfindən reallaşdırılacaq layihəyə uyğun olaraq 1 hektar ərazidə istehsal müəssisəsinin tikintisi nəzərdə tutulub. Almaniya texnologiyasından istifadə ediləcək müəssisənin illik istehsal gücü 1680 ton laminatlı kisə, 1440 ton polipropilen kisə olmaqla ümumilikdə 3120 tondan çox təşkil edəcək. Məhsullar əsasən daxili bazarın tələbatını ödəyəcək. Burada 140 daimi iş yeri yaradılacaq. İnvestisiya həcmi 11,2 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 3 milyon manat dəyərində güzəştli kredit ayrılması nəzərdə tutulub. Burada quraşdırılacaq avadanlığın idxal zamanı ƏDV və gömrük rüsumlarından azad olunması planlaşdırılır.



# Nazirlər Kabinetində Xəzər dənizinin və Bakı buxtasının ekoloji vəziyyətinə dair iclas keçirilib



Baş nazir Əli Əsədovun sədrliyi ilə yanvarın 27-də Nazirlər Kabinetində "Xəzər dənizində müxtəlif təyinatlı qəzalı və yararsız vəziyyətdə olan hidrotexniki qurğuların, o cümlədən qəzalı vəziyyətdə olan və ləğv olunmuş quyuların təkrar ləğvi və izolyasiyası, estakadaların, yanalma körpülərinin, platformaların, həmçinin batmış və yarımbatmış vəziyyətdə olan gəmilərin çıxarılması və digər reabilitasiya işlərinin həyata keçirilməsinə dair 2025-2030-cu illər üçün Kompleks Tədbirlər Planı"nın icrası və Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələlərinə həsr olunmuş iclas keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş nazir çıxışında Xəzər dənizinin Azərbaycana mənsub bölməsindəki neft-qaz yataqlarında Sovet İttifaqından miras qalmış müxtəlif təyinatlı hidrotexniki qurğuların, ləğv edilmiş və ya konservasiya olunmuş neft quyularının, estakadaların, yanalma körpülərinin, platformaların köhnəlməsi, korroziyaya uğraması və hidrometeoroloji amillərin təsiri səbəbindən qəzalı vəziyyətə düşməsi nəticəsində yaranmış problemlərin dənizin ekoloji vəziyyətinə neqativ təsir göstərdiyini, eyni zamanda uzun müddət antropogen təsirlərin davam etməsi nəticəsində Bakı buxtasında (Dənizkənarı bulvarın) da çirklənmənin dərinləşdiyini və onun ekoloji vəziyyətinin yaxşılaşdırılmasına kəskin zərurət yarandığını bildirib.

Kompleks Tədbirlər Planı ilə bağlı Nazirlər Kabineti Aparatının Sənaye və energetika şöbəsinin müdiri Elşən Hacızadənin təqdimatla çıxışı olub və fövqəladə hallar naziri Kəmaləddin Heydərovun, ekologiya və təbii sərvətlər nazirinin birinci müavini Rəşad İsmayılovun, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəfin və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Əfqan Cəlilovun məruzələri dinlənilib.

Eyni zamanda Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələləri ilə bağlı Dənizkənarı bulvar İdarəsi İdarə Heyətinin sədri Xanlar Ağalarovun və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılovun məruzələri və digər çıxışlar dinlənilib.

Hər iki məsələ ətrafında müzakirələr aparılaraq aidiyyəti dövlət qurumlarına Xəzər dənizində monitorinqlər aparmaqla interaktiv xəritə-sxemin hazırlanması, iş həcmlərinin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və tədbirlərin dövlət-özəl tərəfdaşlığı prinsipi əsasında həyata keçirilməsi, habelə qəzalı və yararsız vəziyyətdə olan hidrotexniki qurğuların və quyuların demontajı, batmış və yarımbatmış gəmilərin çıxarılması, görülən tədbirlərin dənizətrafı mühitin yaxşılaşmasına təsirinin qiymətləndirilməsinin həyata keçirilməsi üzrə müvafiq tapşırıqlar verilib.

Həmçinin Bakı buxtasının (Dənizkənarı bulvarın) təmizlənməsi və ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə dəniz suyunun çəkilməsi ilə sahilə yaxın hissələrdə üzə çıxmış metal konstruksiyaların ərazidən kənarlaşdırılması, hövzəyə çirkab suların axıdılmasının qarşısının alınması, suyun səthində üzən neft ləkələrinin və müxtəlif tullantıların, habelə ətrafda neftlə çirklənmiş torpaqların təmizlənməsi istiqamətində təxirəsalınmaz işləri özündə ehtiva edən tədbirlər planının hazırlanması tapşırığı verilib.

# Milli Məclisin Sədri Birləşmiş Ərəb Əmirliklərinə səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının (ADPA) Qadın Parlament Forumunun 2-ci Sessiyasında iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) işgüzar səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Əbu-Dabi şəhərinin beynəlxalq hava limanında Milli Məclisin Sədrinin başçılıq etdiyi parlament nümayəndə heyətini BƏƏ Federal Milli Şurasının Sədri Saqr Qobaş, Federal Milli Şuranın Sədr müavini və ADPA-nın Qadın Parlament Forumunun sədri Məryam bin Thaneya, Azərbaycanın BƏƏ-dəki səfiri Elçin Bağırov və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının Qadın Parlament Forumunun 2-ci sessiyasında çıxış edib



**Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Əbu-Dabidə keçirilən Aralıq Dənizi Parlament Assambleyasının Qadın Parlament Forumunun 2-ci sessiyasında iştirak edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sessiyanın açılış mərasimində çıxış edən spiker Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının dialoq, həmrəylik və qarşılıqlı anlaşma üçün bir platforma olduğunu qeyd edib. Onun sözlərinə görə, gender bərabərliyinə və qadınların səlahiyyətləndirilməsinə xüsusi önəm verilməsi assambleyanın ümumi məqsədlərə nail olmaq naminə kollektiv fəaliyyətə davamlı sadiqliyinin bariz nümunəsidir.

Azərbaycan Milli Məclisinin Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu əldə etmək üçün rəsmi müraciət etdiyini xatırladan Sahibə Qafarova bu müraciətin dəstəklənməsinin daha sıx əməkdaşlıq və daha səmərəli birgə fəaliyyət üçün yeni imkanlar açacağına inamını ifadə edib. O, eyni zamanda hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında əlaqələrin də inkişafında maraqlı olduğumuzu qeyd edib. Vurğulanıb ki, assambleyanın nümayəndəsi Parlament Şəbəkəsinin ötən ilin aprel ayında Daşkənddə keçirilmiş 4-cü konfransında iştirak edib. Milli Məclisin Sədri deyib ki, iki qurum arasında qarşılıqlı müşahidəçi statusunun verilməsi və əməkdaşlıq sazişinin imzalanması yolu ilə institusional əlaqələrin qurulması parlament diplomatiyasının ümumi məqsədlərinə əhəmiyyətli töhfə verəcək.

Çıxışında tədbirin mövzusunun əhəmiyyəti barədə fikirlərini bölüşən spiker Sahibə Qafarova deyib ki, gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi haqlı olaraq Dayanıqlı İnkişaf Məqsədlərindən biri kimi müəyyən edilib. Bu məqsədlər yalnız arzuolunan deyil, həm də daha ədalətli dünyanın qurulması və gələcək nəsillər üçün daha yaxşı gələcəyin təmin olunması baxımından zəruridir. Bununla belə, ciddi çağırışların hələ də mövcud olduğunu deyən Milli Məclisin Sədri vurğulayıb ki, bu çağırışlar hər hansı bir ölkə və ya regionla məhdudlaşmır, qlobal xarakter daşıyır. Ona görə də bu istiqamətdə tərəqqi yalnız milli səylərlə deyil, beynəlxalq səviyyədə davamlı və əlaqələndirilmiş fəaliyyətlə mümkündür. Bu baxımdan, bugünkü müzakirələr bir daha beynəlxalq əməkdaşlığın, xüsusilə də xalqlarımızın nümayəndələri olan parlamentarilər arasında əməkdaşlığın əhəmiyyətini önə çəkir.

Spiker Sahibə Qafarova deyib ki, ilk növbədə real və davamlı irəliləyiş cəmiyyətdə mövcud olan düşüncə tərzinin dəyişdirilməsindən asılıdır. Qadın və kişilərin mahiyyət etibarilə bərabər olması prinsipi cəmiyyətin əsas dəyəri kimi möhkəmləndirilməlidir. Digər tərəfdən qadınların ictimai həyatda və qərar qəbuletmə proseslərində tam və bərabər iştirakı olmadan güclü, firavan və dayanıqlı cəmiyyət qurmaq mümkün deyil. Onun sözlərinə görə, cəmiyyətin yarısının hüquq və potensialını nəzərə almayan hər hansı təşəbbüs qaçılmaz olaraq dayanıqsızdır.

Azərbaycanda gender bərabərliyi sahəsində mövcud olan vəziyyət haqqında tədbir iştirakçılarına məlumat verən spiker Sahibə Qafarova deyib ki, güclü ailə və mədəni ənənələrə söykənən Azərbaycan cəmiyyətində qadınlar ailənin - cəmiyyətin ən kiçik vahidinin - formalaşmasında və dəyərlərin gələcək nəsillərə ötürülməsində daim mərkəzi rol oynayıb. Qadınlar cəmiyyətdə həmişə bərabər tərəfdaş kimi qəbul edilib və onun inkişafına həlledici təsir göstərib. Milli Məclisin Sədri xatırladıb ki, müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəbin 1901-ci ildə Bakıda açılması və qadınlara 1918-ci ildə seçki hüququnun verilməsi bu yanaşmanı əks etdirir və Azərbaycan cəmiyyətində qadınların mühüm rolunu bir daha təsdiqləyir. Bu gün Azərbaycan qadınları siyasət, iqtisadiyyat, elm və təhsil, səhiyyə və digər sahələrdə fəal şəkildə təmsil olunurlar. Qadınlar qanunverici və icraedici hakimiyyət orqanlarında, məhkəmə sistemində və diplomatik fəaliyyətdə yüksək vəzifələr tuturlar. O, 2026-2028-ci illəri əhatə edən Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının qəbul edilməsinin Azərbaycan hökuməti tərəfindən bu sahədə ardıcıl şəkildə həyata keçirilən tədbirlərin davamı olduğunu söyləyib.

Azərbaycan parlamentinin bu prosesdə cəmiyyətin dəyişən tələblərinə uyğun olaraq qanunvericilik bazasının hazırlanması və daim təkmilləşdirilməsində fəal rol oynadığını bildirən spiker Sahibə Qafarova deyib ki, ötən çağırış Milli Məclisdə gender bərabərliyi və ailə siyasəti ilə bağlı 53 qanun layihəsi müzakirə edilib, 17 ictimai dinləmə keçirilib. İnstitusional səviyyədə gender bərabərliyi fəal şəkildə təşviq olunur və qadın deputatlar parlament komitələrinin əksəriyyətində təmsil olunaraq qanunvericilik müzakirələrində öz baxışlarının əks olunmasını təmin edirlər. Bununla yanaşı, spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan Parlamenti gender bərabərliyinin təşviqi və qadınların səlahiyyətləndirilməsi sahəsində beynəlxalq əməkdaşlığı qətiyyətlə dəstəkləyir və müxtəlif beynəlxalq platformaların işində fəal iştirak edir. O, bu forum çərçivəsində aparılan müzakirələrin real nəticələr verəcəyinə və qadınların səlahiyyətləndirilməsi kimi ümumi məqsədin - regionumuzda sosial həmrəyliyin, dayanıqlılığın və davamlı inkişafın möhkəmləndirilməsinin əsas şərti olan bu məqsədin - irəlilədilməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

*"Azərbaycan"*

# Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Vyetnamda səfərdədir






**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnam Milli Statistika İdarəsinin baş direktoru Nguyen Thi Hongun dəvətilə Vyetnam Sosialist Respublikasına səfər edib.**

Səfər çərçivəsində nümayəndə heyətinin Vyetnam xalqının öndəri Ho Şi Minin məqbərəsinə, muzeyinə və vaxtilə yaşadığı evinə ziyarəti təşkil olunub. Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Ümummilli Lider Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinə dair şəkillər nümayiş olunmaq üçün nümayəndə heyəti adından muzeyə hədiyyə olunub.

Tahir Budaqov ilə Vyetnam Kommunist Partiyasının baş katibi To Lam arasında görüş keçirilib. Görüşdə Azərbaycan-Vyetnam münasibətlərinin dərin tarixi köklərə malik olduğu vurğulanaraq xalqlarımız arasındakı dostluq əlaqələrinin hələ SSRİ dönəmində formalaşdığı, Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Ümummilli Lider Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyət daşıdığı bildirilib.

To Lam ötən ilin may ayında ölkəmizə səfərini xatırladıb və Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi də Vyetnamda səbirsizliklə gözlədiklərini deyib. O, strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul olunması ilə Azərbaycan-Vyetnam münasibətlərinin yeni inkişaf mərhələsinə yüksəldiyini qeyd edib.

Tahir Budaqov Azərbaycan ilə Vyetnam arasında münasibətlərin inkişafında liderlər arasında şəxsi dostluğun böyük rol oynadığını bildirərək müxtəlif sahələrdə, o cümlədən statistika qurumları arasında əməkdaşlığın genişləndirilməsinin diqqət mərkəzində olduğunu deyib.

Görüşdə hakim siyasi partiyalar arasında əlaqələrin Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı xüsusunda əhəmiyyəti vurğulanaraq 2023-cü ildə imzalanmış Əməkdaşlıq Sazişindən irəli gələn vəzifələrin müvəffəqiyyətlə həyata keçirildiyi qeyd olunub.

Nümayəndə heyətinin Vyetnamın Milli Statistika İdarəsinin baş direktoru Nguyen Thi Hong ilə görüşü zamanı isə Azərbaycan ilə Vyetnamın bir-birinin maraqlarına hörmət edən dost və tərəfdaş ölkə olduqları, dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu qeyd edilib. İki ölkənin iqtisadi-ticari, mədəni, humanitar, təhsil, turizm, enerji və digər sahələrdə işbirliyinin genişləndirilməsində maraqlı olduqları vurğulanaraq "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan irəli gələn vəzifələrin həyata keçirilməsinin beynəlxalq səviyyədə müqayisə edilə bilən və hər iki ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatlar mübadiləsinin genişləndirilməsi və dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmi qeyd olunub.

Görüş zamanı Anlaşma Memorandumu çərçivəsində statistika sahəsində 2026-2028-ci illər üçün iş planı da imzalanıb. İş planı əsasında görüləcək işlərin statistika sahəsində institusional əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyi vurğulanıb.

Vyetnam xarici işlər nazirinin müavini Nguyen Minh Vu ilə görüşdə isə iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# "Azərenerji" və Dünya Bankı nümayəndə heyətlərinin görüşü olub

**"Azərenerji" ASC-nin sədri Baba Rzayevlə Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə direktoru Çarlz Kormierinin rəhbərlik etdiyi nümayəndə heyətlərinin görüşü olub.**




Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, görüşdə AZURE layihəsinin icra statusu, növbəti addımlar və işin daha da sürətləndirilməsinin vacibliyi barədə müzakirələr aparılıb.

Azərbaycanda həyata keçirilən irihəcmli bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası və əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi edilib.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının Sədri ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində bu ölkənin Federal Milli Şurasının Sədri Saqr Qobaşla görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlament Sədrini səmimiyyətlə salamlayan Saqr Qobaş bu səfərə və Aralıq Dənizi Parlament Assambleyasının Qadın Parlament Forumunun 2-ci sessiyasında iştirakına görə Milli Məclis Sədrinə təşəkkür edib.



Görüşdə ölkələrimiz arasında münasibətlərin dinamik və hərtərəfli inkişafından məmnunluq ifadə olunaraq, tarixi, dini və mədəni köklərlə bir-birinə bağlı olan ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələr üzrə yüksək səviyyədə inkişaf etdiyi qeyd olunub. Vurğulanıb ki, ölkələrimizin liderlərinin birgə səyləri və şəxsi münasibətləri Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında, habelə xalqlarımız arasında əlaqələrin daha da dərinləşməsinə imkan verib və bu gün ölkələrimiz bir çox sahədə geniş və uğurlu əlaqələrə malikdir.

Milli Məclisin Sədri Azərbaycan Prezidenti İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görüldüyünü xatırladaraq, dövlətimizin başçısının Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyan belə nüfuzlu mükafata layiq görülməsinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Söhbət zamanı parlamentlərarası əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri barədə də fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, ölkələrimiz arasında yüksəksəviyyəli əlaqələr parlament platformasında da uğurla davam etdirilir və son dövrlər qanunvericilik orqanlarımız arasında təmaslar və qarşılıqlı səfərlər daha da artıb. Spiker Sahibə Qafarova ötən il özünün Birləşmiş Ərəb Əmirliklərinə, Saqr Qobaşın isə Azərbaycana rəsmi səfərlərini xatırlayaraq, bu səfər və görüşlərin, həmçinin parlamentlər arasında imzalanmış əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasının əlaqələrin daha da dərinləşməsinə imkan verdiyini bildirib. O cümlədən, parlamentlərimizin beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığından məmnunluq ifadə olunub.

Saqr Qobaş da öz növbəsində Azərbaycana səfərini məmnunluqla xatırlayaraq, səfər çərçivəsində keçirilən görüşlərin əlaqələrimizə müsbət töhfələrini vurğulayıb.

Spiker Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının Qadın Parlament Forumunun 2-ci sessiyasının uğurla təşkil olunduğunu qeyd edərək, bu kimi beynəlxalq tədbirlərin bəşəriyyəti narahat edən məsələlərin müzakirəsi baxımından əhəmiyyətini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının Sədri ilə görüşüb

**Yanvarın 27-də Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) işgüzar səfəri çərçivəsində Aralıq Dənizi Parlament Assambleyasının (ADPA) Sədri Cülio Çentemero ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin Sədri ADPA-nın Qadın Parlament Forumunun 2-ci sessiyasının əhəmiyyətindən danışıb və Azərbaycan parlamentinin bu qurumla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Spiker Sahibə Qafarova ADPA-nın büro iclasında Milli Məclisə müşahidəçi statusunun verilməsi ilə bağlı müraciətin təsdiqindən məmnunluğunu bildirib və yekun qərar verildikdən sonra bu statusun qarşılıqlı parlamentlərarası əlaqələrin inkişafı üçün yeni imkanlar yaradacağına inamını ifadə edib.

Söhbət zamanı Aralıq Dənizi Parlament Assambleyasının Sədri Cülio Çentemero diqqətə çatdırıb ki, ADPA Azərbaycanla əməkdaşlıqda maraqlıdır. O qeyd edib ki, Azərbaycan Aralıq Dənizi regionunda olmasa da, regionda yerləşən mühüm bir ölkədir. Bu da parlament dialoqu üçün yaxşı imkanlar yaradır.

Görüşdə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi (QHPŞ) ilə ADPA arasında əməkdaşlıq məsələlərinə də toxunulub. Spiker Sahibə Qafarova Milli Məclisin beynəlxalq əlaqələrin inkişafında maraqlı olduğunu diqqətə çatdırıb.

Söhbətdə QHPŞ və ADPA arasında əməkdaşlıq, qarşılıqlı müşahidəçi statuslarının verilməsi barədə də danışılıb. Bildirilib ki, hər iki təşkilatda oxşar məsələlərin müzakirə olunması əməkdaşlıq üçün yaxşı imkanlar yaradır.

Söhbət zamanı ADPA Sədri Cülio Çentemero bu təşkilatın məşğul olduğu məsələlər və onun fəaliyyəti barədə məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər mövzular barəsində də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin fevral ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 4,18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 5 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 6,13,27 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 20 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 23 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 24 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 24 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 25 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 27 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 27 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 26 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

## *Hulusi KILIÇ:* "Türkiyə-Azərbaycan münasibətlərinə xələl gətirmək cəhdləri uğursuzluğa məhkumdur"

**"Bəzi media orqanları və fərdi sosial media istifadəçiləri tərəfindən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın guya həlak olan erməni əsgərlərinin ailələrinə, eləcə də Ermənistan cəmiyyətinin ehtiyacı olan təbəqələrinə 10 milyon dollar maliyyə yardımı ayırmaq qərarı ilə bağlı yayılan iddialar tamamilə əsassızdır. Bu cür dezinformasiya Türkiyə-Azərbaycan münasibətlərinə xələl gətirməyə yönəlib".**




Bu barədə Türkiyənin Azərbaycandakı sabiq səfiri, İMZA Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyədəki nümayəndəsi və TADİV Fondunun İdarə Heyətinin üzvü Hulusi Kılıç AZƏRTAC-a verdiyi müsahibədə bildirib.

Onun sözlərinə görə, sarsılmaz olan Türkiyə-Azərbaycan ittifaqı qardaşlıq və dostluq kimi güclü tarixi təmələ malikdir. Kılıç əlavə edib: "Ölkələrimiz arasındakı münasibətlər dünyada misilsizdir. Müəyyən dairələrin yaydığı dezinformasiya Ankara ilə Bakı arasındakı birliyə paxıllıqdan qaynaqlanır və uğursuzluğa məhkumdur. Əminəm ki, Türkiyə Azərbaycanın maraqlarına zidd heç bir addım atmayacaq. Biz bir millət, iki dövlətik".

Sabiq səfir ictimaiyyəti yalan məlumatlara inanmamağa çağırıb.

# Zəngəzur dəhlizi region ölkələri üçün strateji imkanlar yaradır

"Zəngəzur dəhlizi Cənubi Qafqazda yeni nəqliyyat-kommunikasiya reallıqlarını formalaşdıran əsas layihələrdən biri kimi region ölkələri üçün mühüm siyasi və iqtisadi əhəmiyyət daşıyır. Müasir geosiyasi və geoiqtisadi çağırışlar fonunda bu dəhliz regional əməkdaşlığın dərinləşməsinə və dayanıqlı inkişafın təmin olunmasına xidmət edən vacib mexanizm kimi qiymətləndirilir".

Bunu AZƏRTAC-a açıqlamasında Kocaeli Heydər Əliyev mədəniyyə mərkəzinin sədri, siyasi ekspert Bilal Dündar bildirib.

Onun sözlərinə görə, dəhlizin əsas əhəmiyyəti ilk növbədə regionun nəqliyyat-logistika potensialının artırılması ilə bağlıdır.

"Zəngəzur dəhlizi Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birbaşa birləşdirməklə yanaşı, "Şərq-Qərb" və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Marşrutlarının funksionallığını gücləndirir. Bu isə yükdaşımaların sürətlənməsinə, tranzit xərclərinin azalmasına və regionun Avropa ilə Asiya arasında etibarlı körpü rolunun möhkəmlənməsinə imkan yaradır. İqtisadi baxımdan Zəngəzur dəhlizi region ölkələri üçün yeni inkişaf perspektivləri açır. Dəhlizin fəaliyyətə başlaması tranzit gəlirlərinin artmasına, logistika mərkəzlərinin və sənaye zonalarının yaradılmasına, həmçinin ticarət dövriyyəsinin genişlənməsinə şərait yaradır. Xüsusilə Azərbaycan üçün bu layihə ölkənin nəqliyyat qovşağı kimi mövqeyini daha da gücləndirir, regionun iqtisadi xəritəsində aparıcı rolunu möhkəmləndirir. Zəngəzur dəhlizi Türkiyə ilə Azərbaycanın birbaşa quru əlaqəsini təmin etməklə türk dünyası ölkələri arasında iqtisadi və nəqliyyat inteqrasiyasını sürətləndirir. Bu dəhliz Orta Asiya dövlətlərinin Avropa bazarlarına çıxışını asanlaşdırmaqla yanaşı, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın real infrastruktur əsaslarını formalaşdırır", - deyə o vurğulayıb.

Ekspert bildirib ki, layihə Ermənistan üçün də yeni imkanlar yaradır. Belə ki, kommunikasiyaların açılması bu ölkənin regional nəqliyyat şəbəkələrinə inteqrasiyasını təmin edə, tranzit ölkə statusu qazanmasına və iqtisadi fəallığın artmasına töhfə verə bilər: "Bu baxımdan Zəngəzur dəhlizi regionda qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq modelinin formalaşmasına xidmət edir. Zəngəzur dəhlizi sülh və sabitliyin möhkəmləndirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır. Nəqliyyat-kommunikasiya xətlərinin açılması region ölkələri arasında qarşılıqlı etimadı artırır, iqtisadi asılılığı gücləndirməklə uzunmüddətli təhlükəsizlik üçün möhkəm zəmin yaradır. Beləliklə, Zəngəzur dəhlizi yalnız nəqliyyat layihəsi deyil, regionun gələcək inkişafını müəyyənləşdirən strateji təşəbbüsdür. Bu dəhlizin reallaşması Cənubi Qafqazın qlobal iqtisadi və nəqliyyat sistemində mövqelərini gücləndirməklə yanaşı, region ölkələri üçün qarşılıqlı fayda və dayanıqlı inkişaf imkanları yaradır".

## *"Milliyet" qəzeti:* "Türk dövlətlərinin müdafiə sahəsində əməkdaşlığı uzunmüddətli perspektiv üçün nəzərdə tutulur"

Türk dövlətləri arasında müdafiə sahəsində əməkdaşlıq uzunmüddətli perspektivləri olan vacib və zəruri bir istiqamətdir. AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin aparıcı media orqanlarından biri olan "Milliyet" qəzetində yanvarın 27-də dərc olunmuş məqalədə bildirilib.

Qəzet Azərbaycan Prezidenti İlham Əliyevin Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Zirvə görüşündə elan etdiyi birgə təlimlərin keçirilməsi təşəbbüsünü xatırladıb və bu məsələ ilə bağlı türk mütəxəssislərinin fikirlərinə istinad edib.

Dumlupınar Universitetinin Beynəlxalq əlaqələr kafedrasının müdiri professor Hüsaməddin İnaç TDT ölkələri üçün ortaq təhlükəsizlik və müdafiə arxitekturası yaratmaq səylərini vurğulayıb. O qeyd edib: "Bu prosesin ən diqqətəlayiq tərəfi Azərbaycanın türk dövlətləri ordularının vaxtaşırı birgə təlimlər keçirəcəyi mərkəz kimi seçilməsidir. Əminəm ki, bu proses həm regional aktorlar, həm də böyük qlobal güclər tərəfindən yaxından izlənilir".

Təqaüddə olan general-mayor Güray Alpar öz növbəsində TDT-nin yaradılmasından sonrakı ilk illərdə mədəni sahədə əməkdaşlığa üstünlük verildiyini qeyd edib. O əlavə edib: "Müdafiə sahəsində əməkdaşlıq, şübhəsiz ki, zəruri və mümkündür, lakin mədəni və iqtisadi sahələrdə konsolidasiyadan sonra həll edilməli olan məsələ hesab olunur. Buna baxmayaraq, bu sahədə hazırlıq işlərinə indi başlamaq lazımdır. Bu cür təşəbbüslər uzunmüddətli perspektiv üçün nəzərdə tutulur".

# DTX səfirliyə terror hücumuna hazırlaşan şəxsləri həbs edib

**Xarici ölkənin Azərbaycandakı səfirliyinə qarşı terror hücumu etməyə hazırlaşan şəxslər həbs edilmişlər.**




Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri zamanı Azərbaycan Respublikasının vətəndaşları - 2000-ci il təvəllüdlü, "Abu Zər əl-Mühacir" dini ləqəbli Quliyev İlqar İlham oğlu, 2005-ci il təvəllüdlü, "Abdurəşid" dini ləqəbli Piriyev Amin Elşad oğlu və 2005-ci il təvəllüdlü "Abdurrahman əl-Azəri" dini ləqəbli Əlizadə Elvin Sənan oğlunun dini düşmənçilik zəminində Bakı şəhərində xarici ölkənin səfirliyinə terror hücumu törətməyə hazırlıq görmələrinə əsaslı şübhələr yaranmışdır.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətinin məlumatına görə, adıçəkilən şəxslər İŞİD terror təşkilatının "Vilayəti-Xorasan" silahlı qruplaşmasının üzvləri ilə cinayət əlaqəsinə girərək, qabaqcadan əlbir olan bir qrup şəxs halında xarici dövlətin Azərbaycan Respublikasındakı səfirliyinə terror hucumu etmək üçün silah qismində istifadə edilən predmetlər əldə edib səfirliyin yerləşdiyi əraziyə yaxınlaşarkən DTX-nin əməkdaşları tərəfindən saxlanılmışlar.

Faktla bağlı İlqar Quliyev, Amin Piriyev və Elvin Əlizadə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28, 214.2.1, 28, 214.2.3 və 28, 214.2.6 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən, silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə, dini düşmənçilik zəminində terrorçuluğa hazırlıq) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilmiş, barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Parlamentin yaz sessiyası başlayır: *hansı təkliflər, təşəbbüslər olacaq*

**Qarşıdan Milli Məclisin yaz sessiyası gəlir. Bu sessiyada prioritetlərin nədən ibarət olması, habelə qanunvericilik təşəbbüsləri ilə bağlı parlamentin komitə sədrlərinin və deputatların fikirlərini öyrəndik.**



*Tahir RZAYEV, Aqrar siyasət komitəsinin sədri:*

- Azərbaycanda aqrar sektor son illərdə həm sosial-iqtisadi, həm də hüquqi baxımdan əhəmiyyətli inkişaf mərhələsi keçir. Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğı mühüm dövlət proqramlarının uğurla həyata keçirilməsini təmin edib, nəticədə kənd təsərrüfatının müxtəlif sahələrində göstəricilər əhəmiyyətli dərəcədə yüksəlib. Prezidentimizin aqrar sektora xüsusi diqqəti son illər bu sahənin inkişafında mühüm rol oynayıb. Dövlət proqramlarının uğurla həyata keçirilməsi regionların sosial-iqtisadi inkişafına, iş yerlərinin yaradılmasına və kənd təsərrüfatının inkişafına öz təsirini göstərib.

Aqrar sektorun inkişafında hüquqi bazanın möhkəmləndirilməsi xüsusi rol oynayır. Son illər bu istiqamətdə mühüm qanunlar qəbul edilib, qanunlara əlavə dəyişikliklər olunub və əsasnamələr təsdiqlənib. Milli Məclisdə kənd təsərrüfatı ilə bağlı qanunların müzakirəsi və qəbulu həm aqrar sektorun inkişafına, həm də sahibkarların hüquqi bazasının möhkəmlənməsinə imkan verib.

Hazırda torpaqdan, sudan və digər təbii resurslardan səmərəli istifadə, müasir texnologiyaların tətbiqi və ixtisaslı kadrların hazırlanması aqrar sektorun əsas vəzifələri sırasındadır. Komitə bu istiqamətdə mütəxəssislərlə görüşlər, dinləmələr və müxtəlif tədbirlər keçirir ki, qanunvericilik və praktik fəaliyyət bir-birini tamamlasın.

Payız sessiyasında olduğu kimi, yaz sessiyasında da aqrar sektorun inkişafı və insanları narahat edən problemlərin həlli komitənin diqqət mərkəzində olacaq. Dünyada baş verən iqlim dəyişiklikləri və müharibələrin yaratdığı çətinliklərin aradan qaldırılması üçün aqrar sektora dəstəyin artırılması vacibdir. Bu istiqamətdə müzakirələr, dinləmələr və görüşlərin keçirilməsi davam edəcək.

Komitə kadr hazırlığı, torpaq münasibətləri, subsidiya mexanizmlərinin təkmilləşdirilməsi və aqrar sahədə hüquqi bazanın gücləndirilməsi məsələlərinə xüsusi diqqət ayırır. Bu proseslər həm praktiki tədbirlər, həm də qanunvericilik təşəbbüsləri vasitəsilə həyata keçirilir.

Aqrar sektor ölkənin iqtisadi və sosial inkişafında mühüm rol oynayır. Dövlət dəstəyi, müasir infrastrukturun yaradılması və qanunvericilik bazasının təkmilləşdirilməsi fermerlərin fəaliyyətini asanlaşdırır, məhsuldarlığı artırır və kənd təsərrüfatına sərmayəni cəlb edir. Aqrar sektor çətin və məsuliyyətli sahədir. Hər bir qanunun icrası, hər bir tədbirin düzgün həyata keçirilməsi kənd təsərrüfatının inkişafına birbaşa təsir göstərir. Komitə bu məsələləri daim gündəmdə saxlayır və lazım olan tədbirlərin həyata keçirilməsinə böyük önəm verir.

*Musa QULİYEV, Əmək və sosial siyasət komitəsinin sədri:*

- Azərbaycan dövlətinin daxili siyasətində sosial siyasət həmişə olduğu kimi keçən il də prioritet istiqamət təşkil edib. Dövlətimizin başçısının sərəncamı ilə 2025-ci ildə həyata keçirilən sosial islahatlar zərfinə əsasən, bu tədbirlər 3 milyondan çox vətəndaşın sosial rifahının yüksəlməsini təmin edir. Cari ilin dövlət büdcəsində də sosial xərclərin çəkisi böyükdür.

Ötən sessiya ərzində komitənin 17 iclası keçirilib və həmin iclaslarda 33 məsələ müzakirə olunub. Hesabat dövründə komitəyə daxil olan 241 ərizə, şikayət və müraciət araşdırılıb və müvafiq tədbirlər görülüb.

Əmək və sosial siyasət komitəsinin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsinə əsasən, qarşıdakı sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin müzakirəsi və digər məsələlər nəzərdə tutulub. Həmçinin bu sessiyada Azərbaycanda turizmin mövcud vəziyyəti və inkişaf perspektivləri ilə bağlı dinləmənin keçirilməsi planlaşdırılıb.

Digər vacib məsələ olan Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə əsasən, sənəddə minimum əməkhaqqının hər il yenidən baxılması müddəası təsbit olunur. Layihənin qəbulu həm də ölkəmizin beynəlxalq hesabatlarda reytinqinin yüksəlməsinə xidmət edəcək.

Bundan başqa, Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenasının Təşviq Edilməsinin Əsasları haqqında" 187 nömrəli Konvensiyasının təsdiq edilməsi barədə qanun layihəsinə əsasən, beynəlxalq əmək standartları ölkəmizdə uğurla tətbiq olunur. Azərbaycan indiyə qədər Beynəlxalq Əmək Təşkilatının doqquz əsas konvensiyasına qoşulub.

*Fazil MUSTAFA, İctimai birliklər və dini qurumlar komitəsinin sədri:*

- 2025-ci ilin payız sessiyası dövründə komitənin 4 iclası keçirilib və 6 məsələyə baxılıb.

Sessiya ərzində "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi digər komitələrlə birlikdə müzakirə olunub və Milli Məclisdə qəbul edilib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin 2026-cı il yaz sessiyası üçün iş planının layihəsində də bir sıra məsələlər yer alıb. Gələn sessiyada qanunvericilik təşəbbüsü əsasında təqdim olunan qanun layihələri müzakirə olunacaq, bir sıra mövzularda ictimai müzakirələr, vətəndaşlarla və dini konfessiyaların nümayəndələri ilə mütəmadi görüşlər keçiriləcək.

*Arzu NAĞIYEV, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri:*

- Payız sessiyasında bizim komitə səmərəli fəaliyyət göstərib. Bu müddətdə 24 iclas keçirilib, 19 məsələyə baxılıb, o cümlədən 5 qanun layihəsi üç oxunuşda, 2 qanun layihəsi bir oxunuşda müzakirə olunaraq qəbul edilib.

Komitənin 2026-cı il yaz sessiyası üçün iş planına mühüm məsələlər daxil edilib. Yaz sessiyası müddətində qanunvericilik təşəbbüsü qaydasında təqdim olunacaq qanun layihələrinin, bəzi qanunlarda ediləcək dəyişikliklərin müzakirəsi, hərbi səfərbərlik və hərbi xidmətkeçmə ilə bağlı ictimai dinləmənin keçirilməsi nəzərdə tutulub. Sessiya ərzində habelə komitəyə müvafiq orqanlardan və vətəndaşlardan daxil olan təkliflərin təhlili, vətəndaşların müraciətlərinə baxılması, seçicilərlə görüşlərin keçirilməsi planlaşdırılır.

*Zahid ORUC, İnsan hüquqları komitəsinin sədri:*

- Komitədə payız sessiyasında 10 iclas keçirilib, həmin iclaslarda 11 məsələ, o cümlədən 4 qanun layihəsi Milli Məclisin müzakirəsinə tövsiyə edilib və parlament tərəfindən qəbul olunub. Eyni zamanda həmin dövrdə bir sıra qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələrinə baxılıb. Payız sessiyası dövründə komitəyə 328 vətəndaş müraciəti daxil olub. Onlardan 33-ü təkrar ərizələrdir. Bir çox ərizəyə bağlı müraciətlər üzrə vətəndaşların hüquqları bərpa edilib. Bəzi ərizə və şikayətlər isə aidiyyəti üzrə müvafiq ünvanlara göndərilib, sorğu verilib və cavablandırılıb. Komitə üzvləri eyni zamanda sessiya müddəti ərzində vətəndaşların mütəmadi qəbulunu və daxil olan sənədlərlə bağlı geniş profilli işləri aktiv şəkildə həyata keçirib.

2026-cı ilin yaz sessiyası müddətində "Mina terroru qurbanlarının beynəlxalq hüquqi platformalara çıxışı" mövzusunda ANAMA ilə birgə görüşlərin keçirilməsi, "Böyük qayıdış və reinteqrasiya" ilə bağlı dinləmələrin keçirilməsi, Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə əlaqədar - Azərbaycanda dayanıqlı şəhərsalma, urbanizasiya prosesləri və sosial hüquqlarla bağlı konfransın keçirilməsi, "Yeni dünya düzəni və mövcud qlobal geosiyasi proseslər fonunda insan hüquqları: çağırışlar və yeni baxışlar" mövzusunda icmalın hazırlanması, Uşaq və yeniyetmələrin sosial media asılılığının qarşısının alınması yollarına dair ekspert müzakirələrinin təşkili, "Milli-mənəvi dəyərlərin və ailə institutunun informasiya-kommunikasiya məkanında müdafiəsi" mövzusunda "dəyirmi masa"nın təşkili, "Azərbaycan dili - milli suverenlik və insan hüquqlarının ayrılmaz tərkib hissəsi kimi - xarici dövlətlərdə Azərbaycan dilinin vəziyyətinə dair" ictimai dinləmənin keçirilməsi, rəqəmsal suverenliyin qorunması, dezinformasiyaya, deepfake və manipulyasiya texnologiyalarına qarşı hüquqi və institusional mexanizmlərin gücləndirilməsi sahəsində icmalın hazırlanması kimi məsələlərə baxılacaq.

*Elnarə AKİMOVA, Mədəniyyət və Elm və təhsil komitələrinin üzvü:*

- Yaz sessiyasının başlanması Milli Məclisin fəaliyyətində həm mövcud qanunvericilik işlərinin davamı, həm də yeni təşəbbüslərin gündəmə gətirilməsi baxımından mühüm mərhələdir. Bu sessiya ərəfəsində əsas hədəf sosial-iqtisadi inkişafın yeni çağırışlarına uyğun hüquqi mexanizmlərin formalaşdırılması, insan kapitalının gücləndirilməsi və mədəni-humanitar sahələrdə dövlət siyasətinin qanunvericilik bazasının daha da təkmilləşdirilməsidir.

Hazırda Milli Məclisin Elm və təhsil komitəsində üzərində işlənilən qanun layihələri əsasən təhsil sisteminin keyfiyyətinin artırılması, ali və orta ixtisas təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması, eləcə də elm və təhsilin inteqrasiyası ilə bağlıdır. Xüsusilə "Təhsil haqqında" qanuna dəyişikliklər, müəllimlərin peşəkar inkişafı və sertifikasiya mexanizmlərinin təkmilləşdirilməsi, eləcə də rəqəmsal təhsil resurslarının hüquqi əsaslarının gücləndirilməsi yaz sessiyasında müzakirəyə çıxarılacaq məsələlər sırasındadır. Bu sahədə mövcud boşluqlar daha çox təhsildə keyfiyyətə nəzarət, regionlar üzrə imkan bərabərliyi və qeyri-formal təhsilin tanınması ilə bağlıdır. Deputat kimi əsas təklifim region məktəblərində müəllim yerdəyişmələri ilə bağlı olacaq. Çünki son illər ucqar rayon və kənd məktəblərində müəllim heyətinin davamlı şəkildə dəyişməsi təhsil sistemində narahatedici tendensiya kimi özünü göstərməyə başlayıb. Müəllimlərin işə qəbulu və sertifikasiya imtahanlarından uğurla keçən pedaqoqların böyük bir hissəsi ilkin mərhələdə məhz bölgə məktəblərinə təyinat alır. Bu, bir tərəfdən region məktəblərinin kadrla təmin olunması baxımından zəruri addım kimi qiymətləndirilsə də, digər tərəfdən həmin müəllimlərin əksəriyyətinin bir neçə il sonra yenidən imtahanlarda iştirak edərək daha əlverişli hesab etdikləri məktəblərə keçməyə çalışması ciddi problemlər yaradır. Nəticədə bəzi məktəblərdə müəllim kollektivi hər il yenilənir ki, bu da tədris prosesində sabitliyin pozulmasına səbəb olur.

Bilirik ki, müəllim amili şagirdin akademik nailiyyətlərinə təsir edən əsas faktorlardan biridir. Müəllimin tez-tez yerini dəyişməsi isə bu təsirin davamlılığını zəiflədir. Hər bir müəllimin fərqli pedaqoji yanaşması, metodikası, qiymətləndirmə meyarları və sinfi idarəetmə üslubu var. Şagirdlərin hər il yeni tələblərə və fərqli tədris modellərinə uyğunlaşmaq məcburiyyətində qalması tədris prosesinin səmərəliliyini azaldır. Xüsusilə ibtidai və əsas təhsil pilləsində bu dəyişiklik şagirdlərin biliklərin sistemli mənimsənilməsində boşluqların yaranmasına gətirib çıxarır. Psixoloji aspekt də bu prosesdə mühüm rol oynayır. Şagirdlə müəllim arasında etimad və emosional bağın formalaşması zaman tələb edir. Müəllim dəyişikliyi bu bağın tez-tez qırılmasına, şagirdlərin motivasiyasının azalmasına və məktəbə münasibətdə laqeydliyin yaranmasına səbəb ola bilər. Müəllim dəyişikliyinin tədris prosesinə mənfi təsirini azaltmaq üçün problemin yalnız inzibati müstəvidə deyil, kompleks yanaşma ilə həll edilməsi vacibdir. Bu istiqamətdə öz təkliflərimi səsləndirəcəyəm.

Mədəniyyət komitəsinin üzvü olaraq digər təşəbbüslərim də olacaq. Dövlət başçısı cənab İlham Əliyev 2026-cı il 14 yanvar tarixli sərəncamı ilə "Azərbaycan Mədəniyyəti-2040" Mədəniyyət Konsepsiyasını təsdiq etdi. Konsepsiyadan irəli gələn vəzifələrin qanunvericilik müstəvisində təmin edilməsi üçün vacib məsələləri yaz sessiyasında qaldıracağam.

Təhsil sahəsində sürətlə dəyişən texnologiyalar, mədəniyyət sahəsində isə müstəqil yaradıcı fəaliyyətin genişlənməsi daha çevik və funksional hüquqi tənzimləmə tələb edir. Buna görə də yaz sessiyasında mövcud mexanizmləri real ehtiyaclara uyğun şəkildə yenidən qurmaq məqsədilə bəzi təkliflərim olacaq.

*Azər ALLAHVERƏNOV, İnsan hüquqları və İctimai birliklər və dini qurumlar komitələrinin üzvü:*

- Yaz sessiyası çərçivəsində fəaliyyətin tənzimlənməsi istiqamətində müvafiq addımlar atılır. Təmsil olunduğum iki komitənin iş planları artıq faktiki olaraq təsdiq edilib və həmin planlarda bir sıra mühüm məsələlər əksini tapıb.

İctimai birliklər və dini qurumlar komitəsi üzrə fəaliyyət əsasən vətəndaş cəmiyyəti institutları ilə bağlı proseslərə yönəldilib. Bu çərçivədə QHT qanunvericiliyinin təkmilləşdirilməsi, ictimai iştirakçılıq mexanizmləri, qrant siyasəti ilə bağlı normativ-hüquqi bazanın eyni zamanda müasir dövrün tələbləri və çağırışlarına uyğun şəkildə yenilənməsi istiqamətində bir sıra təkliflər irəli sürülüb. İctimai birliklər və dini qurumlar komitəsi üzərindən həyata keçirilən fəaliyyət, eləcə də vətəndaş cəmiyyəti sektorunda uzunmüddətli təcrübədən irəli gələn təkliflər bu gün qeyri-hökumət təşkilatları tərəfindən müxtəlif platformalarda səsləndirilən məsələlərlə üst-üstə düşür. Bu təkliflər QHT-lərin fəaliyyətinin tənzimlənməsini, yeni dövrün çağırışlarına uyğun institusional və funksional şəkildə qurulmasını zəruri edir. Qanunvericilikdə müəyyən yeniliklərə ehtiyac qalmaqdadır və xüsusilə QHT-lərin institusional inkişafından sonra onların dayanıqlığının təmin edilməsi, beynəlxalq platformalarda təmsilçiliyinin gücləndirilməsi məqsədilə siyasi və hüquqi çərçivənin müəyyənləşdirilməsi baxımından mühüm təkliflər hazırlanır. Həmin təkliflərin yaz sessiyası dövründə müzakirəyə çıxarılması nəzərdə tutulur.

İnsan hüquqları komitəsi çərçivəsində həyata keçirilən fəaliyyətə gəldikdə isə burada da bir neçə vacib istiqamət mövcuddur. Xüsusilə sosial hüquqlarla bağlı məsələlər, o cümlədən əlilliyin müəyyən olunması meyarları və bu sahədə mövcud problemlər vətəndaşlarla keçirilən görüşlər zamanı mütəmadi olaraq qaldırılır. Həmin təkliflərin aidiyyəti qurumlar tərəfindən dəyərləndirilməsi üçün müvafiq strukturlarla müzakirələrin aparılması hazırda davam etdirilir. Bununla yanaşı, insan hüquqları kontekstində yeni və aktual çağırışlar, süni intellekt, informasiya təhlükəsizliyi, hibrid təhdidlər və digər istiqamətlər üzrə də bir sıra təkliflər hazırlanır. Bu təkliflərin qanunvericiliyin müvafiq sahələri üzrə sistemli şəkildə irəli sürülməsini nəzərdə tutan paket üzərində iş aparılır.

Yaz sessiyası dövründə qeyd olunan məsələlərə xüsusi diqqət yetiriləcək, eyni zamanda bu istiqamətlər üzrə yeni qanun layihələrinin hazırlanması və təşəbbüslərin irəli sürülməsi nəzərdə tutulur. Bunun üçün aidiyyəti üzrə qiymətləndirmələr aparılır və nəticə etibarilə yekun təkliflər formalaşdırılır. Bu fəaliyyətlər parlamentdə təmsil olunduğum hər iki komitənin məqsəd və vəzifələri ilə tam uyğunluq təşkil edir.

*Müşfiq MƏMMƏDLİ, Səhiyyə və Ailə, qadın və uşaq məsələləri komitələrinin üzvü:*

- Milli Məclisin 2025-ci il payız sessiyası kifayət qədər məhsuldar keçdi, bir çox mühüm məsələnin müzakirəsi və ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan qanunvericilik təşəbbüsləri, həmçinin qanunlara edilən dəyişikliklərlə yadda qaldı. İnanıram ki, qarşıdan gələn yaz sessiyası da yüksək səviyyədə, qanunvericilik işləri planına uyğun şəkildə uğurlu fəaliyyəti ilə seçiləcək. Mən də parlamentin Səhiyyə komitəsinin üzvü kimi icbari tibbi sığorta zərfinin genişləndirilməsi, icbari tibbi sığortanın tətbiqində yeni uğurların əldə olunması istiqamətində atılan addımları dəstəkləyir və bu sahədə aktiv fəaliyyət göstərirəm. Xüsusilə onkoloji yardım sahəsində xidmətlərin daha da modernləşdirilməsi, liberallaşdırılması və özəl sektorun bu istiqamətə cəlb olunması ilə bağlı həyata keçirilən tədbirlər barədə fikir və təkliflərimi irəli sürəcəyəm. Bununla yanaşı, səhiyyə sahəsində aparılan islahatlar çərçivəsində dövlət sektorunda göstərilən tibbi yardımın və səhiyyə idarəetməsinin daha da təkmilləşdirilməsi, səmərəliliyin artırılması məqsədilə müvafiq təkliflər təqdim edəcəyəm.

Eyni zamanda Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü kimi ana və uşaq sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlərin gücləndirilməsi, bu sahədə mövcud qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı fikir və mülahizələrimi, eləcə də konkret qanunvericilik təşəbbüslərimi irəli sürməyi planlaşdırıram.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti Bəhreyn Krallığında işgüzar səfərdə olub

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti bəhreynli həmkarı Ali bin Fadhel Al Buainainin dəvətilə yanvarın 24-26-da Manama şəhərində işgüzar səfərdə olub.**



Bəhreyn Dövlət Prokurorluğunda keçirilmiş görüşdə baş prokuror Kamran Əliyev dəvətə görə təşəkkürünü bildirərək qeyd edib ki, Bəhreyn Krallığı Azərbaycan üçün dost ölkədir və uzun illər ərzində müxtəlif beynəlxalq platformalarda ölkəmizin siyasi təşəbbüslərini, o cümlədən ərazi bütövlüyünü qətiyyətlə dəstəkləmişdir. Son illərdə ölkələrimiz arasında qarşılıqlı əlaqələr dövlət başçılarının siyasi iradəsi və səyləri nəticəsində daha da inkişaf edib.

Öz növbəsində Ali bin Fadhel Al Buainainin qurumlararası tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluğunu ifadə edərək, daha öncə ölkəmizə etdiyi işgüzar səfərlərin xüsusilə yaddaqalan olmasını qeyd edib.

Görüşdə 2024-cü ilin oktyabr ayında iki ölkənin prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumu qeyd edilərək cinayətkarlığın müxtəlif formalarına qarşı, o cümlədən ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahələrində praktiki əməkdaşlıq məsələləri, həmçinin, hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri, eləcə də qarşılıqlı təlim səfərlərinin təşkili və təcrübə mübadiləsi ətrafında da fikir mübadiləsi aparılıb.

Daha sonra nümayəndə heyəti Bəhreyn Dövlət Prokurorluğunun fəaliyyəti ilə yaxından tanış olub, ailə və uşaq hüquqlarının qorunması, alternativ cəzaların tətbiqi və cəzaların icrası üzərində prokuror nəzarəti, mülki işlərdə dövlət maraqlarının müdafiəsində prokurorluğun rolu, həmçinin məhkumların sosial reabilitasiyası ilə bağlı Bəhreyn Dövlət Prokurorluğunun təcrübəsi barədə məlumat verilib.

Bundan sonra nümayəndə heyəti ilə Bəhreyn Krallığının Kassasiya Məhkəməsinin sədri və Ali Məhkəmə Şurasının vitse-prezidenti Şeyx Xalid Ali Al Xalifa arasında görüş keçirilib.

Görüş zamanı ölkələrimizin hüquq sistemləri arasında intensiv və məhsuldar əməkdaşlıq əlaqələrinin qurulmasının vacibliyi qeyd edilmiş, təcrübə mübadiləsi və qarşılıqlı hüquqi dəstək imkanları müzakirə edilib.

Səfər çərçivəsində nümayəndə heyəti ilə Bəhreyn Krallığının Ədliyyə, İslam işləri və Vəqf naziri Navaf Mohamed Al Maavda arasında da ikitərəfli görüş keçirilib.

Görüşdə ölkələr arasında müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında əlaqələrdən məmnunluq ifadə olunub, qurumlar arasında əməkdaşlığın hüquqi bazasının genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Həmçinin səfər çərçivəsində nümayəndə heyəti Bəhreyn Krallığının mədəni-tarixi abidələrini ziyarət edərək ölkə mədəniyyəti ilə yaxından tanış olub.

Nümayəndə heyətinin səfəri başa çatıb.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin fevral ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Qəbələ | Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən | 02 |
| 2. | **Baş prokuror** Kamran Əliyev | İmişli | İmişli, Beyləqan, Füzuli, Saatlı, Sabirabad, Cəbrayıl, Xocavənd | 03 |
| 3. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Sumqayıt | Sumqayıt, Abşeron, Xızı | 05 |
| 4. | **Energetika naziri** Pərviz Şahbazov | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən | 06 |
| 5. | **Ədliyyə naziri** Fərid Əhmədov | Göyçay | Göyçay, Ağdaş, Ağsu, Zərdab, İsmayıllı, Kürdəmir, Ucar, Şamaxı | 06 |
| 6. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 06 |
| 7. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Tərtər | Tərtər, Bərdə, Naftalan | 06 |
| 8. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Masallı | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı | 06 |
| 9. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Sumqayıt | Sumqayıt, Abşeron | 13 |
| 10. | **Mədəniyyət naziri** Adil Kərimli | Qax | Qax, Şəki, Oğuz, Qəbələ, Zaqatala, Balakən | 13 |
| 11. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Salyan | Salyan, Neftçala, Şirvan, Hacıqabul | 13 |
| 12. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Qəbələ | Qəbələ, Oğuz | 13 |
| 13. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Ucar | Ucar, Ağdaş, Göyçay, Kürdəmir, Yevlax, Mingəçevir, Zərdab | 20 |
| 14. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Bərdə | Bərdə, Tərtər | 20 |
| 15. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Abşeron | Abşeron, Sumqayıt, Xızı, Cəbrayıl, Qubadlı, Şuşa, Zəngilan | 20 |
| 16. | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | Göygöl | Göygöl, Daşkəsən, Samux | 20 |
| 17. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Xızı | Xızı, Siyəzən | 20 |
| 18. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Şirvan | Şirvan, Hacıqabul | 23 |
| 19. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Qəbələ | Qəbələ, Oğuz | 25 |
| 20. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Şirvan | Şirvan, Hacıqabul | 25 |
| 21. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Sumqayıt | Sumqayıt, Abşeron, Xızı, Qubadlı | 27 |
| 22. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | Qobustan | Qobustan, Şamaxı | 27 |
| 23. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Sabirabad | Sabirabad, Saatlı, İmişli | 27 |
| 24. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Abşeron | Abşeron, Zəngilan | 27 |
| 25. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Şamaxı | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan | 27 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Sülh Şurasına dəvət Azərbaycan rəhbərinə göstərilən böyük ehtiramın ifadəsidir




**2020-ci ildə Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin müəyyənləşdirdiyi prinsiplər əsasında Ermənistana sülh təklif olunması, Azərbaycanın beş il ərzində bu istiqamətdə praktiki addımları Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə sülh sazişinin paraflanması ilə nəticələnib.**

Hazırkı dünya düzənində öz gücü hesabına hərbi-siyasi yolla torpaqlarını işğaldan azad etmək, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmək, de-fakto sülhə nail olmaq böyük qətiyyət, güclü siyasi iradə və əzmkarlıq tələb edir. Azərbaycan isə bütün bunları Prezident İlham Əliyevin düşünülmüş və praqmatik siyasəti sayəsində əldə edib. Məhz buna görədir ki, ölkəmiz dünyada güclü və qüdrətli, etibarlı tərəfdaş və sülh tərəfdarı kimi tanınır.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev fəaliyyətinin bütün dövrlərində sülhün, əmin-amanlığın tərəfdarı olub. Ən mötəbər tribunalardan bu barədə dəfələrlə çağırışlar edib: "Ölkəmiz müharibə şəraitində olduğu, torpaqlarımız işğal altında qaldığı dövrlərdə, eləcə də qələbə çaldığımız zaman və bu gün də Prezident İlham Əliyev sülh uğrunda qətiyyətli mübariz olduğunu ortaya qoyub. Əlbəttə, bu, bir çox ölkə, dünya lideri tərəfindən yüksək qiymətləndirilir. Eyni zamanda Azərbaycan Yaxın Şərqdə sülhə töhfə verən, bu təşəbbüslərlə çıxış edən dövlətlərdən biridir və buna görə ABŞ-nin sülh planını dəstəkləyir. Bu baxımdan Prezident İlham Əliyevin sülh təşəbbüslərini, bu istiqamətdə ardıcıl səylərini yüksək qiymətləndirən ABŞ Prezidenti Donald Trampın Sülh Şurasının yaradılmasında təsisçi üzv dövlət qismində Azərbaycanı dəvət etməsi təsadüfi deyil".

T.Rzayev qeyd edib ki, Davosda keçirilən Dünya İqtisadi Forumunda dövlət başçısına yüksək diqqət göstərilməsi və ölkəmizin Sülh Şurasının təsisçi üzv dövlətlərindən biri kimi seçilməsi Azərbaycan rəhbərinə göstərilən böyük hörmət və ehtiramın ifadəsidir. Sülh, əmin-amanlıq nəinki bir dövlət üçün, ümumiyyətlə, bəşəriyyətin gələcəyi üçün vacib və əhəmiyyətlidir. "Vaşinqton görüşü, eləcə də sonrakı mərhələlərdə Azərbaycan-Ermənistan münasibətlərinin yaxşılaşdırılmasına doğru atılan addımlar Ağ Evdə Azərbaycan və Ermənistan arasında əldə olunan razılaşma, "Azadlığa Dəstək Aktı"na edilən 907-ci düzəlişin dayandırılması, Zəngəzur dəhlizinin açılmasına göstərilən cəhdlər məhz sülhə verilən önəmdir", - deyə deputat əlavə edib.



Komitə sədri xatırladıb ki, Prezident İlham Əliyev Davosda bir çox ölkə rəhbərləri ilə keçirdiyi görüşlərdə, danışıqlarda sülhməramlı olduğunu bir daha ortaya qoyub. Dövlət başçısı dünyada əməkdaşlığa, dostluğa böyük önəm verdiyini daim nümayiş etdirir.

T.Rzayev vurğulayıb ki, Davos İqtisadi Forumu Prezident İlham Əliyevin sülh, əmin-amanlıq uğrunda çalışdığını bir daha sərgilədi: "Sevindirici haldır ki, bu gün Azərbaycan dünyanın tanınmış, inkişaf etmiş ölkəsi kimi qəbul olunur. Bu, Azərbaycanın uğurlu gələcəyindən, Cənubi Qafqazda dayanıqlı sülhün formalaşmasından, sabitliyin bərpa edilməsindən xəbər verir".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Azərbaycan sülh siyasəti ilə beynəlxalq müstəvidə fərqlənən dövlətlərdəndir

**Birgəyaşayış, tolerantlıq, sülh, milli və dini mənsubiyyətindən asılı olmayaraq, insanlığa sevgi Prezident İlham Əliyevin siyasi kursunun əsas tərkib hissəsidir. Müasir dünyada mədəni parçalanmaların, etnik gərginliklərin və geosiyasi bərabərsizliklərin kəskinləşdiyi bir zamanda Azərbaycan barış siyasəti ilə regionda və beynəlxalq müstəvidə fərqlənən nadir dövlətlərdən birinə çevrilib. Bunun nəticəsi kimi ölkəmizin rəhbəri siyasi lider, eləcə də dəyərlər sistemi formalaşdıran təsirli dövlət xadimi kimi qəbul olunur.**

Milli Məclisin deputatı Rəşad Mahmudov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan liderinin regionda və qlobal müstəvidə münaqişələrin həllində ədalətə söykənən fəaliyyəti dünya liderləri üçün nümunədir: "Diplomatiyamızın əsasında dayanan prinsipiallıq, bərabərlik, qarşılıqlı hörmət və beynəlxalq hüquqa sədaqət münaqişələrin güc və revanşizm ilə deyil, məhz hüquq, məntiqlilik və dialoq yolu ilə həllinə şərait yaradır. Təsadüfi deyil ki, mədəni müxtəlifliyin məbədgahı olan Azərbaycan həm də qlobal münaqişələrin həlli üçün etibarlı dialoq məkanına çevrilib".



Deputat qeyd edib ki, uzun illər əraziləri işğal altında qalan və beynəlxalq ədalətsizliklə üzləşən Azərbaycan dünyaya ədalətin necə təmin olunmasının nümunəsini göstərib. 44 günlük Vətən müharibəsi ədalətin bərpası və beynəlxalq hüququn real tətbiqi prosesinin mümkünlüyünü sübut etdi.

R.Mahmudov vurğulayıb ki, Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu Şeyx Zayed Fondu tərəfindən 2026-cı il üçün təsis edilmiş "Zayed İnsan Qardaşlığı Mükafatı"nın qalibləri sırasında Azərbaycan Prezidentinin adının yer alması təsadüfi deyil: "Şübhəsiz ki, bu yüksək mükafatın ideoloji mahiyyəti insan qardaşlığı, dinlərarası harmoniya, etnik, mədəni inklüzivlik və qlobal sülh çağırışıdır. Bu baxımdan Azərbaycan və onun lideri bu dəyərlərin praktik daşıyıcısına çevrilib. Xüsusilə qeyd olunmalıdır ki, mükafat Azərbaycan ilə Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin qurulmasına dair sazişin paraflanmasına verdiyi töhfəyə görə təqdim edilib. Bu yüksək mükafat Prezident İlham Əliyevin haqq etdiyi dəyərdir, çünki sülhün təmin edilməsi təkcə hərbi gücün və ya diplomatik mexanizmlərin uğuru deyil, bütövlükdə siyasi iradənin, strateji ardıcıllığın və ən əsası tarixi məsuliyyətin nəticəsidir. Azərbaycan bu məsuliyyətin daşıyıcısı olmaqla, regionun gələcəyinə töhfələrini verir. Bütövlükdə regionun sülh, təhlükəsizlik və əməkdaşlıq məkanına çevrilməsində Prezident İlham Əliyevin danılmaz xidmətləri var. Dövlətimizin başçısının prinsipial və ədalətli siyasəti sülhün davamlılığına xidmət edir".

Bu gün artıq Qafqazın siyasi xəritəsinin dəyişdiyini deyən deputat əlavə edib ki, bir vaxtlar qan içində olan bölgə əmin-amanlıq, sabitlik və iqtisadi yüksəliş məkanına çevrilir. Azərbaycanın təşəbbüsləri sayəsində yeni nəqliyyat xətləri açılır, enerji əməkdaşlığı genişlənir, ticarət əlaqələri canlanır və regionun gələcəyi əməkdaşlıq üzərində qurulur. Birmənalı şəkildə bu uğurların memarı Prezident İlham Əliyevdir. "Məhz bu gün arzulanan mövcud vəziyyət dövlət başçımızın qətiyyəti və humanizm prinsipinə söykənən siyasətinin nəticəsidir. Onun uzaqgörən və balanslı idarəetmə strategiyası regionun inkişafına mühüm töhfə verməklə yanaşı, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsini təmin edib. Ölkəmizin məqsədyönlü siyasəti nəticəsində bölgə qarşıdurma mühitindən çıxaraq, dayanıqlı inkişaf modeli ilə nümunəvi məkana çevrilir. Prezident İlham Əliyev barışın ən böyük təminatçısıdır. Dünya artıq bu həqiqəti etiraf edir və onun sülhə əsaslanan siyasətini regionda sabitliyin və təhlükəsizliyin əsas dayağı kimi qəbul edir. Serbiya Prezidentinin də ifadə etdiyi kimi, İlham Əliyev böyük və dahi liderlərdən biridir", - deyə Rəşad Mahmudov bildirib.

Deputat sonda qeyd edib ki, Prezident İlham Əliyevə - sülh liderinə təqdim olunan bu ali mükafat hər birimizdə qürur hissi doğurmaqla yanaşı, Azərbaycanın dünyada sülhü təşviq edən dövlət kimi artan nüfuzunun bariz göstəricisi kimi tarixə həkk olundu. Bu həm də ölkəmizin gələcək sülh gündəminin beynəlxalq səviyyədə dəstəkləndiyinin sübutudur.

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

# "Davos səfəri Azərbaycanın mövqeyinin daha da gücləndirilməsi baxımından əlamətdar hadisədir"



**"1971-ci ildə İsveçrədə təsis edilən Dünya İqtisadi Forumu Azərbaycan üçün mühüm diplomatik və iqtisadi platformalardan biridir. Azərbaycan bu foruma ilk dəfə 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə qatılıb. O vaxtdan etibarən Davos Azərbaycanın beynəlxalq arenada tanınması, investorlarla birbaşa əlaqələrin qurulması və iqtisadi-strateji xəttinin təqdim olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Enerji təhlükəsizliyi, ticarət, infrastruktur və regional inteqrasiya kimi sahələrdə Azərbaycanın öz mövqelərini gücləndirməsi də məhz bu platforma sayəsində yeni dinamika qazanıb. Prezident İlham Əliyevin yanvarın 19-22-də Davos Dünya İqtisadi Forumuna işgüzar səfəri çərçivəsində siyasi, iqtisadi və diplomatik keçirdiyi mühüm görüşlər və təşəbbüslər bu baxımdan diqqətəlayiqdir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ankara Hacı Bayram Vəli Universitetinin Beynəlxalq əlaqələr fakültəsinin dosenti, siyasi ekspert Bahar Özsoy bildirib.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin forum çərçivəsində keçirdiyi görüşlər ölkənin beynəlxalq arenadakı mövqeyinin gücləndirilməsi və regional sülh prosesinə töhfə baxımından əlamətdar hadisə kimi dəyərləndirilir: "Forumda dövlət başçısının qlobal şirkətlərin rəhbərləri ilə geniş diplomatik təmaslarda investisiya imkanları, enerji əməkdaşlığı, iqtisadi şaxələndirmə və Azərbaycanın qlobal iqtisadi sistemdə artan rolu müzakirə olunub".

Ekspert qeyd edib ki, Davosda "Euronews"a müsahibə verən Prezident İlham Əliyev Cənubi Qafqazda dayanıqlı sülh və proqnozlaşdırıla bilən təhlükəsizlik mühitinə diqqət çəkib və bunu həm regional, həm də Avrasiya miqyasında vacib faktor hesab edib. Prezident enerji bazarlarının sabitliyini də önəmli hesab etdiyini vurğulayıb. Forum çərçivəsində Prezident "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasda çıxışında Azərbaycanın Avrasiyada "bağlantı və sabitlik mərkəzi" rolunu önə çıxarıb. "Prezident bildirib ki, Azərbaycan Avropa İttifaqı, ABŞ və Çinlə əməkdaşlığı paralel şəkildə və ziddiyyətsiz formada inkişaf etdirir. Ermənistanla iqtisadi əlaqələrə toxunan dövlət başçısı regionda ticarət və yükdaşımaların gələcəkdə birbaşa Azərbaycan-Ermənistan marşrutu ilə həyata keçirilə biləcəyini bəyan edib. Azərbaycan artıq Qazaxıstan və Rusiyadan Ermənistana yük daşımalarına qoyulan məhdudiyyətləri aradan qaldırıb", - deyə B.Özsoy vurğulayıb.

Siyasi ekspert bildirib ki, Davos forumu çərçivəsində ABŞ Prezidenti Donald Trampla keçirilən görüş xüsusi əhəmiyyət kəsb edir. "Tərəflər regional sülh, təhlükəsizlik və enerji-kommunikasiya layihələri üzrə əməkdaşlıq məsələlərini müzakirə ediblər. İlham Əliyev Zəngəzur dəhlizinin, o cümlədən TRIPP layihəsinin əhəmiyyətini vurğulayaraq, Ermənistanın enerji və ərzaq tədarükündə Azərbaycan ərazisindən keçən marşrutlara artan ehtiyacını diqqətə çatdırıb. Davosda imzalanan Sülh Şurası Nizamnaməsi Azərbaycanın qlobal sülh və dialoq təşəbbüslərinə verdiyi dəstəyin növbəti nümunəsi kimi dəyərləndirilir. Sənəd münaqişələrin qarşısını almaq, dialoq və vasitəçilik mexanizmlərini gücləndirmək istiqamətində beynəlxalq əməkdaşlığa çağırır. Bu baxımdan ABŞ Prezidenti Donald Trampın sosial media səhifəsindən İlham Əliyevə təşəkkür etməsi, ABŞ-Azərbaycan strateji tərəfdaşlığının dərinləşəcəyi və müdafiə sahəsində əməkdaşlığın genişlənəcəyi barədə qeydi də xüsusilə diqqətəlayiqdir", - deyə B.Özsoy əlavə edib.

# NATO ilə əməkdaşlıq milli maraqlara və qlobal təhlükəsizliyə əsaslanır

**Azərbaycanın xarici siyasətində NATO ilə tərəfdaşlıq hərbi-strateji modernləşmənin əsas hərəkətverici qüvvələrindən biri hesab olunur. Hazırda bu əməkdaşlıq, sadəcə, hərbi təlimlərlə məhdudlaşmır, həm də enerji təhlükəsizliyi, kibermüdafiə və Milli Ordunun NATO standartlarına uyğunlaşdırılması kimi geniş spektrli sahələri əhatə edir.**

Alyansın yüksəksəviyyəli rəsmilərinin Bakıya mütəmadi gəlişləri əməkdaşlığın, sadəcə, sənəd üzərində olmadığını, aktiv siyasi dialoqa söykəndiyini göstərir. Yanvarın 22-də NATO Baş katibinin müavini Radmila Şekerinskanın Azərbaycana rəsmi səfəri münasibətlərin dinamikasını bir daha təsdiqlədi.

Ölkəmizə səfər edən qonaq ilk olaraq Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşdü. Görüş zamanı Azərbaycan ilə NATO arasında tərəfdaşlıq çərçivəsində mövcud əməkdaşlıq gündəliyi və perspektivlər, tərəfdaşlıq mexanizmləri çərçivəsində görülən işlər, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olundu. Baş katibin müavini daha sonra Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovla və Milli Məclisin Sədri Sahibə Qafarova ilə bir araya gəldi. Həmin görüşlərdə də Azərbaycanla NATO arasında 30 ildən artıq müddətdə davam edən əməkdaşlıq vurğulanaraq, alyansın beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında önəmli rol oynadığı qeyd olundu. Radmila Şekerinska Azərbaycanın NATO ilə uzunmüddətli əməkdaşlığını yüksək dəyərləndirdi.

Alyans rəsmilərinin Azərbaycana mütəmadi səfərləri münasibətlərin daha yüksək siyasi müstəviyə keçdiyinin siqnalıdır. Belə səfərlər göstərir ki, Azərbaycan NATO üçün təkcə hərbi tərəfdaş deyil, həm də Avrasiyanın logistik və enerji mərkəzi kimi strateji bir "körpü"dür. NATO-Azərbaycan tərəfdaşlığı 30 ildən çoxdur ki, siyasi dialoq, hərbi fəaliyyət, müdafiə təhsili və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıqla özünü təsdiqləyib. Münasibətlərin təməli 1994-cü ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Sülh naminə tərəfdaşlıq" proqramının imzalanması ilə qoyulub. 2004-cü ildən tətbiq olunan Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı əməkdaşlığı daha sistemli hala gətirib. Hazırda münasibətlər yeni formatda, Fərdi Uyğunlaşdırılmış Tərəfdaşlıq Proqramı (ITPP) çərçivəsində davam etdirilir. Bu proqram tərəflər arasında daha çevik və müasir çağırışlara uyğun işbirliyini nəzərdə tutur.



Bakı alyansa üzv olmasa da, NATO-nun ən etibarlı tərəfdaşlarından biri hesab olunur. Son dönəmdə tərəflər arasında əlaqələr bir neçə istiqamətdə dərinləşib. Azərbaycan Ordusu NATO standartlarına keçid prosesini sürətləndirib. Xüsusilə NATO-nun ikinci böyük ordusuna sahib olan qardaş Türkiyə ilə imzalanan Şuşa Bəyannaməsi prosesə birbaşa təkan verib. "Türk modeli", əslində, NATO standartlarının Azərbaycan reallığına uyğunlaşdırılmasıdır. Bu model Azərbaycanın həm milli maraqlarını qorumağa, həm də NATO-nun hərbi standartlarına ən qısa yolla inteqrasiya etməsinə şərait yaradır. Bu, yalnız silahlanmanı deyil, həm də döyüş aparma fəlsəfəsinin, qərarvermə mexanizmlərinin və logistik idarəetmənin yenilənməsini nəzərdə tutur. Bəhs edilən metod Bakıya alyansın rəsmi üzvü olmadan belə onun ən müasir texnologiyalarından və təlim metodlarından yararlanmaq imkanı verir. Azərbaycan sülhməramlıları Kosovoda və Əfqanıstanda yüksək peşəkarlıq göstəriblər. Sülhməramlılarımız Əfqanıstanın paytaxtı Kabildə aeroportu ən son tərk edən hərbi qüvvələr olub. NATO rəhbərliyi Azərbaycanın bu töhfələrini mütəmadi olaraq yüksək qiymətləndirir.

Minalarla mübarizə Azərbaycan-NATO tərəfdaşlığının praktiki və humanitar cəhətdən əhəmiyyətli istiqamətlərindən biridir. İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində NATO mütəxəssisləri ilə təlimlər keçirilir. ANAMA (Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi) və NATO-nun Logistika və Təminat Agentliyi (NSPA) arasında mütəmadi məsləhətləşmələr aparılır. Bu sahədə əməkdaşlıq yalnız texniki dəstək deyil, həm də beynəlxalq təcrübənin birbaşa sahəyə tətbiqi deməkdir.

NATO Azərbaycanı Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından biri kimi tanıyır. Xüsusilə Ukraynadakı müharibədən sonra Azərbaycanın qaz ixracı bir neçə NATO müttəfiqi üçün həyati əhəmiyyət kəsb edir.

Alyansla rəqəmsal infrastrukturun qorunması üzrə birgə məsləhətləşmələr də aparılır. Müasir dövrdə müharibələr təkcə fiziki meydanda deyil, həm də virtual məkanda aparıldığı üçün bu sahədəki məsləhətləşmələr milli təhlükəsizliyimiz üçün mühüm əhəmiyyət daşıyır. Azərbaycanın enerji kəmərləri və rəqəmsal nəqliyyat qovşaqları ciddi beynəlxalq önəmə malikdir. NATO mütəxəssisləri bu strateji obyektlərin idarəetmə sistemlərinin kiberhücumlardan qorunması üçün Azərbaycan tərəfi ilə təcrübə mübadiləsi aparır. Məqsəd hər hansı xarici müdaxilə zamanı sistemin çökməsinin qarşısını almaqdır.

44 günlük Vətən müharibəsindən sonra alyans Azərbaycanı regionda sülhün və kommunikasiyaların açılmasının əsas aktorlarından biri kimi görür. Yeni tərəfdaşlıq proqramı çərçivəsində müdafiə təhsilinin modernləşdirilməsi və terrorizmlə mübarizədə inteqrasiyanın dərinləşməsi gözlənilir. Azərbaycan-NATO əlaqələri klassik hərbi ittifaqdan daha çox qarşılıqlı maraqlara söykənən strateji tərəfdaşlığa əsaslanır.

Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan NATO ilə yaxın əməkdaşlıq etsə də, Qoşulmama Hərəkatının üzvü kimi öz neytrallığını qoruyur. Bu, Bakıya həm NATO, həm də digər bloklarla münasibətlərdə manevr imkanı verir.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



# Qarşılıqlı etimada söykənən strateji tərəfdaşlıq

## Azərbaycan-İsrail əlaqələri uğurla inkişaf edir

**Beynəlxalq münasibətlər sistemində özünəməxsus yeri və rolu olan Azərbaycanın dünyadakı mövqeyi və nüfuzu hər ötən gün daha da artır. Prezident İlham Əliyevin rəhbərliyi altında müstəqil siyasət həyata keçirən Azərbaycan bu gün çoxqütblü dünyada güvənilir və etibarlı tərəfdaş ölkə olaraq qəbul edilir. Yerləşdiyi regionda formalaşdırdığı sülh və əməkdaşlıq mühiti ilə nümunə göstərən Cənubi Qafqazın lider dövləti bu gün qlobal barışın qurucuları ilə bir sırada dayanır, yeni və ədalətli dünya düzəninin qurulmasında yaxından iştirak edir, sülhə birbaşa töhfələr verir. Eyni zamanda ölkəmiz əksər dövlətlərlə sıx əməkdaşlıq əlaqələri qurması və bu münasibətlərin inkişaf etdirilməsi istiqamətində davamlı səyləri ilə seçilir.**

Tarixən xalqlarımız arasında dostluq bağlarının mövcudluğu isə Azərbaycan və İsrail dövlətləri arasında olan əlaqələri çox səmimi müstəviyə və etibarlı tərəfdaşlıq mövqeyinə yüksəldib. Ölkəmiz hər zaman İsraillə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına xüsusi önəm verib.

### Yüksək siyasi dialoq

Cari il yanvarın 21-də Davosda Prezident İlham Əliyevlə İsrail Dövlətinin Prezidenti İshaq Hersoq arasındakı görüş zamanı da Azərbaycan-İsrail münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı vurğulandı. İqtisadi, ticari, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edildi. Eyni zamanda Azərbaycan və İsrail prezidentləri əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə etdilər.

Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olan İsrail 1993-cü ildə ölkəmizdə səfirliyini açıb və ötən müddətdə dövlətlərimiz arasında diplomatik əlaqələr uğurla inkişaf edib. Azərbaycan və İsrail arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümündə - 2023-cü ilin martında Azərbaycanın Təl-Əvivdə səfirliyini açması tarixi hadisə oldu və bu, dövlətlərimiz arasındakı yüksək siyasi dialoqdan xəbər verdi. Həmin il mayın 30-da İsrail Prezidenti İshaq Hersoqun ölkəmizə səfəri İsrail-Azərbaycan əlaqələrinin inkişafına və yaxın əməkdaşlıq üçün çox əlverişli imkanlar yaratmasına daha bir vəsilə oldu.

"İsraillə Azərbaycan arasında tərəfdaşlıq Sizin qeyd etdiyiniz və bizim müzakirə etdiyimiz bir çox sahənin də təməl nöqtəsidir. Düşünürəm ki, bu, bir çox səviyyədə xalqlarımıza mesaj göndərir", - deyə həmin səfər zamanı Prezident İlham Əliyevin və İshaq Hersoqun geniş tərkibdə görüşü zamanı İsrail Prezidenti xüsusi qeyd etdi. İshaq Hersoq onu da bildirdi ki, bu, elə bir mesaj göndərir ki, yəhudilər və müsəlmanlar birlikdə sülhə doğru addımlasalar, birgə açıq dialoq aparsalar, birlikdə dünyanın xeyrinə çalışsalar, birlikdə möhtəşəm işlər görə bilərlər: "İkincisi, bu, strateji münasibətdir, çünki biz sülh, rifah və inkişaf istiqamətlərində bütün regiona öz təsirimizi göstəririk".

Min illər boyu ölkəmizdə sülh və dostluq şəraitində yaşayan yəhudilər və azərbaycanlılar hazırda da birgəyaşayışın misilsiz örnəyini nümayiş etdirirlər. Azərbaycanda yaşayan yəhudilər hər zaman cəmiyyətimizin fəal hissəsi olublar və Azərbaycanla bağlı bütün proseslərdə fəal iştirak ediblər. Ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri kimi, yəhudilər də Azərbaycanın bütövlüyü uğrunda mübarizə aparıblar, döyüşlərdə iştirak ediblər, hətta torpaqlarımız uğrunda canlarını belə fəda etməkdən çəkinməyiblər. Birinci Qarabağ müharibəsində yəhudi xalqının vətənpərvər oğlu tankçı Albert Aqarunov göstərdiyi igidliklərlə adını qəhrəmanlıq tariximizə həkk edib. Dövlətimiz tərəfindən cəsur Albertin xatirəsi əbədiləşdirilib: Bakıda adına küçə verilib, abidəsi ucaldılıb. 2020-ci il Vətən müharibəsində də Azərbaycanda yaşayan yəhudi xalqının nümayəndələri eyni vətənpərvərliyi nümayiş etdirdilər. Azərbaycan və İsrail dövlətləri arasındakı əlaqələrin inkişafında çox fəal rol oynayan Azərbaycanın yəhudi icması və əsasən Azərbaycandan olan yəhudilərdən ibarət İsraildəki Azərbaycan diasporu Vətən müharibəsi dövründə də ölkəmizin ədalətli mövqeyini müdafiə etdi, Azərbaycana dəstək mitinqləri keçirdi.

### Hərtərəfli münasibətlərin uğurlu inkişafı

İsrail və Azərbaycan arasında yüksək etimada, dostluq və qardaşlığa dayanan əlaqələr münasibətlərimizi etibarlı tərəfdaşlıq səviyyəsinə yüksəldib.

Yanvarın 26-da Prezident İlham Əliyev İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarı qəbul edib. Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə uğurlu inkişafı vurğulanıb, kənd təsərrüfatı, su resurslarının idarə olunması, yüksək texnologiyalar, həmçinin süni intellekt sahələrində əməkdaşlıq məsələləri qeyd edilib, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığın dərinləşdirilməsi işinə verdiyi töhfəyə toxunulub.

Gideon Saar onu bu səfərdə böyük biznes və işgüzar dairələrin nümayəndələrinin müşayiət etdiyini deyərək, səfər çərçivəsində baş tutan Azərbaycan-İsrail biznes-forumunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verəcəyini qeyd edib. O, Azərbaycanda yəhudi icmasına dövlət səviyyəsində göstərilən qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Yeri gəlmişkən vurğulayaq ki, yəhudi məktəbləri, mədəniyyət mərkəzləri olan ölkəmizdə yeddi sinaqoq var və onlardan beşi Bakı şəhərində yerləşir. Bu isə onun göstəricisidir ki, Azərbaycan dövləti digər konfessiyaların nümayəndələrinə olduğu kimi yəhudi icmasının nümayəndələrinə də öz dini ayinlərini və adət-ənənələrini sərbəst formada icra etmələri üçün hər cür şərait yaradıb.

Bütün bunlar Azərbaycan və İsrail arasında hərtərəfli əməkdaşlıq əlaqələrinin, eləcə də strateji dialoqun yüksək səviyyədə olduğunu göstərən nümunələrdir. Qarşılıqlı hörmət və etimada əsaslanan bu münasibətlər gələcəkdə də yeni layihələr və təşəbbüslərlə zənginləşəcək və regional sabitlik və inkişaf proseslərinə mühüm töhfələr verəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Bakı ilə Təl-Əviv arasında iqtisadi əməkdaşlığın sintezi

Müasir beynəlxalq münasibətlər sistemində iqtisadi əməkdaşlıq ölkələr arasında siyasi etimadın və strateji tərəfdaşlığın əsas göstəricilərindən biri hesab olunur. Azərbaycan ilə İsrail arasında sıx iqtisadi əlaqələr formalaşıb və onlar çoxşaxəli xarakter daşıyır. Coğrafi baxımdan fərqli regionlarda yerləşmələrinə baxmayaraq, hər iki ölkə enerji, kənd təsərrüfatı, yüksək texnologiyalar, müdafiə sənayesi və ticarət sektorunda sıx əməkdaşlıq edir. Azərbaycanın enerji resursları və İsrailin innovasiya potensialı isə münasibətlərin əsas dayaqlarını formalaşdırır.

Bu əməkdaşlığın yalnız nəzəri müstəvidə qalmadığını, konkret təşəbbüslər və praktiki addımlarla möhkəmləndirildiyini iki gün öncə Bakıda keçirilən Azərbaycan-İsrail biznes-forumu aydın şəkildə göstərdi.Yeri gəlmişkən, bir neçə gün əvvəl Azərbaycan və İsrail prezidentləri Davosda iqtisadi, ticari və enerji sahəsində ikitərəfli əməkdaşlıq imkanlarını müzakirəyə çıxarıblar. Həmin görüşdə xüsusilə enerji, süni intellekt və kənd təsərrüfatı sahələrində əməkdaşlığın dərinləşdirilməsi ön planda yer alıb. Eyni məsələlər Azərbaycan-İsrail biznes-forumu çərçivəsində də müzakirə olunub.

Forumda Azərbaycan və İsrailin dövlət qurumlarının nümayəndələri və iş adamları bir araya gələrək ticarət dövriyyəsinin artırılması, investisiya imkanları və birgə layihələrin perspektivlərini dəyərləndiriblər. Rəsmi şəxslərlə yanaşı, sənaye və tikinti, əczaçılıq, kənd təsərrüfatı, yüksək texnologiyalar, su təchizatı və idarəçiliyi, nəqliyyat-logistika, kibertəhlükəsizlik, bankçılıq və turizm sahələrində fəaliyyət göstərən 100-dən çox şirkətin nümayəndəsi qatılıb.

Azərbaycan-İsrail iqtisadi əməkdaşlığının əsas istiqamətlərindən biri enerji sahəsidir. İsrail Azərbaycanın neft ixrac etdiyi ölkələr sırasında yer alır və bu, iki ölkənin ticarət dövriyyəsinin formalaşmasında mühüm rol oynayır. Azərbaycan Xəzər hövzəsinin zəngin enerji resursları ilə İsrailin enerji təhlükəsizliyinin təmin olunmasına dəstək verir. Bunun nəticəsi olaraq, Azərbaycan həm regional, həm də qlobal enerji bazarlarında etibarlı tərəfdaş imicini bir daha təsdiqləyir, İsrail isə öz enerji təhlükəsizliyini təmin etməklə yanaşı, müxtəlif sahələrdə iqtisadi stabilliyini möhkəmləndirir. Bu əməkdaşlıq həmçinin digər sektorlara da təsir göstərir: enerji layihələrinin icrası zamanı yaradılan investisiya imkanları, texnoloji inkişaf və iş yerlərinin artımı ölkələrimizin iqtisadi potensialını daha da gücləndirir. Nəticədə enerji sahəsindəki qarşılıqlı maraqlar iqtisadi tərəfdaşlığın digər sahələrə genişlənməsinə, məsələn, yüksək texnologiyalar və infrastruktur layihələrinə də stimul verir.

Qeyd etdiyimiz kimi, enerji sektoru Azərbaycan-İsrail əməkdaşlığında strateji əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə Azərbaycan nefti İsrailə də tədarük olunur və bu, iki ölkə arasında enerji sahəsində etibarlı əlaqələrin bariz nümunəsidir. Ötən il Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) İsrailin Aralıq dənizindəki "Tamar" qaz yatağında 10 faizlik pay alması da bunu təsdiqləyir. Bu yataq İsrailin elektrik enerjisinin təxminən 60-70 faizini təmin edir. Onu da əlavə edək ki, SOCAR artıq BP və İsrailin "NewMed Energy" şirkəti ilə birgə İsrailin Xüsusi İqtisadi Zonasının blokları üzrə qaz kəşfiyyat lisenziyalarına malikdir. Bu addımlar Azərbaycanı Aralıq dənizindəki enerji layihələrinə daxil edir və regionda yeni ixrac yollarının yaradılması imkanlarını genişləndirir.





Hazırda Azərbaycanda İsrail investisiyalı 130-dan çox kommersiya qurumu fəaliyyət göstərir, iki ölkə arasındakı qarşılıqlı investisiyaların ümumi dəyəri isə təxminən 600 milyon dollar təşkil edir. Ötən ilin göstəricilərinə görə, Azərbaycan ilə İsrail arasında ticarət dövriyyəsi 78 milyon dollara çatıb. Xüsusilə qeyri-neft ixracında artım daha çox nəzərə çarpır: yanvar-noyabr aylarında Azərbaycanın İsrailə qeyri-neft məhsullarının ixracı 27 faiz artaraq, 2024-cü ilin eyni dövründəki 16 milyon dollardan təxminən 20,3 milyon dollara yüksəlib. Bu göstəricilər iki ölkə arasındakı iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyini və əməkdaşlıq potensialının geniş olduğunu bir daha təsdiqləyir.

Göstərilən uğurlar iqtisadi və texnoloji əlaqələri möhkəmləndirərkən, həm də ölkələrimiz arasında mədəni və turizm sahəsində qarşılıqlı maraqların inkişafına təkan verir. Bu proses Azərbaycanın sənaye 4.0 (4-cü sənaye inqilabı), "ağıllı şəhər" və kibertəhlükəsizlik sahələrində inkişafını sürətləndirir, ölkəni İsrailin qabaqcıl bilik və texnologiyaları ilə təmin edir. Nəticədə iki ölkə arasındakı əməkdaşlıq innovativ texnologiyaların transferi üçün platforma yaradır, üstəlik də Azərbaycanın rəqəmsal iqtisadiyyat və yüksək texnologiyalar sahəsində lider mövqeyini möhkəmləndirir.

İqtisadi əlaqələrin digər mühüm istiqaməti turizmdir. 2025-ci ildə Azərbaycana İsraildən gələn turistlərin sayı əvvəlki ilə nisbətən iki dəfədən çox artıb. Birbaşa uçuşların sayının çoxalması və vizaların sadələşdirilməsi bu artıma şərait yaradıb. İsrailli turistlər Bakı şəhərinin tarixi məkanlarını, ölkənin bölgələrini və xüsusilə Quba rayonundakı Qırmızı qəsəbəni maraqla ziyarət edirlər. Paralel olaraq, azərbaycanlı turistlərin də İsrailin Təl-Əviv və Hayfa kimi şəhərlərinə səfərləri artmaqdadır. Turizm mübadiləsi xalqlar arasında dostluğu gücləndirməklə yanaşı, iqtisadi fayda da gətirir.

Bu gün yüksək texnologiyalar və startap ekosistemi Azərbaycan-İsrail iqtisadi əməkdaşlığında prioritet istiqamətlərdəndir. İsrailin startap ekosistemi və texnoloji təcrübəsi Azərbaycanın rəqəmsal iqtisadiyyat strategiyası ilə uzlaşır. Bu çərçivədə Azərbaycan İnvestisiya Şirkəti ilə İsrailin "OurCrowd" investisiya platforması arasında 15 milyon dollar məbləğində əməkdaşlıq sazişi imzalanıb. Layihə energetika, səhiyyə texnologiyaları (healthtech), aqrar texnologiyalar (agtech), ərzaq texnologiyaları, təhsil texnologiyaları və kibertəhlükəsizlik sahələrini əhatə edir. "OurCrowd" platforması vasitəsilə Azərbaycanın innovativ gənc şirkətləri İsrailin təcrübəli investorlarından mentorluq və maliyyə dəstəyi alacaq, bu da ölkəmizdə texnologiya transferini sürətləndirəcək və rəqəmsal iqtisadiyyatın inkişafına təkan verəcək.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## *Bakı-Təl-Əviv xəttində yeni mərhələ:* İsrail xarici işlər nazirinin Azərbaycana səfərinin siyasi, iqtisadi və regional əhəmiyyəti

**İsrailin xarici işlər naziri Gideon Saarın Azərbaycana səfəri iki ölkə arasında uzun illər ərzində formalaşmış etibarlı tərəfdaşlığın məntiqi davamı olmaqla yanaşı, Cənubi Qafqaz və Yaxın Şərq regionlarında baş verən mürəkkəb geosiyasi proseslər fonunda xüsusi əhəmiyyət daşıyır. Bu səfər Azərbaycanın müstəqil, balanslaşdırılmış və çoxşaxəli xarici siyasət kursunun uğurla davam etdirildiyini bir daha nümayiş etdirir.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan-İsrail münasibətləri qarşılıqlı hörmət, daxili işlərə qarışmama və milli maraqlara əsaslanan əməkdaşlıq prinsipləri üzərində qurulub.

Siyasi dialoqun yüksək səviyyədə aparılması tərəflər arasında etimad mühitinin möhkəm olduğunu göstərir. Səfər çərçivəsində regional təhlükəsizlik, beynəlxalq sabitlik, terrorizm və transmilli təhdidlərə qarşı mübarizə məsələləri xüsusi diqqət mərkəzində olub. Tərəflərin bu sahədə mövqelərinin yaxınlığı əməkdaşlığın strateji xarakterini daha da gücləndirir.

İqtisadi əməkdaşlıq səfərin əsas gündəm mövzularından biri olub. Enerji sahəsində tərəfdaşlıq Azərbaycan-İsrail münasibətlərinin əsas sütunlarından biri olaraq qalır. Azərbaycan İsrailin əsas neft tədarükçülərindən biri olmaqla yanaşı, enerji təhlükəsizliyinin təminində etibarlı tərəfdaş kimi çıxış edir. Qlobal enerji bazarlarında qeyri-sabitliyin artdığı bir dövrdə bu əməkdaşlıq xüsusi aktuallıq kəsb edir. Bununla yanaşı, yüksək texnologiyalar, innovasiya, rəqəmsal həllər, kibertəhlükəsizlik, müdafiə sənayesi, kənd təsərrüfatı və su ehtiyatlarının səmərəli idarə olunması sahələrində əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanlar mövcuddur. İsrailin startap ekosistemi və elmi-tədqiqat potensialı Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi və rəqabət qabiliyyətinin artırılması strategiyası ilə uzlaşır. Bu kontekstdə birgə layihələrin reallaşdırılması tərəflər üçün qarşılıqlı fayda yaradır.

Səfər eyni zamanda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa və yenidənqurma prosesləri baxımından da xüsusi əhəmiyyət daşıyır. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, alternativ enerji mənbələrinin inkişafı, müasir suvarma sistemlərinin qurulması sahələrində İsrail təcrübəsi praktiki baxımdan böyük maraq doğurur. Bu istiqamətdə İsrail şirkətlərinin layihələrdə iştirakı real perspektiv kimi dəyərləndirilir.

Regional müstəvidə İsrail xarici işlər nazirinin Bakı səfəri müxtəlif ölkələr tərəfindən diqqətlə izlənilir. Azərbaycan-İsrail əlaqələrinin inkişafı regionda yeni əməkdaşlıq konfiqurasiyaları formalaşdırır. Bu proseslər üçtərəfli və çoxtərəfli iqtisadi və siyasi əməkdaşlıq üçün əlavə imkanlar yaradır. Eyni zamanda bəzi region ölkələri bu yaxınlaşmaya ehtiyatlı yanaşsa da, Azərbaycan öz milli maraqlarına əsaslanan müstəqil xarici siyasət kursunu ardıcıl şəkildə davam etdirir. Bakı regional və qlobal aktorlarla münasibətlərdə balansı qoruyaraq, qarşıdurmadan deyil, əməkdaşlıqdan çıxış edən mövqe sərgiləyir.

Ümumilikdə İsrail xarici işlər nazirinin Azərbaycana səfəri ikitərəfli münasibətlərin dərinləşdirilməsi ilə yanaşı, Azərbaycanın regionda artan siyasi və iqtisadi rolunu bir daha ön plana çıxarır. Bu səfər Azərbaycanın etibarlı tərəfdaş, dialoq platforması və regional sabitliyə töhfə verən mühüm aktor kimi mövqeyini daha da gücləndirir və Bakı-Təl-Əviv əməkdaşlığının uzunmüddətli perspektivlərini təsdiqləyir.

## *Rusiyalı politoloq:* "Çoxvektorlu siyasət Bakıya bir sıra mürəkkəb regional münaqişələrdə vasitəçi olmağa imkan verib"



**"Azərbaycanın həqiqi çoxvektorlu və balanslaşdırılmış xarici siyasəti, habelə ölkənin tarixi əlaqələri və unikal coğrafi mövqeyi Ankara ilə yanaşı, Bakıya da regionda və onun hüdudlarından kənarda bir sıra mürəkkəb münaqişələrdə vasitəçi olmağa imkan verib".**

Bu fikri AZƏRTAC-ın müxbiri ilə bölüşən rusiyalı politoloq Vitali Arkov İran xarici işlər nazirinin müavini Vahid Cəlalzadə və İsrail xarici işlər naziri Gideon Saarın Azərbaycana son səfərlərini şərh edib.

Politoloq qeyd edib: "Bilirik ki, müəyyən çətinliklərə rəğmən Azərbaycan və İranı təkcə mehriban qonşuluq əlaqələri deyil, həm də iki ölkə xalqlarının qohumluğu və din birliyi birləşdirir. Bu, bir tərəfdən belədir. Digər tərəfdən Azərbaycan İsrail ilə konstruktiv münasibətlər yaratmağı, iqtisadi və hərbi-texniki sahələrdə tərəfdaşlıq qurmağı bacarıb. Sirr deyil ki, Bakı hazırda Təl-Əviv ilə dialoqda Ankaranın maraqlarının bir növ səsi kimi çıxış edir, çünki Türkiyə-İsrail birbaşa təmasları Qəzzada vəziyyətlə bağlı fərqli baxışlar səbəbindən mürəkkəbləşib".

Politoloqun sözlərinə görə, regiondakı bütün ölkələr kimi, Azərbaycan da İsrail ilə İran arasında həll olunmayan ideoloji münaqişənin tammiqyaslı hərbi əməliyyatlara çevrilməsi potensialından son dərəcə narahatdır.

Xatırladaq ki, Bakıda keçirilən son danışıqlar Azərbaycanın regional diplomatik mərkəz statusunu təsdiqləyib. İran xarici işlər nazirinin müavini Vahid Cəlalzadənin 23-24 yanvar tarixlərində ölkəmizə səfəri etimadın möhkəmləndirilməsi tədbirlərinə və birgə infrastruktur layihələrinin həyata keçirilməsinə yönəlib. Bu arada İsrail xarici işlər naziri Gideon Saarın Azərbaycana 26 yanvar tarixli səfəri təhlükəsizlik, iqtisadiyyat və texnologiya sahələrində tərəfdaşlığın strateji xarakterini vurğulayıb. Tehran və Təl-Əviv nümayəndələrinin Azərbaycana səfərləri Bakının hər iki tərəflə konstruktiv dialoq aparmaq bacarığını, eyni zamanda öz milli maraqlarını qorumaq və regionda ümumi gərginliyin azaldılmasına kömək etmək qabiliyyətini açıq şəkildə nümayiş etdirir.

# Qərbi Azərbaycana qayıdış: milli ideyanın əsas hədəflərindən biri

**Qafqazın sərt dağları və qədim çayları kimi, bu bölgənin yaddaşı da dərin, çoxqatlı və keçilməzdir. Bu yaddaşın ən ağrılı qatlarından biri isə Qərbi Azərbaycan məsələsidir. Qərbi Azərbaycan bu gün təkcə tarix kitablarının səhifələrində deyil, yüz minlərlə insanın ürəyində yaşayan qədim bir coğrafiya kimi varlığını qoruyur. Əsrlər boyu bu torpaqlarda kök salmış toplumun taleyi XX əsrin sarsıntıları ilə dəyişdi, lakin yaddaş və kimlik dəyişmədi; sadəcə, həsrət böyüdü.**



## Qərbi Azərbaycana qayıdış həqiqətin etirafından keçir

Bu həsrətin içində gizlənən əsas sual isə hələ də cavabını gözləyir: bu düyünün açarı haradadır?

### Tarixin bağladığı, ədalətin açmalı olduğu düyün

Qərbi Azərbaycanın boşaldılması təkcə bir ərazinin dəyişməsi deyildi, bir mədəniyyətin, bir həyat tərzinin, bir yaddaşın kökündən qoparılması demək idi. İrəvandan Göyçəyə, Zəngibasardan Vedibasara qədər geniş bir ərazidə əsrlərlə yaşayan Azərbaycan türklərinin izləri - məscidlər, kəndlər, qəbiristanlıqlar, adətlər və nəfəs alan tarix bir anda yox edilmədi, amma süngülərin, qadağaların və zorakı deportasiyaların içində yaşamaq imkanı əlindən alındı.

Bu faciə yalnız bir xalqın deyildi, regionun bütövlüyünün də itkisi idi. Çünki Qafqazda bir xalq sıxışdırıldıqca bölgə sülhə deyil, qarşıdurmaya daha da yaxınlaşır. Tarixi ədalətin bərpası təkcə keçmişin acısına çarə deyil, gələcəyin təhlükəsizliyinin təminatıdır.





Tarix bəzən bir qapını bağlayır və o qapının açarının yerini dəqiq göstərmir. Qərbi Azərbaycan məsələsi də belədir: bir əsrin içində dəyişən sərhədlər, süni şəkildə yaradılan demoqrafik tablo və zorakı köçürülmələr nəticəsində formalaşan böyük bir faciə zamanın içində düyünə çevrilib. Bu düyün, sadəcə, siyasi xəritədəki bir kəsik deyil, insanların taleləri, dağıdılmış evlərin xofu, tərk edilmiş yurdların səsi və yaddaşın dərinində ilişib qalmış həsrətdir.

Qərbi Azərbaycanda əsrlər boyu yaşayan insanlar öz köklərindən heç zaman qopmadıqlarını yaxşı bilirdilər. Hər bir kəndin, hər bir yurdun bir adı, bir nəfəsi, bir adəti vardı: İrəvan bazarının səsi, Göyçə gölünün rəngi, Zəngibasarın yaylaqları, Vedibasarın bağları… Bu adlar insanlar üçün coğrafiya deyil, həyatın özü idi. Amma bu həyat XX əsrdə bir neçə dəfə zorla dəyişdirildi: əvvəlcə çar hakimiyyəti dövründə təzyiqlər, sonra sovet illərində planlı şəkildə yerli əhalinin sıxışdırılması, 1948-1953-cü illərin köçürülmələri, daha sonra 1988-ci ilin etnik təmizləmələri ilə bu torpaqların tarixi demoqrafiyası zorla məhv edildi. Bu hadisələr təsadüfi deyildi, tarixi bir sistemin, siyasi dizaynın nəticəsi idi. Düyün də məhz burada yarandı: tarixin zorla dəyişdirilən axarı ədalətin qarşısında böyük bir yükə çevrildi.

Lakin hər bağlanan düyünün bir açması olur. O isə yalnız güc və ya qisasla tapılmır. Ədalət həm hüquqi, həm mənəvi anlamda bu düyünün açılmasıdır. Çünki Qərbi Azərbaycan məsələsi, sadəcə, itirilmiş torpaqların deyil, pozulmuş insan hüquqlarının, zamana qurban verilmiş nəsillərin, sadəcə, "yurd" adlanan bir məkanın yox, bütöv bir həyat tərzinin bərpası məsələsidir.

Tarixin yaratdığı bu düyünü açmaq üçün birinci növbədə həqiqət qəbul edilməlidir. Həqiqət gizli qaldıqca münaqişələr dərinləşir, tanındıqca isə yeni səhifələr açılır. Ermənistan cəmiyyətinin uzun illər boyu "yox" kimi göstərməyə çalışdığı tarixi gerçəkliklər sülhə maneədir. Tarixin təhrif edilməsi ilə sülh qurmaq mümkün deyil, çünki saxta yaddaş üzərində inşa olunan gələcək gec-tez uçar, dağılar. Ədalətin açmalı olduğu düyün məhz burada gizlidir: həqiqəti qəbul etmək, tarixi faktları inkar etmədən yeni münasibət yaratmaq.

Tarix bu qapını bağladısa, onu yenidən açmaq bizim, yəni bu bölgədə yaşayan xalqların əlinə verilmiş bir imtahandır. Bu düyünün açılması yalnız bir xalqın deyil, bütün Cənubi Qafqazın taleyini dəyişə bilər. Çünki Qərbi Azərbaycan məsələsi ədalətin bərpasına aparan yolun simvoludur, bu yol ədalət olmadan nə sülh gətirə bilər, nə də uzunmüddətli sabitlik.

Hər dəfə Qərbi Azərbaycan haqqında danışanda göz önünə əvvəlcə xəritə gəlmir, insanlar gəlir. Göyçəyə qayıda bilməyən bir ana, İrəvanın küçələrini yalnız yuxularında gəzən bir qoca, Zəngibasarda doğulan, amma doğulduğu yeri yalnız ailə albomundan tanıyan bir uşaq… Onların hər biri bu düyünün canlı şahididir. Çünki Qərbi Azərbaycan məsələsi coğrafiya yox, yarımçıq qalmış həyatların məcmusudur.

Köçürülən ailələrin yaddaşında yüzillik şəkillər gəzirdi: yaylağa gedən qatarların səsi, göl qırağında yandırılan samovarın tüstüsü, bağdan gələn alma qoxusu… Bu xatirələr bir gün zorla və qəfil susduruldu. Adamlar evlərini tərk edərkən arxada qalan hasarların, qapısı açıq qalmış həyətlərin və yarımçıq duaların səsi bütün Qafqaza yayılmışdı. Bu səs hələ də tam kəsilməyib, sadəcə, zaman altında gizlənib.

Hər bir yurdun bir nəfəsi var, deyirlər. Yurdu boşaltdıqda o nəfəs də içində çırpınır. İrəvan da belə nəfəsi itirilmiş bir şəhərdir, min illərin izlərini bağrında saxlayıb, amma onu unutdurmaq istəyənlərin sükutunda boğulub. Göyçə gölü hələ də o sərin nəfəsini küləklə ötürür, sanki deyir: "Mən sizi gözləyirəm". Göyçədə yarımçıq qalmış toyların səsi, Nərimanlıda yarımçıq qalmış məktəb yolları bir xalqın yaddaşında hələ də tamamlanmamış bir cümlə kimi dayanır.

Bu tarixi düyünü yaratmaq asan oldu: sərəncamlar, qadağalar, zorakılıq və məcburiyyət - bütün bunlar bir neçə il içində yüz illərin nizamını pozdu. Lakin onu açmaq çətin olacaq, çünki burada təkcə torpaq deyil, dərin yaralar var. Hər yara isə səs tələb edir: tanınmaq, anılmaq, qəbul edilmək…

Ədalət bu bağlı qapının yeganə açarıdır. Ədalət hissi yalnız qayıdış demək deyil, həm də tanınmaq, "bu baş verib" deyə bilmək, insanların tale hekayələrinin heç olmasa bir dəfə dinlənilməsidir. Ədalət həm də o deməkdir ki, bir nənənin İrəvandakı evinin 40 ildir cibində saxladığı açarı simvol yox, gerçək olsun.

Bu düyünün açılması Qafqazın gələcəyi ilə də bağlıdır. Çünki bir xalq öz kökündən qoparılandan sonra o torpaq da yetim qalır. Qərbi Azərbaycan əraziləri bu gün yetim bir məkandır, sahibinin səsini, ayaq izini, nəfəsini gözləyən bir məkandır. Çünki bölgələr də insanlar kimidir: darıxar, susar, gözləyər.

Sülh yalnız silahların susması deyil, həm də yaraların sağalması, haqsızlığın etirafı, qayıdış yollarının açılmasıdır.

### Sülhün yolu yaddaşı susdurmaqdan yox, tanımaqdan keçir

Bəziləri düşünür ki, bu məsələni unutmaq, "keçmişi bağlamaq" regiona sakitlik gətirə bilər. Lakin tarix göstərir ki, susdurulan həqiqət unudulmur, daha gərgin şəkildə geri qayıdır. Qərbi Azərbaycan problemi də unutdurulmaqla deyil, tanınmaq və qəbul edilməklə həll oluna bilər.

Bu tanınma üç istiqamətdə özünü göstərməlidir:

- Tarixi həqiqətlərin qəbul edilməsi. Qərbi Azərbaycanın tarixini saxtalaşdırmaq cəhdləri nə elmə, nə də sülhə xidmət edir. Gerçək sülh həqiqət üzərində qurulur.

- İnsanların öz doğma yurdlarına təhlükəsiz və mərhələli qayıdış hüququ. Bu prinsip bütün beynəlxalq hüquq sənədlərində yer alır. Qayıdış zorakılıq deyil, hüquqi və humanitar mexanizmlərlə olmalıdır.

- Regional güclər arasında əməkdaşlığın sülh modelinə çevrilməsi. Qarabağ münaqişəsinin həlli regionda bir çox tabunu dağıtdı. İndi Qərbi Azərbaycan məsələsi də sülh gündəminə yeni bir yanaşma ilə daxil ola bilər.

### Sülh üçün yeni model: Humanitar diplomatiya

Bu günün dünyasında sərt güc nə qədər önəmli olsa da, təkbaşına heç nəyi həll etmir. Mədəniyyət, dialoq, humanitar diplomatiya və yumşaq güc sülh modelinin əsas dayaq nöqtələridir.

Qərbi Azərbaycan məsələsi də məhz bu çərçivədə təqdim olunsa, regionda yeni bir fikir doğula bilər:

"Torpaq davası" yox, "insan hüquqları və ədalət davası".

Maarifçilik, humanizm, millətçilik və tərəqqi ideyasının harmoniyası.

### Sələflərin mirası: keçmişdən gələcəyə körpü

Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə kimi böyük fikir adamları Qafqazın gələcəyini sülh, tərəqqi və ədalət üzərində təsəvvür edirdilər. Bu gün Qərbi Azərbaycan məsələsi həmin fikrin davamıdır. Onlar deyirdilər ki, bir xalq öz gerçək tarixini müdafiə etməsə, heç bir gələcək qura bilməz. Amma bu müdafiə nifrət üzərində deyil, maarif və həqiqət üzərində qurulmalıdır.

Bəs düyün harada açılır? Bu sualın qəti cavabı yoxdur, lakin istiqamətlər bəllidir:

- Düyün beynəlxalq hüquqda açılır. Qayıdış hüququ, mülkiyyətin tanınması, humanitar normalar - bunların hamısı beynəlxalq hüququn açarıdır.

- Düyün regional siyasətdə açılır. Azərbaycan və Ermənistan arasında uzunmüddətli sülh müqaviləsi yeni mərhələnin başlanğıcı ola bilər.

- Düyün cəmiyyətlər arasında dialoqda açılır. Stereotiplər dağıldıqca sülh pəncərəsi daha geniş açılır.

- Düyün yaddaşın qorunmasında açılır. Tarixi və mədəni irsin dünyaya təqdim edilməsi beynəlxalq dəstəyin əsasını yaradır.

### Sülhün açarı insanın əlindədir

Qərbi Azərbaycan məsələsi nə təkcə xəritə ilə, nə də siyasi bəyanatlarla həll edilə bilər. Əsl həll insanın, toplumun və dövlətlərin iradəsindədir. Ədalətin gecikməsi mümkündür, amma itməməsi üçün səsi yüksəltmək, yazmaq, tanıtmaq və xatırlatmaq lazımdır.

Bu düyün, əslində, Qafqazın sınağıdır.

Sülh yalnız susmaq deyil, həm də danışmaq, dinləmək və anlamaqdır. Qərbi Azərbaycan torpaqlarından didərgin düşənlərin hekayələrini dinləmək, onların yurdlarına yenidən qayıtmaq haqqını tanımaq, tarixə obyektiv baxmaq sülhün içimizdə atdığı ilk addımlardır. Çünki insan bir ağrını qəbul edəndə o ağrını sağaltmaq da mümkün olur, yox, sayanda isə yara daha da dərinləşir.

Bu gün Cənubi Qafqaz üçün sülhün qapısını açacaq açar məhz budur: insanların yaddaşla barışması, tarixin ağırlığını qəbul etməsi, haqsızlığa göz yummaması. Hər xalqın içində sülhü istəyən vicdan var, onu oyatmaq üçün isə həqiqətlə üz-üzə dayanmaq lazımdır.

Sülhün açarı insanın əlindədir, çünki insan nə qədər ki, qorxu, nifrət, təhrif olunmuş yaddaş və süni miflərlə yaşayır, nə özünü azad edə, nə də başqasına yol aça bilir. Amma insan içini təmizlədikcə, zamanın yaratdığı qaranlığı dağıtdıqca sülh yavaş-yavaş yol tapır.

Sülh həm də xatirələrin doğru yerdə dayanmasını tələb edir:

– Ağrı inkar edilmədən

– Haqsızlıq unudulmadan

– Yurd həsrəti günah sayılmadan.

Bu anlayış formalaşanda Qərbi Azərbaycan məsələsi artıq qarşıdurma mövzusu olmur, ədalətin bərpası, insan ləyaqətinin tanınması və birgə yaşamaq mədəniyyətinin yüksəldilməsi məsələsinə çevrilir.

Sülhün açarı insanın öz əlindədir. Əgər insan qəlbini və düşüncəsini aça bilsə, sərhədlər də açılar, yollar da genişlənər, illərlə bağlı qalan problemlər də çözülər. Sülh yalnız siyasi proses deyil, həm də psixoloji məsələdir. Bir insanın içində sülh olmadıqda onun cəmiyyətində də, dövlətlər arasında da davamlı sülhdən danışmaq çətindir. Qərbi Azərbaycan kimi dərin ağrıların yaşandığı bir bölgədə sülhün yolu ilk növbədə psixoloji sağlamlaşmadan keçir.

Məcburi köçürülmə, yurd itkisi, zorakılıq və məhrumiyyətlər insan psixikasında iz buraxır. Bu izlər yalnız fərdi deyil, el ağrısıdır. El ağrısı isə nəsillərə ötürülə bilər: ata evini itirir, oğlu həmin evin kədərini miras alır, nəvə isə həmin acının haradan gəldiyini anlamasa belə onun ağırlığını hiss edir. Bu səbəbdən Qərbi Azərbaycan məsələsi yalnız torpaq, sərhəd və demoqrafiya məsələsi deyil, psixoloji mirasdır.

Sülhün açarı insanın içindədir, çünki hər bir insan - istər yurdunu itirmiş olsun, istərsə də bu tarixi inkar edən kimsə - öz psixoloji müdafiə mexanizmləri ilə yaşayır. Biri ağrını unutmaq üçün susur, biri qorxudan yaddaşını dəyişir, biri də günahsız olduğunu sübut etmək üçün inkar yolunu seçir. Amma bunların heç biri sülh yarada bilmir.

Sülhün psixoloji başlanğıcı həqiqətə baxmaqdır. Həqiqəti qəbul etməyən cəmiyyət sülhə hazır olmur. Sülh həm də insanın öz içindəki qaranlıqla üzləşməsi və onu işığa çevirməsidir. Bu işıq yandıqda sülhün yolu həm insanın içində, həm cəmiyyətin yaddaşında, həm də regionun siyasətində görünməyə başlayır.

***Gülgün QULİYEVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

## Qərbi Azərbaycan ərazisi tarixi torpaqlarımızdır



**Şəmkir Rayon İcra hakimiyyəti, Qərbi Azərbaycan İcmasının (QAİ) rayon nümayəndəliyi və təhsil sektorunun birgə təşkilatçılığı ilə Əliyaqublu kənd tam orta ümumtəhsil məktəbində "Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır" mövzusunda açıq dərs təşkil olunmuşdur.**

Xatırladaq ki, bu kəndin sakinlərinin 92 faizdən çoxunu 1918-ci, 1924-cü illərdə erməni daşnak silahlılarının zülm və işgəncələri nəticəsində, habelə 1948-ci il dövlət səviyyəsində həyata keçirilən deportasiya zamanı öz dədə-baba yurdunu məcburən tərk etmiş ailələr, onların sağ qalan varisləri təşkil edir. Açıq dərsə kənddə yaşayan Qərbi Azərbaycan kökənli, xüsusən də Masis və Amasiya rayonlarından vaxtilə köç etmiş ailələrdən olan valideynlər də dəvət edilmişdilər.

Açıq dərs məktəbin tarix müəllimi Asəf Əliyev və coğrafiya müəllimi Günəş Rzayevanın mederatorluğu ilə davam etdirildi. Açıq dərsin ruhunu Prezident İlham Əliyevin 2024-cü ilin sonlarında Qərbi Azərbaycan İcmasının inzibati binası ilə tanışlıq zamanı çıxışında "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycan diyarına qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar" deməsi təşkil edirdi.

Açıq dərsin gedişində şagirdlərə bir daha açıqlandı ki, Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu arxiv materialları, xəritələr, habelə minilliklərə söykənən mədəni irisimiz, abidələrimiz, inanc yerlərimiz, qəbiristanlıq və məscidlərimiz də təsdiqləyir. Şagirdlərə Qərbi Azərbaycanla bağlı həqiqətləri bilməsi, qədim yurd yerlərimizin tarixini, mədəniyyətini, adət-ənənələrini yaşatmalı olduqları genişliyi ilə izah edildi. Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru, professor, Əməkdar müəllim Mahirə Hüseynovanın iştirakçılara ünvanladığı məktubu oxundu. Məktəbdə təşkil edilən açıq dərsin azərbaycançılıq tarixinə və xalqımızın mənəvi sərvətlərinə təəssübkeş münasibət olduğu diqqətə çatdırıldı. Qeyd edildi ki, orta məktəblərdə Qərbi Azərbaycana qayıdışla bağlı açıq dərslərin keçirilməsi gənclərimizin tarixi irsimizə sahib çıxmasına güclü təkan verəcək.

Dərsin gedişində "Dövlət başçısı İlham Əliyevin Qərbi Azərbaycanla bağlı yürütdüyü siyasət beynəlxalq hüquqa əsaslanan Qayıdış Konsepsiyasıdır" adlı videoçarx nümayiş etdirildi.

QAİ-nin Şəmkir rayon nümayəndəsi Altay Qafarov, rayon icra hakimiyyətinin məsul işçisi Rəşad Ramazanov, rayon təhsil sektorunun nümayəndəsi Azər Əliyevin, bələdiyyə sədri Niyaməddin Mustafayevin, kənd inzibati ərazi nümayəndəsi Turan Qafarovun və qərbi azərbaycanəsilli valideynlərin müşayiəti ilə böyük maraqla keçən açıq dərsin sonunda iştirakçılara "Mənim Qərbi Azərbaycanım", eləcə də Qərbi Azərbaycanla bağlı digər kitablar hədiyyə edildi.

***Ziyafət ASLANOVA,***
***Şəmkir rayonunun Əliyaqublu kənd orta ümumtəhsil məktəbinin direktor əvəzi, qabaqcıl təhsil işçisi***



2026 Şəhərsalma və Memarlıq İli



# "...Tikdim ki, izim qala"

**Tarixin izinə düşən daşın yaddaşını oxuya bilən memarlar az olur. Onlar yalnız bina inşa etmirlər, zamanla üz-üzə dayanıb babalarımızın min illər əvvəl tikib qoyduqları tarixi yadigarları, mədəni irsimizi yaşadıb, yenidən həyat verib gələcək nəsillərə ötürürlər.**



Azərbaycan memarlıq məktəbinin tanınmış nümayəndələrindən biri Əməkdar memar Ədalət Eyvaz oğlu Məmmədov da məhz bu nadir sənət sahiblərindəndir. O, keçmişin gözəllikləri ilə müasirliyi sintez etməyi bacaran nadir sənətkarlardandır. Ə.Məmmədovu tanımaq üçün onun imzasını daşıyan layihələr sırasında Bakının möhtəşəm və nadir tarixi-memarlıq nümunələrindən biri olan Heydər məscidini qeyd etmək kifayətdir. Bu abidə təkcə dini məkan deyil, milli memarlıq düşüncəsinin, estetik zövqün və məsuliyyətli memar mövqeyinin ən mükəmməl ifadəsidir.

Ədalət Məmmədovun həyat yolu zəhmət və əqidə üzərində qurulub. O, Bərdə şəhərində çoxuşaqlı ailədə dünyaya göz açıb. Atası feldşer, anası evdar qadın olub. Beş yaşında atasını itirən Ədalət Məmmədovun ailəsində əsas yük anasının çiyinlərinə düşüb. Deyir ki, zəhmətkeş anamız 7 övladını namusla, zəhmətlə, şərəflə böyüdüb, 7 uşağın hamısının ali təhsilli olması üçün canını oda yaxıb.



1966-1976-cı illərdə Bakıda 4 nömrəli fars təmayüllü orta məktəbdə təhsil alan Ədalət hələ məktəb illərindən əl qabiliyyəti və təsviri düşüncəsi ilə seçilib. Divar qəzetlərinin tərtibatı, rəssamlıq işləri məktəbdə ona həvalə olunub. Əslində, onun arzusu şərqşünas olmaq idi. Lakin İnşaat Mühəndisləri İnstitutunda təhsil alan böyük qardaşı onun memarlığa olan fitri qabiliyyətini görərək bu istiqamətə yönləndirib: "Məndən böyük qardaşım İnşaat İnstitutunda oxuyurdu. İndi İspaniyada yaşayır. Heykəltaraşdır. Mənə dedi ki, Ədalət, sən seçilən bir memar ola bilərsən. Memarların ömrü uzun, bəzən də əbədiyaşar olur. Atalar eləbelə deməyiblər ki, tikmədim özüm qalam, tikdim ki, izim qala. Sən də tik ki, bu dünyada bir iz qoya biləsən. Qərara gəldim ki, memar olacağam".

1977-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Memarlıq fakültəsinə daxil olan Ədalət Məmmədov 1983-cü ildə ali təhsilini başa vurub. Amma onun əmək fəaliyyəti hələ tələbəlik illərindən - 1980-ci ildən başlayıb. O, Mədəniyyət Nazirliyində tarix və mədəniyyət abidələrinin bərpası ilə məşğul olub və ömrü boyu bu sahədən ayrılmayıb. Hazırda da Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutunda baş mütəxəssis olan Ədalət Məmmədov 1980-1989-cu illərdə Şuşa Memarlıq Qoruğundakı tarixi abidələrin sənədləşdirilməsi və bərpası ilə məşğul olub. Onun gördüyü işlərin siyahısına baxanda göz önündə bütöv bir tarix canlanır.



Ədalət Məmmədov deyir ki, memarlıq gözəl sənətdir, amma bərpaçılıq tamam başqa aləmdir. Onun fikrincə, bərpaçı memarı həkimlə müqayisə etmək olar: "Həkim necə ki, xəstənin dərdini öyrənir, diaqnoz qoyur və müalicə edir, bərpaçı memar da abidəni öyrənir - bünövrəsindən dam örtüyünə qədər. Dağıntının səbəbini araşdırır, arxiv materiallarını tədqiq edir və yalnız bundan sonra qərar verir: bu abidə vaxtilə necə olubsa, elə də bərpa olunmalıdır".

1979-1992-ci illərdə Qarabağda çalışan memar bölgədəki tarixi abidələrin pasportlaşdırılmasını həyata keçirib. 1986-cı ildə Xocavənd rayonuna ezamiyyəti zamanı erməni məmurlar tərəfindən ciddi maneələrlə üzləşib.

Ədalət Məmmədov Xocavənd rayonunda qarşılaşdığı bir hadisəni unutmur: "Tarixi abidələrin pasportlaşması məqsədilə Xocavəndə ezam olunmuşdum. Xocavənd rayonunun Mədəniyyət şöbəsinin müdiri hər vəchlə işimə mane olmağa çalışırdı. Səbəb də aydın idi. O zaman Rəna Əfəndizadə Qarabağdakı bir çox kilsə və məbədlərin alban irsinə aid olduğunu elmi əsaslarla sübut edən kitab yazmışdı. Ermənilər isə bütün alban abidələrini öz adlarına çıxmaq istəyirdilər. Mədəniyyət Nazirliyinə zəng vurub o zaman tarixi abidələrə nəzarət edən Şamil Əliyevə məlumat verdim. Mədəniyyət Nazirliyinin dəstəyilə işlərimi davam etdirdim. Talış kəndində olanda mənə bələdçilik edən erməni dedi ki, buradakı meşə ərazisində qədim bir qala-şəhər var. O zaman bu qala-şəhərin adı bizim siyahıda yox idi. Həmin abidənin yerləşdiyi əraziyə gedib ərazini ölçüb qeydiyyata saldım. Qaladan Tərtərçaya gizli tunel də çəkilmişdi. İndi bu abidə tarixi Urek qalası, Urek məbədi, alban monastrları kimi mühüm abidələr sırasında yer alır".

Bu gün düşməndən azad edilmiş Qarabağda yenidən tarixi-mədəni irsimizin bərpası ilə məşğul olan Ədalət Məmmədovun müəllifi olduğu layihələr sırasında Yuxarı Gövhər ağa məscidi, Şuşa qalası, Üzeyir bəy Hacıbəylinin ev-muzeyi, Şirin su hamamı, Xan qızı Natəvanın evi, Ağdam Cümə məscidi, Zəngilan Şəhər məscidi və onlarca digər abidə var. Onun rəhbərliyi ilə görülən işlər sırasında Gəncə İmamzadə Kompleksi, Qarabağlar türbəsi, Milli Azərbaycan Tarixi Muzeyi (Tağıyev sarayı), "Sınıq Körpü", Şah Abbas karvansarayı kimi milli əhəmiyyətli abidələrin bərpası da xüsusi yer tutur.



Ədalət Məmmədovun yaradıcılığında xüsusi mənəvi çəkisi olan əsərlərdən biri də 20 Yanvar Abidə Kompleksidir. Bu kompleks təkcə memarlıq nümunəsi deyil, xalqın ağrısının, ləyaqətinin və sarsılmaz iradəsinin daş yaddaşıdır. Burada hər bir xətt, ərazinin quruluşu, həcm kədərin və ucalığın ifadəsidir. Memar bu abidədə formadan daha çox məna qurur, daş vasitəsilə sükutu danışdırır. 20 Yanvar Abidə Kompleksi Ədalət Məmmədovun sənət fəlsəfəsinin ən aydın ifadələrindən biridir. Tarixi hadisəni, sadəcə, xatırlatmır, onu milli yaddaşın ayrılmaz parçasına çevirir və gələcək nəsillərə ötürür.

Ədalət Məmmədov Azərbaycan abidələrinin ilkin siyahısının və İçərişəhər Qoruq Kompleksinin UNESCO siyahısına salınması layihəsində memarlar qrupuna rəhbərlik edib. 2018-ci ildə ona Azərbaycan Respublikasının Əməkdar memarı, 2019-cu ildə isə "Ustad Memar" adı təqdim olunub. Bu yolun fəlsəfəsi isə sadə və dərin bir cümlədə ifadə olunur: "Tikmədim özüm qalam, tikdim ki, izim qala".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Tarixlərin şahidi - İsmailiyyə sarayı

**Qədim Bakı şəhərinin ən möhtəşəm memarlıq nümunələrindən biri olan İsmailiyyə sarayı təkcə daşdan hörülmüş bir bina deyil. Bu saray XX əsrin əvvəllərində Azərbaycanın ictimai fikrini, xeyriyyəçilik ənənələrini, milli faciələrini və mübarizə ruhunu özündə təcəssüm etdirən nadir tarixi-memarlıq abidələrindəndir. Onun taleyi Bakının, hətta bütövlükdə Azərbaycanın taleyinə bənzəyir...**



İsmailiyyə sarayını tanınmış Azərbaycan milyonçusu, neft bumu dövrünün ən nüfuzlu simalarından biri olan Musa Nağıyev gənc yaşında dünyasını dəyişmiş oğlu İsmayıl Nağıyevin xatirəsinə inşa etdirib. Vərəm xəstəliyindən vəfat edən İsmayılın itkisi ata üçün dərin mənəvi sarsıntı olub. Bu ağrı xeyriyyəçilik ideyası ilə birlikdə möhtəşəm bir memarlıq abidəsinə çevrilib.

## Xeyriyyəçilik məramının memarlıq təcəssümü

XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən Müsəlman Xeyriyyə Cəmiyyəti milli maarifçilik və xeyriyyəçilik baxımından mühüm rol oynayırdı. Həmin cəmiyyətin sədri, milyonçu Hacı Zeynalabdin Tağıyev Bakı Şəhər Dumasına müraciət edərək ayrıca qərargah binasına ehtiyac olduğunu bildirib. Xahiş olunub ki, cəmiyyətə "Kaspi" qəzeti redaksiyası ilə (redaksiya indiki Sabir bağının yerində idi) Müsəlman qız məktəbi (hazırda Əlyazmalar İnstitutu) arasındakı boş torpaq sahəsi verilsin.

Şəhər Dumasında 1905-ci il dekabrın 1-də keçirilən iclasında bu müraciətə baxılaraq müsbət cavablandırılıb. Ancaq torpaq sahəsi xeyriyyə cəmiyyətinin şəxsi mülkiyyətinə deyil, Bakıda mövcud olduğu müddətə pulsuz istifadəsi üçün verilib.

Lakin binanın tikintisinə dərhal başlanılmayıb. Novruz bayramı münasibətilə təşkil olunmuş ziyafət məclisində Ağamusa Nağıyevə oğlunun xatirəsini əbədiləşdirmək üçün Müsəlman Xeyriyyə Cəmiyyətinə bina tikdirməyi Bakı milyonçuları təklif ediblər.

Binanın layihəsini hazırlamaq o dövrün tanınmış mülki mühəndisi İosif Kasperoviç Ploşkoya həvalə edilib. 1907-ci ildə binanın layihəsi Ağamusa Nağıyev tərəfindən bəyənilib.

İosif Ploşkonun bu layihəsi o qədər böyük maraq doğurub ki, hətta binanın eskizləri mətbuatda dərc olunaraq şəhər köşklərində satılıb.

1908-ci il dekabrın 21-də geniş kütlənin, eləcə də Bakı milyonçuları Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Dadaşov qardaşlarının və başqalarının iştirakı ilə binanın təməlinin qoyulması Bakıda əlamətdar hadisəyə çevrilib.

Memarlıq xüsusiyyətləri, detalların zənginliyi ilə seçilən bina Venesiya qotikası üslubunda tikilib. Çatmatağlara üstünlük verilməsi binanı yerli mühitə daha da yaxınlaşdırıb.

Tikintisi 1913-cü ildə başa çatan "İsmailiyyə" memarlıq xüsusiyyətlərinə görə şəhərin ən əzəmətli binası kimi tanınıb.

## 1918-ci ilin qara izi…

Nakam bir gəncin adını daşıyan İsmailiyyə sarayının taleyi keşməkeşlər içərisində keçib. 1918-ci ildə ermənilərin Bakıda azərbaycanlılara qarşı törətdikləri ən dəhşətli faciələrin - 31 Mart soyqırımının şahidi olub. Etdikləri vəhşiliklərdən daha da azğınlaşan erməni cəlladları cinayət əməllərini artırıblar. Mart hadisələri zamanı ermənilər Bakıda nəzarəti ələ keçiriblər. Həmin müsibətli günlərdə erməni silahlı dəstələri şəhərin müsəlman əhalisi ilə yanaşı, onun tarixi simasına, rəmzinə çevrilən binalarını da hədəfə alıblar. İsmailiyyə sarayını da qarət ediblər. Sonra isə bina ermənilər tərəfindən gülləbaran edilib və yandırılıb. Dəhşətli yanğın nəticəsində binanın daxili tamamilə məhv olunub. Sarayın öz arxivi ilə yanaşı, burada fəaliyyət göstərən qurumların da arxivləri, sənədləri yanaraq külə dönüb.

"İsmailiyyə" alovdan çıxmış yaralı bir şahid kimi xilaskarlarının yolunu gözləyib. O gün gəlib. 1918-ci il sentyabrın 15-də Bakı daşnak-bolşevik birləşmələrinin işğalından azad edilib. Qafqaz İslam Ordusu şəhərə qalibiyyətlə daxil olub. İsmailiyyə sarayının qarşısında Qafqaz İslam Ordusu fəxri parad yürüşü keçirib.

Hələ 1918-ci il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən Birinci Dünya müharibəsi başlanandan Cənubi Qafqazın müsəlman əhalisinə və əmlakına qarşı törədilmiş zorakılıq, qırğın və soyğunçuluq faktlarının araşdırılması üçün Fövqəladə Təhqiqat Komissiyası yaradılmışdı. Komissiya 1920-ci ilin aprelinə qədər fəaliyyət göstərib.

Fövqəladə Təhqiqat Komissiyasının gördüyü böyük işlərdən biri də "İsmailiyyə"də aparılmış araşdırmalardır. Belə ki, Bakı Quberniya mühəndisi Şternberq, komissiya üzvləri Məmməd Xan Təkinski, A.Kluge tərəfindən tərtib olunmuş aktda İsmailiyyə binasının acınacaqlı vəziyyəti əksini tapıb: "1918-ci il, 22 noyabrda Azərbaycan Hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyası, ekspert qismində xüsusi olaraq dəvət edilmiş quberniya mühəndisi A.M.Şternberqin iştirakı ilə, "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin 1918-ci ilin martında yanmış binasına baxış keçirdi və aşağıdakıları aşkar etdi. Bina Nikolayevskaya küçəsində Birinci və İkinci Nikolayevskaya döngələrinin arasında yerləşir və 4 №-li məhəllənin 440 kvadrat sajen ərazisini əhatə edir". Fövqəladə Təhqiqat Komissiyasının aktında qeyd olunub ki, binanın həyətə yarımsirkulyar çıxıntısında yerləşən mərkəzi giriş pilləkənı tamamilə uçub, dəmir-beton pilləkənlər və tirlər onların üzərinə tökülmüş tavanın və yuxarı meydançanın dəmir tirlərinin ağırlığına davam gətirməyib, yanğının çox yüksək temperaturundan əyilib və qatlanmış bu tirlərlə birlikdə pilləkənin aşağı meydançasında xaotik tonqal yaradıb.

Aktda salonun, foyenin və pilləkənin yapma naxışlı kirəc bəzək işləməsi hərarətdən və divar daşlarının alışmasından aralandığı, bəzi yerlərdə qopub düşdüyü qeyd olunub. Bildirilib ki, əsas korpusun divarlarının hər iki tərəfdən alovun hərarətinə məruz qalmış yerlərində - daşın keyfiyyətini o dərəcədə dəyişib ki, ondan tikinti materialı kimi istifadə edilə bilməz: "Hər üç mərtəbədə tirlər ağacdan idi, tamamilə yanmışlar və damın uçması nəticəsində indi binanın bünövrəsi heç bir otaqlara bölünmə əlaməti olmadan açıq görünür. Binanın hər yerində yalnız korlanmış vəziyyətdə daş və dəmir hissələr qalmışdır və hətta fasad pəncərələrinin dəmir çərçivələrinin sement işləmələri hərarətin təsirindən uçub tökülmüşdür, bütün çərçivələr, qapılar və s. tamamilə yox dərəcəsindədir". Eskizə əsasən binanın həcmi təxminən 3000 kub sajen təşkil edir. 1907-1908-ci illərdə bu cür binanın bəzəkli işlənmə ilə tikilməsinin dəyəri bir kub sajenə görə 100-120 rubl təşkil edirdi və deməli, binanın qiyməti 330.000 rubla yaxın olmalı idi. Hal-hazırda işçi qüvvəsinin qiyməti o vaxtdan 25 dəfə, tikinti materiallarının qiyməti isə orta hesabla 20 dəfə artmışdır. Orta hesabla işçi qüvvəsinə çəkilən xərci materialın xərcinə bərabər tutsaq, binanın indi tikilməsinin qiymətinin 22 dəfə artdığını alırıq, yəni bu qiymət 7.260.000 rubl təşkil edir və bunu hazırkı aktda yazmağı qərara aldıq".

## Xalqın fədakarlığı sayəsində yox olmaqdan qurtulan saray

1920-ci ilin aprelində bolşeviklərin XI ordusu Azərbaycanı işğal edib, sovet hakimiyyəti qurulduqdan sonra İsmailiyyə sarayının başının üstünü növbəti fəlakət alıb. Dağılmış, yararsız hala salınmış sarayın sökülməsinə qərar verilib. Ancaq bu qərar yerli əhalinin narahatlığına və narazılığına səbəb olub. Onlar binanın qarşısına toplaşaraq, onun sökülməsinə imkan verməyiblər. Bu, "İsmailiyyə"nin yalnız memarlıq deyil, mənəvi dəyərə malik olduğunu bir daha sübut edib. Nəticədə bina xilas olub.

İsmailiyyə sarayının bərpasına 1923-cü ildə başlanılıb. Bərpa işlərində sarayın ümumi plan layihəsi olduğu kimi saxlanılıb. Amma fasadında bir sıra dəyişikliklər edilib, Quran ayələri və hədislərin həkk olunduğu medalyonlarda beşguşəli qızılı ulduzlar yerləşdirilib. Sonradan binada növbəti təmir və yenidənqurma işləri həyata keçirilib. Bir müddət "Türk Mədəniyyət Sarayı" adlandırılan bina müxtəlif təşkilatların istifadəsində olub. 1945-ci ildən isə burada Azərbaycan SSR Elmlər Akademiyası yerləşib. Hazırda Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyəti bu tarixi binada fəaliyyət göstərir.

İsmailiyyə sarayı Azərbaycan memarlığının, xeyriyyəçiliyinin və milli yaddaşının daşlaşmış salnaməsidir. Bu bina Musa Nağıyevin ata qəlbinin sarsıntısını, 1918-ci ilin faciəsini və sonrakı dirçəlişi, Azərbaycan xalqının fədakarlığını öz divarlarında yaşadır. Odur ki, bu saraya baxarkən təkcə gözəllik deyil, bir xalqın tarixinin nümunəsini görürük.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# AzMİU-da "Şəhərsalma və Memarlıq İli" çərçivəsində maarifləndirici ekskursiya təşkil olunub

**Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) "Şəhərsalma və Memarlıq İli" çərçivəsində 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin şagirdləri üçün maarifləndirici ekskursiya keçirilib.**

Ekskursiya zamanı şagirdlər Heydər Əliyev Muzeyi, universitetin sərgi salonu və müasir laboratoriyaları ilə tanış olub, AzMİU tələbələrinin hazırladığı layihələrə baxmaq imkanı əldə edib, memarlıq, inşaat və şəhərsalma ixtisasları barədə ətraflı məlumat alıblar.

Şagirdlərin çoxsaylı sualları cavablandırılıb, bu sahələrə dair bilik və bacarıqlarını artırmaq üçün ətraflı izahat verilib.

Qeyd edək ki, ekskursiyanın təşkilində əsas məqsəd şagirdlərin memarlıq və şəhərsalma sahələrinə marağını artırmaq, onları yaradıcılığa təşviq etmək, gələcəkdə bu sahələrdə təhsil almağa həvəsləndirməkdir.



# İŞİMİZ, GÜZƏRANIMIZ

## Dünya Bankı Bakı Beynəlxalq Dəniz Limanının 2-ci mərhələsi üzrə görülən işlərə investisiya qoymaq istəyir

**Orta dəhliz dünyanın ticarət marşrutları arasında sürətlə önə çıxmağa başlayıb. Səbəb məlumdur - dəhliz həm təhlükəsizlik, həm də iqtisadi səmərəlilik baxımından yükgöndərən və yükqəbuledən tərəflər üçün əlverişlidir. Buna görə dəhliz üzərindən daşınan yüklərin həcmi sürətlə artır.**

Bu isə dünyanın nüfuzlu maliyyə qurumlarının diqqətini cəlb edir. Orta dəhlizin hər bir seqmentinə yatırılan sərmayə heç bir risk daşımadığından maliyyəçilər belə fürsəti əldən qaçırmaq istəmirlər. Dünya Bankının (DB) Avropa və Mərkəzi Asiya regionu üzrə infrastruktur direktoru Çarlz Kormyenin başçılıq etdiyi nümayəndə heyətinin yolunu "Azərbaycan Dəmir Yolları" QSC-dən salması da bununla bağlıdır.

Dəmiryolçularla maliyyəçilərin görüşündə əməkdaşlığın mövcud vəziyyəti, münasibətlərin genişləndirilməsinin əhəmiyyəti müzakirə olunub, DB-nin Bakı Beynəlxalq Dəniz Limanının 2-ci mərhələsi üzrə işlərdə iştirakı, həyata keçirilən işlərə texniki dəstəyi və investisiya ayrılması imkanları barədə fikir mübadiləsi aparılıb.




"Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov bildirib ki, son dövr Orta dəhlizlə konteyner daşımalarının həcmi artıb, 2025-ci ildə Çin-Azərbaycan istiqamətində yükdaşımalar üzrə müsbət dinamika qeydə alınıb. Xatırlanıb ki, ötən il 392 blok-qatar qəbul edilib və bu, 2024-cü ilin göstəricisi ilə müqayisədə 37 faiz çoxdur. Bu nəticələrin əldə olunmasına ADY-nin gördüyü işlər, o cümlədən Çinin "China Railway Container Transport Corp. Ltd." (CRCT) şirkətinin Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmiryol qurumları arasında Orta dəhlizin inkişafı üçün yaradılmış "Middle Corridor Multimodal Ltd" birgə müəssisəsinə cəlb edilməsi prosesə müsbət təsir göstərib. Sədr həmçinin bildirib ki, ötən il beynəlxalq daşımaların səmərəliliyinin artırılmasında Bakı Beynəlxalq Dəniz Limanının ADY-yə inteqrasiyası mühüm rol oynayıb. 2025-ci ildə Bakı limanında rekord həcmdə - 107 min TEU-dan çox konteyner yükü aşırılıb ki, bu da 2024-cü illə müqayisədə 40 faiz artım deməkdir.

DB-nin regional direktoru Çarlz Kormye bankın ADY ilə əməkdaşlığın dərinləşdirilməsinə maraq göstərdiyini vurğulayıb, ADY tərəfindən Orta dəhlizin inkişafı üzrə görülən işlərin gələcək tərəfdaşlıq baxımından yeni imkanlar açdığını qeyd edib. Nəzərə çatdırılıb ki, ötən il ADY vasitəsilə "Şərq-Qərb" dəhlizi ilə daşınmış tranzit yüklərin həcmi 3,7 milyon ton olub ki, bu da əvvəlki illə müqayisədə 12 faiz çoxdur.

Məlum olduğu kimi, Gürcüstan Orta dəhlizdə ölkəmizin mühüm tərəfdaşıdır. Qonşu ölkə bu marşrutla daha çox yükün daşınmasına hər cür dəstək verir. Gürcüstanın Baş naziri İrakli Kobaxidze Beynəlxalq Gömrük Gününə həsr olunan tədbirdə çıxışı zamanı demişdir: "Şərq-Qərb avtomagistralı, Bakı-Tbilisi-Qars dəmir yolu, Tbilisi Quru Limanı, Anakliya dərin dəniz limanı layihəsi Gürcüstanın Orta dəhlizdəki rolunu gücləndirir".

Baş nazir Gürcüstanın geosiyasi mövqeyinin ölkəni Avropa və Asiyanın kəsişməsində təbii darvazaya çevirdiyini vurğulayaraq bildirmişdir: "Gürcüstan dənizə çıxışı olmayan 7 ölkə üçün etibarlı bazaya çevrilib. Ölkəmiz həmin ölkələrin qlobal ticarət yollarına çıxışını təmin edir. Məqsədimiz Gürcüstanı vətəndaşlarımıza və tərəfdaşlarımıza rifah gətirəcək çoxfunksiyalı regional mərkəzə çevirməkdir. Bu strategiya genişmiqyaslı infrastruktur layihələrinə əsaslanır".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Neft şirkətləri təkcə hasilatla məşğul olmurlar

### Onların sosial layihələrinin də əhatə dairəsi genişdir

**Azərbaycan Milli İncəsənət Muzeyində (AMİM) ölkənin görkəmli nonkonformist rəssamlarının əsərlərinin nümayişi üçün ayrılmış xüsusi sərgi zallarının təmiri və modernləşdirilməsi işləri başa çatıb. Bu işlərin görülməsini "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrinin tərəfdaşları maliyyələşdiriblər.**





Ölkəmizdə ən iri neft, qaz və ixrac layihələrinin operatoru olan BP şirkəti həmin layihələrdəki tərəfdaşları - SOCAR, TPAO, LUKOIL, SGC, NICO, MOL, INPEX, "ExxonMobil", ITOCHU, "ONGC Videsh", "Eni", MVM və "TotalEnergies"lə birlikdə, eləcə də özü ayrılıqda geniş sosial proqram həyata keçirir. Əməliyyatçı şirkət hələ neçə illər öncə bəyan edib: "Azərbaycanda biz ən çox töhfə verə biləcəyimizə inandığımız sahələrə yönəlməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürmüşük".





Ədəbiyyat hamı üçündür: Brayl əlifbasında yeni 19 kitab

Bu günlərdə uğurla yekunlaşan, Azərbaycan təsviri sənətində 1960-cı illərdə formalaşmış nonkonformist hərəkatın təşviqinə dəstək məqsədilə həyata keçirilən sosial layihə də məhz həmin təşəbbüslərdən biridir. Layihə çərçivəsində aparılan yenilənmə işləri zalların həm estetik, həm də funksional xüsusiyyətlərinin təkmilləşdirilməsinə yönəldilib. Müasir işıqlandırma sistemlərinin qurulması və divar səthlərinin müvafiq olaraq hazırlanması bu dəyərli əsərlərin beynəlxalq muzey standartlarına uyğun optimal texniki və vizual şəraitdə nümayişi və saxlanmasını təmin edir.

Layihə çərçivəsində 800 kvadratmetr divar, 400 kvadratmetr tavan və 330 kvadratmetr döşəmə sahəsi təmir edilib, həmçinin ən azı 150 sənət əsəri üçün qabaqcıl işıqlandırma sistemləri quraşdırılıb və muzey standartlarına uyğun 150 ədəd yeni taxta çərçivə hazırlanıb.

Layihənin ictimaiyyətə təqdimatı münasibətilə AMİM-də keçirilmiş tədbirdə BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli deyib: "Azərbaycanın zəngin mədəni irsinin qorunub saxlanmasına və təşviqinə yönəlmiş təşəbbüsləri dəstəkləməkdən qürur duyuruq. Bu gün təqdim etdiyimiz layihə Azərbaycanın nonkonformist təsviri sənət məktəbinin təbliğinə birbaşa töhfə verir. Sevindirici məqamlardan biri də odur ki, muzeyin əsaslı şəkildə yenilənmiş zalları artıq Azərbaycanın nonkonformist rəssamlarının möhtəşəm irsini layiqincə təqdim etmək üçün zəruri avadanlıqlarla təchiz edilib və bu da bu unikal əsərlərin tam dolğunluğu və estetik gözəlliyi ilə ziyarətçilərə çatdırılmasına imkan verir. Yenilənmiş zallar və quraşdırılmış müasir avadanlıq bu mədəni irsin ecazkar gözəlliyinin daha canlı görünüşünə, bu qiymətli əsərlərin bütün rəng çalarlarının və incəliklərinin tam möhtəşəmliyi ilə ictimaiyyətə daha əlçatan olmasına xidmət edir. Ümidvarıq ki, bu layihə nonkonformist rəssamların yaradıcılığına həm ölkədə, həm də beynəlxalq səviyyədə layiq olduqları yüksək qiymətin verilməsinə mühüm töhfə olacaq".

Qeyd edək ki, ümumi dəyəri 358min 89 manat olan bu layihə "Greentech Solutions" MMC tərəfindən icra edilib.

BP şirkəti daha bir bir sosial təşəbbüsün uğurla başa çatdığını bildirib. Bu, Azərbaycanda inklüziv cəmiyyətin təşviqi, inklüziv təhsilin inkişafı və görmə məhdudiyyətli şəxslərin sosial inteqrasiyasının gücləndirilməsinə yönəlmiş bir layihədir.

Layihənin əsas məqsəd ölkə üzrə 40 min nəfərdən çox görmə məhdudiyyətli insanın, o cümlədən təxminən 9 min uşağın mütaliə tələbatını qarşılamaq məqsədilə Brayl əlifbasında nəşr olunmuş Azərbaycan və xarici ədəbiyyat nümunələrindən ibarət müasir kitabxana yaratmaq idi.

Bu təşəbbüs müasir ədəbiyyat nümunələrini Azərbaycan dilində hazırlayaraq ölkənin mərkəzi kitabxanaları vasitəsilə oxuculara çatdırmaqla yanaşı, Brayl əlifbasında dayanıqlı mütaliə vərdişlərinin formalaşmasını dəstəkləyən dəyərli resurs bazasının yaradılması baxımından da çox əhəmiyyətlidir.

Layihə Azərbaycan və dünya ədəbiyyatından 19 seçmə əsərin Brayl əlifbasında nəşrini əhatə edir. Hər bir kitab ölkə üzrə görmə məhdudiyyətli insanların mütaliə ilə bağlı maraq və ehtiyacları nəzərə alınmaqla diqqətlə seçilib. Seçilmiş əsərlərin müəllifləri sırasında İsa Muğanna, Anar, Elçin, Sabir Əhmədli, Mövlud Süleymanlı, Çingiz Hüseynov, Kobo Abe, Henrix Heyne, Oskar Uayld, Əli Kərim, Vaqif Səmədoğlu və bir çox digər görkəmli yazıçı və şairin adı var.

Kitabların təqdimatı tədbirində BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Biz Azərbaycanda bilik, mədəniyyət və ədəbiyyatı görmə məhdudiyyətli minlərlə insan üçün daha əlçatan etməkdən qürur duyuruq. İnklüzivlik və bərabər imkanlar sosial investisiya strategiyamızın əsasını təşkil edir, bu layihə də icmalarda müsbət dəyişikliklər yaratmaq öhdəliyimizin daha bir nümunəsidir. Ədəbiyyatı Braylda nəşr edərək daha əlçatan etməklə, hamının ölkənin həm mədəni, həm də təhsil həyatında bərabər iştirakını dəstəkləmək və ana dilimizdə davamlı oxu mədəniyyətinin inkişafına töhfə vermək istəmişik. İnanırıq ki, bu layihə cəmiyyətimizin çoxsaylı həssas bir qrupu üçün faydalı olmaqla yanaşı, dəyərli təcrübənin yayılması baxımından da əhəmiyyətli bir sosial təşəbbüsdür".

Bu layihənin ümumi dəyəri isə 133 min manat təşkil edib. Hər biri 100 nüsxə olmaqla 19 adda ümumilikdə 1900 kitab çapdan çıxıb. Layihə "Azərnəşr" tərəfindən həyata keçirilib.

Xatırladaq ki, sözügedən dünyaşöhrətli neft-qaz şirkətlərinin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib. Fəaliyyətə başladığı vaxtdan indiyədək BP özü və əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkəmizdəki sosial sərmayə layihələrinə ümumilikdə 111 milyon dollardan çox vəsait xərcləyib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Sahibkarların uğur yolu

### Bu yolun təməli həm də KOBİA-nın dəstəyi ilə qoyulur

**Müasir dövrdə iqtisadiyyatın dayanıqlı inkişafı və məşğulluğun artırılması birbaşa sahibkarlığın gücləndirilməsi ilə bağlıdır. Bu baxımdan kiçik və orta biznes subyektlərinin dəstəklənməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi qəbul edilir. Sahibkarlıq mühitinin sağlamlaşdırılması, biznes təşəbbüslərinin təşviqi və yeni iş yerlərinin yaradılması məqsədilə həyata keçirilən ardıcıl islahatlar həmin sahənin inkişafına güclü təkan verir.**

Məhz bu məqsədlə fəaliyyət göstərən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) sahibkarlara hərtərəfli dəstək göstərərək, onların bilik və bacarıqlarının artırılmasına, maliyyə resurslarına çıxışının genişləndirilməsinə, eləcə də biznes mühitində üzləşdikləri çətinliklərin aradan qaldırılmasına kömək edir. KOBİA-nın həyata keçirdiyi xidmət və təşəbbüslər ölkədə sağlam rəqabət mühitinin formalaşmasına, innovativ ideyaların reallaşmasına və yerli biznesin beynəlxalq bazarlara inteqrasiyasına geniş imkanlar açır. Sahibkarlara göstərilən xidmətlərin mərkəzləşdirilmiş, şəffaf və operativ şəkildə təşkili biznes subyektlərinin vaxt itkisinin minimuma endirilməsinə, inzibati prosedurların sadələşdirilməsinə və fəaliyyətin daha rahat qurulmasına şərait yaradır.

Sahibkarlara vahid məkanda çoxsaylı dövlət və özəl xidmətlər təqdim edən KOB evləri qısa müddət ərzində biznes ictimaiyyətinin etimadını qazanaraq praktiki dəstək platforması kimi formalaşıb. Fakt: 2025-ci ildə sahibkarlara KOB evlərində ümumilikdə 543033 xidmət təqdim olunub. Bu göstərici KOB evlərinin sahibkarlar üçün nə qədər zəruri və etibarlı bir dəstək mexanizminə çevrildiyini aydın şəkildə nümayiş etdirir. Müraciətlərin əsas hissəsi biznes fəaliyyətinin həyata keçirilməsi üçün vacib olan sənədlərin rəsmiləşdirilməsi, eləcə də vergi məsələləri ilə bağlı olub ki, bu da sahibkarların gündəlik fəaliyyətində ən çox qarşılaşdıqları ehtiyac və çağırışları əks etdirir.

Göstərilən xidmətlərin bölgələr üzrə bölgüsü də KOB evlərinin fəaliyyət miqyasını aydın ortaya qoyur. KOBİA-nın məlumatına görə, müraciətlərin 327 minə yaxını "Bakı KOB evi"nin, 131 mindən çoxu "Yevlax KOB evi"nin, 18 minə yaxını "Xaçmaz KOB evi"nin, 67 mindən çoxu isə "Xaçmaz KOB evi"nin "Food City" Aqroparkında yerləşən xidmət mərkəzinin payına düşür. Bu faktlar paytaxtla yanaşı, regionlarda da KOB evlərinə artan tələbatı və sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsinin genişləndiyini təsdiqləyir. Sahibkarlara göstərilmiş xidmətlərin 496 minə yaxını dövlət



qurumları ("G2B"), 47 mindən çoxu isə biznes qurumları ("B2B") tərəfindən təqdim edilib.

Sahibkarlar KOB evlərinə ən çox yükdaşımaların həyata keçirilməsi üçün tələb olunan icazə blanklarının və fərqlənmə nişanlarının alınması, mənşə sertifikatlarının rəsmiləşdirilməsi, fiziki şəxslərin vergi uçotuna alınması, eləcə də vergi ilə bağlı digər məsələlərin həlli məqsədilə müraciət ediblər. Bundan başqa, gömrük prosedurları, kommunal və bank xidmətləri ilə bağlı müraciətlər də əhəmiyyətli pay təşkil edib. Bu isə o deməkdir ki, KOB evləri sahibkarlıq fəaliyyətinin müxtəlif mərhələlərini əhatə edən universal xidmət məkanıdır.

Göstərilən xidmətlərin keyfiyyəti və operativliyi sahibkarların məmnunluq səviyyəsində də öz əksini tapıb. Burada təqdim olunan xidmətlərdən istifadə edən sahibkarların 98 faizi həmin mərkəzlərin fəaliyyətindən razı qaldığını ifadə edib. Təkcə bu fakt həyata keçirilən dəstək mexanizmlərinin effektivliyinin bariz göstəricisi kimi diqqət çəkir.

KOB-ların biznes biliklərinin və bacarıqlarının artırılması üzrə göstərdiyi dəstək və xidmətlər sahibkarların peşəkar inkişafına, idarəetmə keyfiyyətinin yüksəlməsinə və rəqabətqabiliyyətli fəaliyyətin qurulmasına mühüm töhfə verir. Təlimlər, məsləhət xidmətləri və mentorluq proqramları KOB-lara bazar tələblərinə uyğunlaşmaq, maliyyə və strateji qərarları daha düzgün vermək imkanı yaradır. Belə dəstək mexanizmləri innovasiyaların tətbiqini sürətləndirir və dayanıqlı biznes mühitinin formalaşmasına xidmət edir.

Ötən il KOB subyektləri biznes istiqamətində bilik və bacarıqlarının artırılması məqsədilə geniş fəaliyyət göstərib. KOBİA bildirir ki, Bakı və regionlarda keçirilən 751 təlimdə satış, marketinq, mühasibatlıq, idarəetmə, brendləşmə, innovasiya, biznes planlama və "yaşıl iqtisadiyyat"ı əhatə edən mövzular üzrə dərslər keçirilib. Videotəlim platformasından 475 sahibkar və biznesə başlamaq istəyən şəxs faydalanıb. Eyni zamanda 340 sahibkara satış, marketinq, biznes planlama, mühasibatlıq və hüquqi məsələlərlə bağlı məsləhət xidməti göstərilib, 288 biznes-planın hazırlanmasına dəstək verilib. Ümumilikdə, 2025-ci ildə KOBİA-nın dəstək və xidmətlərindən 7 mindən çox KOB, startap və sahibkar yararlanıb. Bütün xidmətlər canlı və onlayn rejimdə, tam ödənişsiz təqdim olunub.

2025-ci il KOB-ların satış imkanlarının genişləndirilməsi sahəsində də uğurlu nəticələrlə yadda qalıb. Mikro və kiçik sahibkarların məhsul və xidmətlərinin bazara çıxarılması, tanıdılması, satışının artırılması üçün bir sıra dəstək mexanizmləri uğurla tətbiq olunub: 350 mikro, kiçik və orta biznes subyekti bu imkanlardan yararlanıb. 85 KOB ölkədaxili və xarici sərgilərdə (8-i yerli, 3-ü xarici) ödənişsiz iştirak edib. Göygöl, Şuşa və Göyçayda keçirilən 3 "KOB Fest" sərgi-satış yarmarkasında 220 sahibkar məhsul və xidmətlərini təqdim edərək satış həyata keçirib. Mikro və kiçik sahibkarların məhsullarının iri ticarət şəbəkələrində satışı üçün yaradılmış 7 satış nöqtəsində isə 45 KOB-un məhsulu alıcıların ixtiyarına verilib.

Göründüyü kimi, 2025-ci ildə KOBİA-nın həyata keçirdiyi dəstək və təşəbbüslər KOB-ların biznes biliklərini artırmaqla yanaşı, onların satış imkanlarını da əhəmiyyətli dərəcədə genişləndirib. Təlimlər, məsləhət xidmətləri, sərgi və yarmarkalar vasitəsilə sahibkarlar yeni bazarlara çıxış əldə edib, məhsul və xidmətlərini tanıdıb, iri ticarət şəbəkələrində satış imkanlarını artırıblar. Bu fəaliyyətlər KOB-ların davamlı inkişafına təkan verir, rəqabət qabiliyyətini gücləndirir, ölkədə sahibkarlığın daha dayanıqlı formalaşmasını sürətləndirir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Məktublar: problemlər, rəylər, təkliflər...



● QƏHRƏMANLAR UNUDULMUR

## Vətən üçün ölmək şərəfdir



**Hər yerdə olduğu kimi, bizim Qubada da hər il onlarca tədbir keçirilir və çoxumuz həmin tədbirlərdə iştirak edirik. Bu zaman iştirakçılarla görüşlərimiz, söhbətlərimiz çox olur. Hamının fikri belədir ki, şəhidlərimizə həsr edilən tədbirlər yüksək təşkilatçılığı ilə seçilməlidir.**

Bu günlər rayon icra hakimiyyəti və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının birgə təşkilatçılığı ilə şəhid Nuran Mirzəyevin keçdiyi həyat və döyüş yoluna həsr edilmiş "Vətən üçün şəhid oldum" kitabının təqdimatı baş tutdu. Şıxəmməd Seyidməmmədovun müəllifi olduğu kitabda şəhid Nuranın ömür yolu, Vətən sevgisi ilə döyüşlərə atılması, düşmənə qarşı son nəfəsə qədər vuruşmasından söz açılıb. Mənim xüsusi qeyd edərək nəzərinizə çatdırmaq istədiyim başqa bir məqam var: tədbirin keçirildiyi zalda bütün yerlər dolmuşdu. Hətta foye və iclas zalının qarşısında xeyli insan toplaşmışdı.

Sirr deyil ki, insanların könülsüz getdiyi cürbəcür tədbirlər də olur. Şəhidlərimizə həsr edilən tədbirlərə isə öz istəyi ilə gələnlər hətta dəvətlilərin sayını üstələyir. Bu tədbirdə də belə idi.

İstər-istəməz 44 günlük Vətən müharibəsinin getdiyi vaxtı xatırladım. Həmin günlər yüzlərlə qubalı gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə DX-nin rayon şöbəsinin qarşısına toplaşmışdı. "Vətən üçün şəhid oldum" kitabına gəlincə isə müəllifin qələmə aldığı ömür yolu onlarca qubalı səhidin şərəfli həyatından bir nümunədir. Onu da qeyd edək ki, həmin kitab Qubanın bütün kənd nümayəndəliklərinə göndərilib. Çünki qəhrəman oğulların şücaəti haqqında hamının məlumatı olmalıdır.

***Rəxşəndə BAYRAMOVA,***
***tarix üzrə fəlsəfə doktoru,***
***Quba rayon sakini***

● ELM OCAQLARIMIZ

## Müəllim-tələbə münasibətləri düzgün qurulanda

**Sumqayıt Dövlət Universitetinin tələbəsiyəm. Gənclər şəhərinin bu ali təhsil ocağında mənim kimi yüzlərlə tələbə təhsil alaraq müxtəlif elmlərin sirlərini öyrənir.**



Müəllim-tələbə münasibətləri düzgün qurulduğundan burada oxuyan hər bir gənc üzərinə düşən məsuliyyəti dərk edir və aldığı biliklərin daha mükəmməl olmasına çalışır. Birinci kurs tələbəsi olaraq mən bunu universitetə qəbul olunduğum ilk gündən hiss edirəm.

Universitetimizdə həkim nəzarətindən tutmuş texniki dərs vasitələrinə qədər təhsilimizə dəstək verən nə varsa, hamısı yeni qaydalara əsaslanır. Bir məsələni isə xüsusi olaraq qeyd etmək istəyirəm. Payız semestrinin imtahan sessiyası başlayandan universitetin rəhbərliyi imtahan gedən hər auditoriyaya baş çəkir və onun gedişini sonadək izləyir. Düzü, bir tələbə olaraq bu, çox xoşumuza gəlir. Çünki təhsil aldığın müəssisənin rəhbərliyinin imtahanlarda iştirakı şəffaflığın göstəricisidir. Bir çox halda rektor özü şəxsən tələbələri sual-cavab edir. Bundan sonra hər tələbəyə dediyi söz, söylədiyi fikir, verdiyi məsləhət təhsildə bizim meyarımıza çevrilir.

Rəhbərlik bizimlə söhbət zamanı bildirir ki, sizin aldığınız təhsil sonda Vətənin inkişafına xidmət edir. Hər birinizin elmi potensialı gələcəkdə ölkəmizə damcı qədər xeyir gətirərsə, bu, sonra dənizə çevrilir. Məhz bu meyarla müəllimlərimizin də hər biri aldığımız təhsilin mükəmməlliyi məsələsinə diqqətlə yanaşır.

Bütün bunları görən biz tələbələrin məsuliyyəti birə-beş artır. Həm də tələbə onu valideyni qədər düşünən dəyərli insanlarla təmasda olmağından qürur duyur.

***Nuray ƏLİYEVA,***
***SDU-nun tələbəsi***

AZƏRBAYCAN-a
cavab verirlər

## "Bizlik deyil... Vəsaitimiz yoxdur... Səlahiyyətlərimiz xaricindədir"

**"Azərbaycan" qəzetində dərc olunan "Yolumuz təhlükə saçır" sərlövhəli məqalə barədə 17 noyabr 2025-ci il tarixli məktubunuza Azərbaycan Yerüstü Nəqliyyat Agentliyində (AYNA) baxılmışdır.**

Bildiririk ki, məqalədə vurğulanan yol sahəsi üzrə təhlükəsizliyin təmin edilməsi məqsədilə zəruri olan bütün yol nişanları AYNA tərəfindən müvafiq standartlara uyğun şəkildə quraşdırılmışdır.

Nəzərinizə çatdırırıq ki, işıqfor obyektlərinin, o cümlədən sürət rejiminə nəzarət edən xüsusi texniki vasitələrin (radar qurğularının) quraşdırılması, istismarı və idarə edilməsi AYNA-nın səlahiyyətləri xaricindədir.

***Anar SƏMƏDOV,***
***İdarə Heyətinin sədr müavini***

**Redaksiyadan:** *Bakı şəhəri Sabunçu rayonu, Yeni Ramana qəsəbəsi, Qarabağ küçəsində yaşayan bir qrup sakin tərəfindən redaksiyamıza göndərilmiş və qəzetimizin 4 noyabr 2025-ci il tarixli sayında "Yolumuz təhlükə saçır" başlığı ilə dərc olunmuş məktuba Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) verilən bu cavabdan belə məlum olur ki, işıqforların, sürət rejiminə nəzarət edən xüsusi texniki vasitələrin (radar qurğularının) quraşdırılması, istismarı və idarə edilməsi bu qurumun səlahiyyətində deyil.*

*Məsələ oxucularımıza aydın olsun deyə xatırladaq ki, qeyd edilən ünvanda yaşayan sakinlərin problemi ərazidə avtomobillərin yüksək sürətlə hərəkət etmələri üzündən həyatları üçün yaranan təhlükədir. O üzdən sakinlər illərdir müxtəlif qurumların qapılarını döyürlər ki, ölümsaçan həmin yolun bir tərəfindən digərinə keçmək üçün tədbirlər görülsün. Yəni yola ya işıqfor qoyulsun, ya piyada keçidi üçün zolaq çəkilsin, ya da yolda sürət həddi endirilib kamera quraşdırılsın.*

*Təəssüf ki, bu günədək həmin qurumların heç biri bu işi, yəni problemin həllini öz üzərinə götürmür, yaxud götürmək istəmir - biri deyir bizlik deyil, başqası deyir vəsaitimiz yoxdur, AYNA da, gördüyünüz kimi, yazır ki, səlahiyyətləri xaricindədir. Şübhə etmirik ki, məsələn, cərimə etmək lazım olsaydı, həmin qurumlar indi əlbəyaxaya çıxmışdılar. Vətəndaşların probleminin həllinə gəldikdə isə hərə bir bəhanə ilə yaxasını kənara çəkir.*

*Amma bütün hallarda biz və son ümid ünvanı kimi "Azərbaycan" qəzetini seçən sakinlər ümidimizi itirmirik. Təki bu cür problemlərin həllinə cavabdeh olan qurumların rəhbərləri də məsuliyyətlərini itirməsinlər.*

## Cavabsız cavab

**Sizin 08.01.2026-cı il tarixli məktubunuza aidiyyəti üzrə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-də baxılıb.**

Nəzərinizə çatdırırıq ki, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-də "Məhməd. Fəthlər sultanı", Mədəniyyət TV kanalında isə "Paytaxt: Əbdülhəmid" tarixi türk seriallarının yayımı davam edir. Bununla yanaşı, QSC-də "Dirilən adam" adlı milli serialımızın da yayımı başlayıb.

***Hörmətlə,***
***Emin HÜSEYNOV,***
***Proqramlar direktoru***

**Redaksiyadan:** *Biz "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-yə qəzetimizdə dərc olunmuş oxucu məktubuna operativ reaksiya verdiyi üçün təşəkkür edirik. Əslində, belə də olmalıdır, çünki KİV olaraq hamımız oxucu, dinləyici və tamaşaçı üçün çalışırıq və o üzdən onların hər fikri, iradı, gileyi bizim, daha doğrusu, fəaliyyətimiz üçün gərəkli və faydalıdır.*

*Amma məsələ ondadır ki, AzTV-nin tamaşaçısı olan oxucumuzun narazılığı QSC-nin redaksiyamıza göndərdiyi məktubda sadalanan filmlərdən yox, konkret olaraq "Quruluş Osman" və "Səlahəddin Əyyubi: Qüdsün fatehi" seriallarının yayımının xəbərdarlıqsız və izahsız dayandırılmasından idi. Başqa sözlə, hörmətli telekanalın başqa türk seriallarını yayımlaması məktub müəllifinin sualına aydınlıq gətirmir və belə olan halda kim zəmanət verə bilər ki, QSC-nin hazırda nümayiş etdirdiyi seriallar da bir gün qəfildən kəsilməyəcək - xəbərdarlıqsız, izahsız. Bu isə, sözsüz ki, tamaşaçı etibarının itirilməsi deməkdir.*

● RAZILIQ

## İşıq problemimiz həll olundu



**Rayon icra hakimiyyətinin başçısı kəndimizdə olarkən ona çatdırdıq ki, yaşadığımız küçədə elektrik enerjisi tez-tez zəifləyərək bizə problem yaradır. Rayon rəhbəri sakinlərin səsləndirdikləri bu problemlə bağlı aidiyyəti şəxslərə tapşırıqlar verdi.**

Bir neçə gündən sonra Qazax Elektrik Şəbəkəsinin nümayəndələri gələrək vəziyyətlə yerində tanış oldular. Qısa vaxt ərzində yararsız dayaqlar və naqillər 60-a yaxın dəmir dayaqla əvəz edildi. Ən əsası da 6 kilovoltluq 160 KVA yeni transformator qoyularaq əlavə güc mənbəyi yaradıldı. İndi elektrik enerjisi ilə təminatda heç bir problemlə üzləşmirik.

Hörmətli redaksiya! Sakinlər onlara göstərilən qayğıya və müraciətlərinə operativ şəkildə baxıldığına görə Qazax Elektrik Şəbəkəsinin əməkdaşlarına, əziyyəti keçən hər kəsə razılıqlarını bildirirlər.

***Ruslan BİNNƏTOV,***
***Qazax rayonunun Daş Salahlı***
***kənd sakini***

● FOTOFAKT

## Qar: gətirdiyi sevinc və yaratdığı fəsadlar









**Bakıya yağan qar şəhərin həyat ritmini dəyişir. Adətən mülayim iqlimi ilə tanınan paytaxtımız üçün qar həm xoş hadisə, həm də müəyyən çətinliklərlə yadda qalır. Bir tərəfdən ağ mənzərələr, qartopu oynayan uşaqların sevinci, digər tərəfdən hərəkətin iflic olması, işə gecikmələr, yıxılıb zədə almalar. Odur ki, qar yağmasını Bakıda təkcə təbiət hadisəsi deyil, həm də sosial imtahan kimi qəbul etmək olar.**

Şəhərin infrastrukturu qar yağmağına tam uyğunlaşmadığı üçün ilk problemlər yollardan başlayır. Buz bağlayan və vaxtında təmizlənməyən küçələr səbəbindən tıxaclar yaranır. Avtomobillərin qış təkərlərinin, zəncirlərinin olmaması, bəzən də sürücülərin naşılığı ucbatından qəzalar qaçılmaz olur, ictimai nəqliyyatın qrafiki pozulur. Xüsusilə enişli-yoxuşlu ərazilərdə yaşayan sakinlər üçün vəziyyət daha da çətinləşir. Bəzi küçələrdə piyadaların hərəkəti belə təhlükəli olur, yaşlılar və uşaqlar üçün risk artır.

Qar həm də idarə və müəssisələrin fəaliyyətinə təsir göstərir. Bir çoxu işə gecikir və ya ümumiyyətlə, işə gələ bilmir. Məktəblərdə davamiyyət azalır, valideynlər övladlarını evdən çıxarmağa tərəddüd edirlər. Bu vəziyyət bir daha göstərir ki, qar Bakıda "fövqəladə vəziyyət" yaradır, halbuki şəhərin müvafiq qurumları belə hadisələrə hazır olmalıdırlar.

Bununla yanaşı, qarın Bakıya gətirdiyi sevinc hissini də danmaq olmaz. Qar yağanda şəhər sanki tələsikliyini unudur, insanlar təmiz havadan ciyərdolusu udmaq üçün parklara, xiyabanlara çıxırlar. Uşaqlar üçün isə qar əsl bayramdır: qartopu oynamaq, qar adamı düzəltmək, xizək, əllərinə keçən taxta parçaları, sellofan torbalarla sürüşmək onların sevincini ikiqat artırır.

Parklar və bulvar qar altında fərqli bir gözəllik qazanır. Adətən küləkli və boz Bakı bu vaxt sakit və romantik təsir bağışlayır. Cütlüklər gəzintiyə çıxır, foto üçün nadir kadrlar yaranır. Qar şəhərə bir növ təmizlik gətirir, insanları gündəlik stresdən uzaqlaşdırır. Qar həm də insanları bir-birinə yaxınlaşdırır. Kimi buz bağlamış yolları təmizləyir, kimi qarda yeriməyə çətinlik çəkən yaşlılara əl uzadır, kimi də yolda qalmış avtomobil sürücülərinə yardım edir. Sosial mediada tənqidlərlə yanaşı, yumor da artır. Zarafatlar, ironik paylaşımlar Bakının qarla münasibətini daha da maraqlı edir. Bu, cəmiyyətin çətinliyə yumorla reaksiyavermə bacarığını göstərir.

Bir sözlə, Bakıya yağan qar özü ilə həm problem, həm də sevinc gətirir. O, kommunal qurumların zəif tərəflərini üzə çıxarmaqla bərabər, insanları uşaq kimi sevindirir. Qar əridikdən sonra küçələrdə müəyyən çətinliklər yaransa da, bu ağ günlərin xatirəsi bir müddət yaddaşlarda qalır. Bu dəfə paytaxta yağan qarın az olması sakinləri problemlərdən xilas etdi. Amma hava məlumatına görə, fevral ayında qar çox yağacaq. Odur ki, qarın yaratdığı sevincə, təmizliyə, necə deyərlər, soğan doğranmaması üçün ona indidən hazırlaşmalıyıq.

***Nərminə ƏSGƏROVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

● TƏDBİR

## "Bir gün, bir şair, min duyğu"

**Xızı məktəblərində vaxtaşırı müxtəlif tədbirlər keçirilir. Bu tədbirlər şagirdlərin tərbiyəsində mühüm rol oynayır.**

Bu günlər Abşeron-Xızı Regional Mədəniyyət İdarəsi Xızı rayon Mikayıl Müşfiq Muzeyində məktəblilər üçün "Bir gün, bir şair, min duyğu" adlı tədbir keçirib.

Xızılı şagirdlərə Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindən olan Mikayıl Müşfiqin həyatı, yaradıcılıq yolu haqqında geniş məlumat verilib, iştirakçıların ifasında şairin şeirləri səsləndirilib. Şairə məxsus əşyalar, haqqında yazılan məqalə və kitablar məktəblilərin marağına səbəb olub. Şagirdlər muzeyin xatirə kitabına öz təəssüratlarını qeyd ediblər.



Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, mədəni, tarixi irsimizə hörmət aşılamaq baxımından belə ekskursiya-tədbirlərin böyük əhəmiyyəti var. Gələcəkdə respublikamızın müxtəlif bölgələrindən məktəblilərin Xızıya ekskursiyaya dəvət edilməsi nəzərdə tutulur.

***Xəyal QOCAYEV,***
***Xızı rayonunun sakini***

● PROBLEM

## 40 ilə yaxındır mavi yanacaqsız qalmışıq

**Şəmkirin Tatarlı kəndində yaşadığımız massiv 37 il əvvəl salınıb. Amma elə o vaxtdan mavi yanacağa həsrət qalmışıq.**

Qəsəbəyə qaz çəkilişi 3 il əvvəl başlanılıb. Təəssüflər olsun ki, başlanan iş yarımçıq qalıb. Məsələ ilə bağlı "Azəriqaz" İstehsalat Birliyinə müraciət edəndə deyirlər ki, Şəmkirin 3 məntəqəsində, o cümlədən Tatarlı kəndində paylayıcı və daşıyıcı qaz kəmərlərinin tikinti işlərinə başlanılmışdır. Kəndin 5 kilometrə yaxın ərazisində müxtəlif diametrli paylayıcı küçə xətləri quraşdırılsa da, texniki çətinlik səbəbindən işlər dayandırılmışdır. İndi qəsəbə sakinləri həmin çətinliklərin nə vaxt aradan qaldırılacağını və 200 ailənin yaşadığı əraziyə mavi yanacaq veriləcək günü səbirsizliklə gözləyirlər.



Hörmətli redaksiya! Xahiş edirik səsimizi "Azəriqaz"a çatdırasınız. Çatdırasınız ki, ilin-günün bu vaxtında qazsız qalmaq çox çətindir!

***Minayə TAĞIYEVA,***
***Şəmkir rayonunun Tatarlı kənd sakini***




# Yurda dönüş davam edir

## Zəngilanın Məmmədbəyli kəndinin 756 sakini var





**Dünən Zəngilan rayonunun Məmmədbəyli kəndi daha bir köç karvanını qarşılayaraq illərlə yurd həsrəti çəkmiş ailələrə qucaq açıb. Bu dəfə kəndə 20 ailə, ümumilikdə 103 nəfər köçürülüb. Beləliklə, ötən ildən etibarən yenidən məskunlaşdırılan Məmmədbəylidə yaşayanların sayı 756 nəfərə çatıb. Qarabağ və Şərqi Zəngəzur üzrə ümumi göstəricilərə nəzər saldıqda isə qürurla deyə bilərik ki, indiyədək 26119 keçmiş məcburi köçkünün doğma torpaqlarına qayıdışı təmin olunub.**

Bu köç Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi ən genişmiqyaslı sosial layihələrdən biri olan "Böyük qayıdış" proqramının tərkib hissəsidir. Xüsusilə 2025-ci il bu prosesin sürətlənməsi və coğrafiyasının genişlənməsi baxımından yadda qalıb. İl ərzində yeni kəndlər və qəsəbələr sakinlərini qəbul edib, infrastruktur layihələri paralel şəkildə həyata keçirilib, insanların rahat və təhlükəsiz yaşayışı üçün bütün zəruri şərait yaradılıb. Dövlətimizin məqsədi yalnız insanları köçürmək deyil, onları uzunmüddətli və dayanıqlı yaşayış mühitinə qaytarmaqdır.

Məmmədbəyli kəndi bu baxımdan müasir yanaşmanın bariz nümunəsi hesab olunur. Kəndin rəsmi açılışı ötən il oktyabrın 28-də Prezident İlham Əliyevin iştirakı ilə gerçəkləşib. Bu, kəndin bərpasına və ümumilikdə regionun dirçəlişinə verilən siyasi və strateji önəmin göstəricisidir. Ümumi sahəsi 51,6 hektar olan yaşayış məntəqəsi müasir şəhərsalma prinsiplərinə uyğun şəkildə planlaşdırılıb.

Kənddə 188 fərdi yaşayış evi tikilib. Evlər müxtəlif ailə tərkibləri nəzərə alınaraq iki, üç, dörd və beş otaq olmaqla inşa edilib. Hər bir fərdi ev üçün həyətyanı sahə ayrılıb və bu ərazilər hasarlanıb. Bu, sakinlərin həm təhlükəsizliyini, həm də şəxsi məkan rahatlığını təmin edir. Evlər bütün mühəndis-kommunikasiya xətləri ilə tam təchiz olunub. Elektrik, qaz, su təminatı fasiləsizdir, yüksəksürətli internet şəbəkəsi kəndi əhatə edir. Alternativ enerji mənbələrindən istifadə də diqqət mərkəzində saxlanılıb, yaşayış evlərinin üzərində günəş panelləri quraşdırılıb.

Məmmədbəylidə yalnız evlər deyil, kəndin ümumi infrastrukturu da sıfırdan yaradılıb. Kənddaxili yollara asfalt örtüklər çəkilib, nəqliyyatın rahat hərəkəti üçün bütün zəruri işlər görülüb. İki çoxfunksiyalı qeyri-yaşayış binası inşa olunaraq ictimai və inzibati xidmətlərin göstərilməsi üçün istifadəyə verilib. Bu binalarda yerləşən qurumlar kənd əhalisinin gündəlik ehtiyaclarının yerində və operativ şəkildə qarşılanmasına imkan yaradır.

Kəndin memarlıq həlli yalnız funksionallıqla məhdudlaşmır. İnzibati binaların fasadlarında, keçid və istinad divarlarında işlənmiş bədii rəsmlər yaşayış məntəqəsinə estetik görkəm qazandırır. Bu detallar kəndin ümumi görünüşünü daha cəlbedici edir və ərazidə yeni həyatın təkcə praktik deyil, eyni zamanda mədəni-estetik əsaslar üzərində qurulduğunu nümayiş etdirir.

Məmmədbəyli kəndinin coğrafi mövqeyi də sosial-iqtisadi baxımdan səmərəli şəkildə dəyərləndirilib. Kənd Ağalı yaşayış məntəqəsinə yaxın məsafədə yerləşdiyindən bu iki kənd arasında xüsusi keçid yolu salınıb. Bu keçid sakinlərə Ağalı kəndində yerləşən təhsil, səhiyyə və xidmət obyektlərindən rahat istifadə imkanı yaradır. Belə ki, 360 şagird yerlik tam orta məktəb, 60 yerlik uşaq bağçası, ailə sağlamlıq mərkəzi, məişət xidməti müəssisələri, aptek, bazar kompleksi və müxtəlif xidmət obyektləri artıq bir neçə kəndə eyni vaxtda xidmət edir. Bu model resurslardan daha effektiv istifadəni təmin etməklə yanaşı, regionun inteqrasiya olunmuş inkişafına şərait yaradır.

Qayıdış prosesinin əhəmiyyəti təkcə rəqəmlərlə ölçülmür. Uzun illər məcburi köçkünlük həyatı yaşamış insanlar üçün bu dönüş dərin sosial və mənəvi məna daşıyır. Onlar yalnız yeni tikilmiş evlərə deyil, uşaqlıqlarının keçdiyi küçələrə, ailə xatirələrinə, ata-baba torpaqlarına qayıdırlar. Bu qayıdış insanların illərlə içlərində yaşatdıqları ümidlərin gerçəkləşməsi deməkdir. Doğma yurda dönüş ailə institutunun möhkəmlənməsinə, icma həyatının bərpasına və cəmiyyətin sosial birliyinin güclənməsinə də mühüm töhfə verir.

Bu gün azad edilmiş ərazilər artıq münaqişənin acı xatirələri ilə deyil, quruculuq, inkişaf və gələcək perspektivləri ilə xatırlanır. Burada həyata keçirilən hər bir layihə - çəkilən yol, tikilən ev, salınan məktəb və ya xəstəxana - uzunmüddətli strateji baxışın tərkib hissəsidir. Məqsəd bu torpaqları ölkənin ümumi inkişaf modelinə inteqrasiya etmək, regionu iqtisadi, sosial və mədəni baxımdan cəlbedici məkana çevirməkdir. Məmmədbəyli kəndində görülən işlər göstərir ki, Böyük qayıdış, sadəcə, bir köç proqramı deyil, Azərbaycanın gələcək nəsillər üçün qurduğu dayanıqlı inkişaf konsepsiyasının uğurlu təzahürüdür.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Aİ və Hindistan 19 ildən sonra azad ticarət müqaviləsini imzaladılar

**Avropa İttifaqı (Aİ) və Hindistan qlobal ÜDM-in 25 faizini və dünya ticarətinin təxminən üçdəbirini əhatə edən azad ticarət müqaviləsini yekunlaşdırıblar. Aİ-nin Mətbuat xidməti bunu çərşənbə axşamı - yanvarın 27-də açıqlayıb.**



Aİ və Hindistan hər il dəyəri 180 milyard avrodan çox mal və xidmət ticarəti həyata keçirir və Aİ-də təxminən 800 min iş yerini təmin edir. Bu müqavilənin Aİ-dən Hindistana ixrac edilən malların 96,6 faizinə tarifləri ləğv etməklə və ya azaltmaqla 2032-ci ilə qədər Aİ-nin Hindistana ixracını ikiqat artıracağı gözlənilir. Ümumilikdə tarif endirimləri Avropa məhsullarına ildə təxminən 4 milyard avro rüsum qənaət edəcək.

"Bu gün Aİ və Hindistan dünyanın ən böyük demokratiyaları arasında tərəfdaşlığı dərinləşdirməklə tarix yaradırlar. Hər iki tərəf üçün iqtisadi fayda gətirən 2 milyard insan üçün azad ticarət zonası yaratdıq. Biz dünyaya qaydalara əsaslanan əməkdaşlığın əla nəticələr verməyə davam etdiyi mesajını göndərdik", - deyə Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen bildirib.

Hindistanın Baş naziri Narendra Modi öz növbəsində vurğulayıb ki, dünya miqyasında insanlar bu müqaviləni "bütün müqavilələrin anası" adlandırırlar. Onun dediyinə görə, bu müqavilə Hindistanda 1,4 milyard, Avropada isə milyonlarla insan üçün böyük imkanlar açacaq.

Müqavilə əsasən kənd təsərrüfatı, avtomobil və xidmət sektorlarına fayda verəcək. Avropa avtomobillərinə tariflər tədricən 110 faizdən 10 faizə endiriləcək və avtomobil ehtiyat hissələrinə tariflər 5-10 il ərzində tamamilə aradan qaldırılacaq. Maşınlara 44, kimyəvi maddələrə 22 və əczaçılıq məhsullarına tətbiq olunan 11 faiz tariflər də əsasən götürüləcək. Aİ şərablarına rüsumlar 150 faizdən 75, zeytun yağına tariflər isə 45 faizdən 0 faizə endiriləcək. Makaron və şokolad kimi emal olunmuş məhsullara da Hindistan rüsumları tamamilə aradan qaldırılacaq. Müqavilə həmçinin Aİ şirkətlərinə maliyyə xidmətləri və dəniz nəqliyyatı kimi əsas sektorlar da daxil olmaqla Hindistan xidmət bazarına güzəştli giriş imkanı verəcək. Hindistan və Aİ arasında müqavilənin rəsmi imzalanmasının 5-6 ay davam etməsi gözlənilən hüquqi araşdırmadan sonra nəzərdə tutulur.

Aİ və Hindistan müqavilə üzərində işləməyə 2007-ci ildə başlayıblar. Danışıqlar dəfələrlə yarımçıq qalıb və 2013-cü ildə dayandırılıb. Müzakirələr 2022-ci ildə yenidən başlayıb.

Aİ və Hindistan həmçinin təhlükəsizlik müqaviləsi imzalamağa hazırlaşırlar. Bildirilir ki, bu, dəniz təhlükəsizliyi, kibertəhlükəsizlik və terrorizmə qarşı mübarizə kimi sahələrdə konkret nəticələr verəcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

**Azercell abunəçilərinin nəzərinə!**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 29.01.2026-cı il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.

İSB
İCBARİ SIĞORTA BÜROSU
Compulsory Insurance Bureau

**Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar barədə**

**ELAN**

Yaşıl Kart sisteminə üzv ölkələrə səfər etmək istəyən vətəndaşların nəzərinə çatdırırıq ki, bu növ üzrə "İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının (İSB) iştirakçısı olan sığorta şirkətləri bunlardır: "Atəşgah" Sığorta Şirkəti ASC, "Azərbaycan Sənaye Sığorta" ASC, "Meqa Sığorta" ASC, "Paşa Sığorta" ASC, "Qala Sığorta" ASC, "Xalq Sığorta" ASC.

Məlumat üçün bildiririk ki, İSB Yaşıl Kart sistemi üzrə əlaqələndirici, ixtisaslaşmış təşkilat kimi fəaliyyət göstərməklə Beynəlxalq Yaşıl Kart Sistemində Azərbaycanı təmsil edir.

**Tel: +99412 525 97 07, E-mail: aaliyeva@isb.az Web: www.isb.az**
**Ünvan: Akademik Zahid Xəlilov küçəsi, 53/1, Bakı, AZ1141**

# Aİ missiyasının buqələmun taktikası

## Missiya indiki formatını dəyişərək regionda qalmaq niyyətindədir

*Əvvəli 1-ci səh.*

Yəni ciddi narazılıqla üzləşən Aİ-nin hərbiləşdirilmiş müşahidəçilərini "hesabat yazan" mütəxəssislər əvəzləyəcək. "Sərhədyanı icmaların ziyarəti" bəndi də strategidir. Bu, Aİ-yə imkan verir ki, rəsmi sərhəd monitorinqi aparmasa da, birbaşa yerlərdə olmaqla vəziyyəti izləsin. Bununla, Qərbin regiondakı geosiyasi maraqlarının sülh prosesindən sonrakı dövr üçün də proqramlaşdırıldığı ortaya çıxır.

Açıqlamada diqqətçəkən məqamlardan biri də 2025-ci ilin avqustunda imzalanmış Vaşinqton razılaşmalarına istinaddır. Ritterin qeyd etdiyi kimi, həmin tarixdən bəri sərhəddə insidentlərin olmaması sülh prosesinin artıq praktiki mərhələyə keçdiyini və tərəflərin razılaşmalara sadiq qaldığını göstərir. Bu sabitlik fonunda missiyanın hərbi monitorinq funksiyası öz əhəmiyyətini itirir, çünki artıq tərəflər arasında birbaşa və ya dolayı etimad yaranmağa başlayıb. Vaşinqton razılaşmalarından sonra yaranan nisbi sabitliyi öz aktivinə yazmağa çalışan Aİ, bu yolla həm də Ermənistanın daxili siyasətindəki yerini möhkəmləndirir.

Xatırladaq ki, Aİ müşahidəçiləri 2023-cü ilin fevral ayından Azərbaycanla sərhədin Ermənistan tərəfində patrul missiyası həyata keçirir. 2025-ci il yanvarın 30-da Aİ Şurası 44 milyon avro büdcə ilə birliyin Ermənistandakı missiyasının mandatını iki il müddətinə uzadıb. Sənəddə bildirilir ki, missiya beynəlxalq və yerli heyət də daxil olmaqla 200-dən çox şəxsi heyətdən ibarətdir. Missiyanın müşahidəçiləri Aİ-nin 25 üzv ölkəsini və Kanadanı təmsil edirlər. Missiya tərkibində bu qədər ölkənin, xüsusilə Avropa qitəsindən kənarda yerləşən Kanadanın təmsil olunması göstərir ki, bu, sadəcə, Aİ layihəsi deyil, bütövlükdə Qərbin kollektiv nəzarət mexanizmidir.

Missiyanın varlığı Ermənistan üçün bir növ psixoloji təhlükəsizlik çətiri rolunu oynayır və İrəvanı Moskvanın təhdidindən qoruyur. Ermənistanın Baş naziri Nikol Paşinyan 2025-ci ilin noyabrında bildirmişdi ki, ən azından sülh sazişi imzalanana və Ermənistanla Azərbaycan arasında dövlətlərarası münasibətlər qurulana qədər Aİ-nin monitorinq qrupunun fəaliyyətində əsaslı dəyişiklik gözlənilmir: "Müqavilə imzalandıqdan və ratifikasiya edildikdən sonra onun fəaliyyət formatında müəyyən dəyişikliklər, şübhəsiz ki, mümkündür və baş verəcək". Paşinyanın yanaşmasından da aydın olur ki, İrəvan hökuməti Aİ missiyasının birdəfəlik bölgəni tərk etməsini arzulamır.

"Mülki" donu geyindirilmiş Aİ-nin Ermənistandakı missiyasının məqsədi informasiya toplamaq və Ermənistanı Qərbin orbitində saxlamaqdır. Eyni zamanda Azərbaycan və Türkiyənin regionda artan təsirini diqqətlə izləmək, prosesə nəzarət etməkdir. O baxımdan, Bakının missiyaya münasibəti təkcə diplomatik narazılıq deyil, həm də regiondakı suverenlik və təhlükəsizlik maraqlarının qorunmasına yönəlmiş strateji mövqedir. Azərbaycan tərəfi açıq şəkildə Ermənistandakı Aİ-yə məxsus missiyanın "kəşfiyyat qrupu" olmasını, "binokl diplomatiyası" ilə məşğul olduğunu dəfələrlə vurğulayıb. "Binokl diplomatiyası" ifadəsi missiyanın fəaliyyət üsuluna ironik və tənqidi yanaşma kimi gündəmə gəlib. Missiya üzvləri tez-tez müxtəlif Avropa rəsmilərini və diplomatik nümayəndə heyətlərini sərhəd bölgəsinə gətirərək onlara durbinlərlə Azərbaycan tərəfini izlətdiriblər. Ermənistan mediası isə bunu "təhlükəsizlik monitorinqi" kimi ictimaiyyətə sırıyır. Həmçinin missiyanın sayı və əhatə dairəsi Azərbaycanla məsləhətləşmədən artırılıb.

Azərbaycan missiyanın fəaliyyətinə son qoyulmasını tələb edərkən üç əsas arqumenti rəhbər tutur. Bakı və İrəvan arasında sülh prosesi yekun mərhələdədir və ikitərəfli təmaslar, müzakirələr, razılaşmalar intensivləşib. Tərəflər sərhədlərin delimitasiyası üzrə birbaşa, vasitəçisiz danışıqlarda uğur qazanıblar. Son aylarda iqtisadi əməkdaşlığa da start verilib. Bunlar sübut edir ki, prosesdə kənar vasitəçilərə, nəzarət funksiyasını icra edənlərə ehtiyac yoxdur. Ən əsası isə 2025-ci ilin avqust ayında Vaşinqtonda paraflanmış sülh sazişi layihəsində tərəflərin sərhəddə üçüncü tərəfin hərbi və ya monitorinq qüvvələrini yerləşdirməməsi barədə konkret bəndlər yer alıb. Aİ missiyasının Ermənistandakı mövcudluğu isə bu prinsipi pozur. Əgər Aİ regionda həqiqi sülh tərəfdarıdırsa, o zaman transformasiya bəhanələri axtarmaq əvəzinə, tərəflərin birbaşa razılığına hörmət etməli və öz missiyasını tamamilə yekunlaşdırmalıdır. Cənubi Qafqazın gələcəyi kənar müşahidəçilərin durbinləri ilə deyil, region dövlətlərinin imzaladığı sənədlər və qarşılıqlı etimad əsasında formalaşmalıdır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Bakıda və Abşeron yarımadasında hava bəzi yerlərdə fasilələrlə yağıntılı olacaq

**Azərbaycanda yanvarın 28-nə gözlənilən hava proqnozu açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında havanın bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 2-4, gündüz 5-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunundan 763 millimetr civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağıntının intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi dağlıq və dağətəyi rayonlarda arabir güclənəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 5-10, yüksək dağlıq ərazilərdə 11-13, gündüz 0-5 dərəcə şaxta olacaq. Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı

**KƏRİMAĞA TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin kollektivi agentliyin əməkdaşı Ceyhun Nəcəfova anası

**ŞURA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3267
Sifariş 141

Qiyməti 60 qəpik